Xalqın qəzeti!

# Xalq qəzeti

№ 18 (30987) 30 yanvar 2026-cı il, cümə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi

# Sosial-iqtisadi inkişaf strategiyası ölkəmizə tərəqqi və rifah gətirir




**İqtisadi müstəqillik əsas məsələlərdən biri idi. Ona da nail olduq. Enerji müstəqilliyinə nail olduq. Tarixi layihələri həyata keçirdik. Bu gün Azərbaycan sabit siyasi sistemə və inkişaf etməkdə olan iqtisadiyyata malik ölkədir.**

**Son 20 ildə minimum əmək haqqı 40 dəfə artıb. Azərbaycanda 3 min 600 məktəb, yüzlərlə xəstəxana tikilib və əsaslı təmir edilib. İqtisadiyyatımız nə qədər artsa, o qədər də sosial məsələlərə diqqət yetiriləcək.**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

## Vaşinqtonun Qafqaz jesti və TRIPP layihəsi



**Fevral ayında ABŞ-ın vitse-prezidenti Ceyms Devid Vens Azərbaycan və Ermənistana səfər edəcək. Bu səfər Cənubi Qafqazda formalaşan yeni geosiyasi reallıqların təzahürüdür. Regionda sülhün möhkəmləndirilməsinə, Azərbaycan–Ermənistan münasibətlərinin normallaşmasına və "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu" (TRIPP) layihəsinin icrasına xidmət edir. Əvvəllər periferik hesab edilən Cənubi Qafqaz artıq ABŞ üçün strateji əhəmiyyət daşıyan bölgəyə çevrilib.**

Səfərin marşrutuna nəzər yetirsək, bir məqam diqqətdən qaçmır. Gürcüstan Vensin marşrutunda yoxdur. Bu fakt ölkənin Qərbyönlü müxalifəti və onların xaricdəki siyasi və media dəstəkçiləri tərəfindən dərhal manipulyasiya predmetinə çevrilib. Onlar yenidən hakim "Gürcü arzusu" partiyasının ünvanına tənqid kampaniyasına start verib. İddia edirlər ki, guya, Gürcüstan rəhbərliyinin yarıtmaz siyasəti nəticəsində Donald Tramp administrasiyası Tbilisiyə marağını itirib.

*(ardı 5-ci səhifədə)*

## Avropa İttifaqı ABŞ-ın kölgəsindən niyə çıxır?



Səhifə ➩ 5

## Strateji çeviklik, yoxsa sistemli parçalanma?

*"İki sürətli Avropa" modelinin geosiyasi anatomiyası*




Avropa İttifaqı (Aİ) uzun müddətdir ki, institusional elastikliklə siyasi legitimlik arasında mürəkkəb tarazlıq problemi yaşayır. 27 üzv dövlətdən ibarət birlik üçün vahid qərar qəbuletmə mexanizminin qorunması həm normativ, həm də praktiki baxımdan getdikcə çətinləşir. Məhz bu kontekstdə Almaniya ilə Fransanın təşəbbüsü və İtaliya, Polşa, İspaniya, Niderlandın iştirakı ilə keçirilən videokonfrans Aİ-nin gələcək idarəçilik modeli ilə bağlı fundamental sualları yenidən gündəmə gətirib. Müzakirələrin mərkəzində duran "iki sürətli Avropa" modeli bir tərəfdən böhranlara operativ reaksiya vermək zərurətindən, digər tərəfdən isə Aİ daxilində dərinləşən struktur fərqliliklərdən qaynaqlanır.

*(ardı 5-ci səhifədə)*

## Azərbaycanın Avropa ilə enerji tərəfdaşlığının önəmi artır



Səhifə ➩ 6

## Mənəvi haqqı olmayanların vicdan oyunu



Səhifə ➩ 4

## Zəngəzur yolu enerji dəhlizinə də çevrilir



Səhifə ➩ 8

## "Zurabyançılıq" və tipik erməni xəstəliyi

*Yaxud sülhü təminatsız görənlər haqqında nekroloq əvəzi*



**İkinci Qarabağ müharibəsindən ötən beş il ərzində yaraların qaysaq bağlaması mümkünsüzdür. Heç Azərbaycanın ayrı-ayrı təbəqələrində də Ermənistana münasibətdə birmənalı təsəvvür yoxdur. Başqa sözlə desək, ölkəmizin ictimai rəyində bu ölkə ilə sülhün sabitliyinə dair baxışları oturuşmuş saymaq olmaz. İnamsızlıq meyilləri var və eyni meyillərin hay cəmiyyəti üçün də keçərliliyi təbii qarşılanmalıdır. Amma Ermənistan cəmiyyətində, xüsusən, ölkənin siyasi düşərgəsində patoloji xəstəlik də hökm sürməkdədir. Heç şübhəsiz, bu ilin yayına, yəni parlament seçkilərinə doğru bu xəstəliyin müxtəlif əlamətləri meydana çıxacaq.**

*(ardı 3-cü səhifədə)*

# Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin əməkdaşlarına ali xüsusi rütbələrin verilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin aşağıdakı əməkdaşlarına ali xüsusi rütbələr verilsin:

**"gömrük xidməti general-polkovniki" ali xüsusi rütbəsi**

Şahin Soltan oğlu Bağırov – Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri

**"gömrük xidməti general-mayoru" ali xüsusi rütbəsi**

Fuad Elxan oğlu Məmmədov – Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin müavini

Fuad Mikayıl oğlu Aslanov – Rəqəmsal İdarəetmə Baş İdarəsinin rəisi

Elmir Bahadur oğlu Ramazanov – Bakı Baş Gömrük İdarəsinin rəisi.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 29 yanvar 2026-cı il**

# Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi əməkdaşlarının təltif edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Gömrük orqanlarında səmərəli fəaliyyətinə görə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin aşağıdakı əməkdaşları təltif edilsinlər:

**3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə**

Quliyev Bəhruz Faiq oğlu
Şirinov Natiq Telman oğlu

**"Tərəqqi" medalı ilə**

Alverdiyev Tariyel Mehman oğlu
Məmmədov Elşən Malik oğlu

**"Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə**

Alışov Elvin Mahir oğlu
Bayramov Rəşad Fərrux oğlu
Dünyamalılı Emin Əhəd oğlu
Həsənov Rüstəm Abı oğlu
İsmayılov Amid Raqif oğlu
İsmayılov Seyfulla Lətif oğlu
Qasımov Orxan Araz oğlu
Quliyev Arif Mahmud oğlu
Qurbanov Vasif Elçin oğlu
Nəsibov Elxan Şiraslan oğlu
Nuriyev Nurlan Səxavət oğlu
Tağıyev Namiq İntiqam oğlu
Vəliyev Turqut Tehran oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 29 yanvar 2026-cı il**

# Milli Məclisin Sədri Oman Sultanlığında



**Milli Məclisin Sədri Sahibə Qafarova Oman Sultanlığına rəsmi səfəri çərçivəsində yanvarın 29-da bu ölkənin Şura Məclisinin sədri Şeyx Xalid bin Hilal Al Mavali ilə görüşüb.**

Görüşdə Oman və Azərbaycan arasında siyasi və digər əlaqələrin yaxşı səviyyədə olmasından məmnunluğunu ifadə edən Şura Məclisinin sədri qarşılıqlı münasibətlərin inkişafında parlamentlərin xüsusi rolunu qeyd edib. Diqqətə çatdırılıb ki, Milli Məclis Sədrinin bu səfəri qarşılıqlı əlaqələrin daha da genişləndirilməsinə öz töhfəsini verəcək.

Sahibə Qafarova 2023-cü ilin yanvarında Əlcəzairdə İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin Parlament İttifaqının 17-ci konfransı çərçivəsində həmsöhbəti ilə ilk dəfə görüşünü və o vaxtdan etibarən həmişə beynəlxalq təşkilatlar çərçivəsində görüşüb müzakirələr apardıqlarını məmnunluqla xatırlayıb.





Diqqətə çatdırılıb ki, bütün sahələr üzrə münasibətləri inkişaf etdirmək üçün böyük potensial mövcuddur.

Görüşdə təhsil və mədəniyyət sahələrində münasibətlərin əhəmiyyəti xüsusi vurğulanıb. Milli Məclisin sədri bildirib ki, bu mənada Leyla Əliyevanın bu ilin yanvar ayının əvvəlində Omana səfəri və bu səfər çərçivəsində aparılan müzakirələr mədəniyyət sahəsində əməkdaşlığımızı intensivləşdirəcək.

Vurğulanıb ki, parlamentlərin qarşılıqlı əlaqəsi ölkələrimiz arasında ikitərəfli və çoxtərəfli münasibətlərə mühüm töhfə verir. Bu sahədə parlamentlərarası dostluq qruplarının fəaliyyəti çox vacibdir. Qeyd edilib ki, Asiya Parlament Assambleyası və Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi bu sahədə mühüm platformalardır.

Söhbət zamanı Şeyx Xalid bin Hilal Al Mavali Azərbaycanın müdrik rəhbərinin başçılığı ilə iqtisadi inkişafının şahidi olduqlarını diqqətə çatdırıb.

*

**Milli Məclisin Sədri Sahibə Qafarova səfər çərçivəsində Oman Sultanlığı Dövlət Şurasının sədri Şeyx Əbdülməlik Al Xəlili ilə də görüşüb.**

Görüşdə ölkələrimiz arasında dostluq, qarşılıqlı hörmət və anlayışa əsaslanan ikitərəfli münasibətlərin mövcudluğu vurğulanıb. Söhbət zamanı iki ölkənin qanunverici orqanları arasındakı əlaqələrə dair fikir mübadiləsi aparılıb və parlamentlər arasındakı qarşılıqlı fəaliyyətin münasibətlərin daha da inkişafına töhfə verdiyi vurğulanıb.

Tərəflər son illərdə parlamentlər səviyyəsində əlaqələrin dərinləşməsindən məmnunluq ifadə ediblər. Vurğulanıb ki, parlamentlərimiz həm ikitərəfli, həm də beynəlxalq parlament platformalarında uğurlu əməkdaşlığa malikdir. O cümlədən Parlamentlərarası İttifaq, Asiya Parlament Assambleyası və İslam Əməkdaşlıq Təşkilatı kimi qurumlarda qarşılıqlı dəstək nümayiş olunur.

*

**Milli Məclisin Sədri Sahibə Qafarova həmin gün bu ölkənin xarici işlər naziri Bədr əl-Busaidi ilə də görüşüb.**

Görüşdə xarici işlər naziri Bədr əl-Busaidi parlamentlərarası münasibətlərin ölkələrimiz və xalqlarımız arasında əlaqələrə müsbət təsirini qeyd edərək, bu mənada Milli Məclis sədrinin səfərinin xüsusi əhəmiyyət kəsb etdiyini vurğulayıb. O, ölkələrimiz arasında siyasi, iqtisadi, turizm və biznes sahələrində əməkdaşlıq istiqamətində böyük potensialın mövcud olduğunu bildirib.

S.Qafarova görüşdə Azərbaycan ilə Oman arasında mövcud münasibətlərin möhkəm əsaslara söykəndiyini və bu əlaqələrin daha da inkişaf etdirilməsi üçün geniş perspektivlərin olduğunu diqqətə çatdırıb. O, beynəlxalq təşkilatlar çərçivəsində iki ölkə arasında əməkdaşlığın uğurla davam etdiyini, Oman Sultanlığının Azərbaycanın ərazi bütövlüyü və suverenliyinin təmin olunması ilə bağlı qəbul edilən sənədlərdə ölkəmizə daim dəstək göstərildiyini vurğulayıb.

Söhbət zamanı regiondakı mövcud vəziyyət barədə də fikir mübadiləsi aparılıb.

*

**Milli Məclisin Sədri Sahibə Qafarova Oman Sultanlığına rəsmi səfəri çərçivəsində bu ölkənin paytaxtı Məsqət şəhərində Azərbaycan Respublikasının səfirliyində olub.**

Milli Məclisin sədri və parlament nümayəndə heyəti səfirlikdə ulu öndər Heydər Əliyevin büstü önünə gül dəstələri qoyublar.

Daha sonra Sahibə Qafarova və nümayəndə heyətinin üzvləri səfirlik əməkdaşları ilə görüşərək, onlar üçün yaradılmış iş şəraiti ilə tanış olublar.

Spiker Sahibə Qafarova səfirlikdə xatirə kitabına öz ürək sözlərini yazıb.

***XQ***



# YAP Sədrinin müavini Vyetnamda



**Ölkəmizin Vyetnamdakı səfirliyinin təşkilatçılığı ilə Hanoyda "Strateji tərəfdaşlıq - siyasi partiyaların aparıcı rolu" mövzusunda tədbir keçirilib.**

Fövqəladə və səlahiyyətli səfiri Şövqi Mehdizadə iki ölkə arasında tarixi köklərə əsaslanan səmimi dostluq münasibətlərinin mövcud olduğunu diqqətə çatdırıb.

Tədbirdə çıxış edən Yeni Azərbaycan Partiyası Sədrinin müavini – Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov qeyd edib ki, müdrik dövlət xadimi Heydər Əliyev istər SSRİ dönəmində, istərsə də Azərbaycanın müstəqilliyinin bərpasından sonra ölkəmizə rəhbərlik etdiyi zaman Vyetnam ilə münasibətlərin inkişafına böyük önəm verib. Onun siyasətini uğurla davam etdirən Azərbaycanın Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev Vyetnamla əməkdaşlığın dərinləşdirilməsinə xüsusi diqqət yetirir.

Tahir Budaqov strateji tərəfdaşlıq münasibətlərinin irəliyə aparılması üçün ayrı-ayrı qurumların üzərinə mühüm vəzifələrin düşdüyünü, bu kontekstdə sıx əməkdaşlığın vacibliyini vurğulayıb. Qarşılıqlı səfərlərin önəminə diqqəti cəlb edən YAP Sədrinin müavini Yeni Azərbaycan Partiyası ilə Vyetnam Kommunist Partiyası arasındakı əlaqələrin genişləndirilməsi istiqamətində ardıcıl fəaliyyətin həyata keçirildiyini deyib.

Vyetnam Milli Statistika İdarəsinin baş direktoru Nguyen Thi Hong hər iki ölkənin müxtəlif sahələrdə işbirliyini genişləndirməsinin vacibliyinə toxunaraq statistika qurumları arasında əməkdaşlığın dərinləşdirilməsi istiqamətində görülən işlərdən bəhs edib. Vyetnam–Azərbaycan Dostluq Assosiasiyasının sədri Dang The Vin isə Azərbaycan–Vyetnam münasibətlərinin yüksələn xətt üzrə inkişafının məmnunluq doğurduğunu söyləyib.

***XQ***

# Konstitusiya Məhkəməsi Palatasının iclası

**Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Palatasının növbəti iclası olub.**

Məhkəmənin mətbuat xidmətindən verilən məlumata görə, iclasda Konstitusiyanın 130-cu maddəsinin VI hissəsinə və "Konstitusiya Məhkəməsi haqqında" Qanunun 7.1-ci maddəsinə əsasən, Cinayət-Prosessual Məcəlləsinin 148.6 və 447.2-ci maddələrinin şərh edilməsinə dair Bakı Apellyasiya Məhkəməsinin müraciətinə baxılaraq, Plenumun icraatına qəbul olunması haqqında qərardad qəbul edilib.

Müraciətə mahiyyəti üzrə Konstitusiya Məhkəməsi Plenumunun fevralın 19-na təyin edilmiş iclasında baxılacaq.

***XQ***

# Göyçayda vətəndaş qəbulu



**Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev yanvarın 29-da Göyçayda vətəndaşlarla görüşüb.**

Görüşdə əsasən Göyçay və Ağdaş rayon sakinləri iştirak ediblər. Vətəndaşların qaldırdıqları məsələlərin bir qismi yerində həll olunub, digərlərinin qısa müddətdə araşdırılacağı, həmçinin aidiyyəti üzrə dövlət qurumlarına çatdırılacağı bildirilib.

Vətəndaşların müraciətlərində əsasən dövlət mənzil fonduna məxsus xüsusi təyinatlı yaşayış sahələrinin verilməsi, müvəqqəti yaşayış sahələrinin təmiri, vahid aylıq müavinətin təyin edilməsi, məşğulluq, Böyük Qayıdış ilə bağlı və digər şəxsi xarakterli müraciətlər üstünlük təşkil edib.

***XQ***

# Heydər Əliyev Fondunun vitse-prezidenti İsveçrədə





**Leyla Əliyeva yanvarın 29-da İsveçrənin Qland şəhərində Beynəlxalq Təbiəti Mühafizə Birliyinin (IUCN) baş direktoru Qretel Agilar ilə görüş keçirib.**

Görüşdə Azərbaycan və regionda ətraf mühitin mühafizəsi sahəsində mövcud çağırışlar fonunda beynəlxalq əməkdaşlığın rolu, qlobal və regional səviyyədə əlaqələndirilmiş yanaşmaların əhəmiyyəti, habelə bu istiqamətdə dialoqun möhkəmləndirilməsinin perspektivləri ətrafında geniş fikir mübadiləsi aparılıb.

Bildirilib ki, 2014-cü ildən etibarən IUCN-in tamhüquqlu üzvü olan IDEA İctimai Birliyi təbiətin mühafizəsi və biomüxtəlifliyin qorunması istiqamətində beynəlxalq təşəbbüslərdə fəal iştirak edir və bu sahədə əməkdaşlığın genişləndirilməsinə töhfə verir. IUCN-in ötən il Əbu-Dabidə keçirilən Ümumdünya Mühafizə Konqresində təqdim olunmuş birgə pavilyon və bir sıra digər layihələrə toxunan görüş iştirakçıları qazanılan müsbət təcrübəni qeyd edərək, qarşılıqlı əməkdaşlığın uğurla davam edəcəyinə inandıqlarını ifadə ediblər.

Həmçinin görüş çərçivəsində Azərbaycanda IUCN ilə yüksəksəviyyəli regional dialoqun təşkili, beynəlxalq tədbirlər çərçivəsində birgə iştirak, o cümlədən Dünya Şəhərsalma Forumu (WUF13), Ümumdünya Ətraf Mühit Günü və COP31 çərçivəsində əməkdaşlıq imkanları müzakirə olunub.

Görüşün yekununda IUCN-in Azərbaycanda ölkə ofisinin açılması istiqamətində fəaliyyətlərin, eləcə də əməkdaşlıq əlaqələrinin daha da genişləndirilməsini nəzərdə tutan Niyyət Bəyannaməsi imzalanıb.

Tərəflər aparılan müzakirələri IDEA İctimai Birliyi ilə IUCN arasında uzunmüddətli və çoxtərəfli əməkdaşlığın inkişafı baxımından mühüm addım kimi dəyərləndiriblər.

Qeyd edək ki, 1948-ci ildən etibarən fəaliyyət göstərən IUCN ətraf mühitin mühafizəsi, biomüxtəlifliyin qorunması, eləcə də dayanıqlı inkişaf sahəsində dünyanın aparıcı beynəlxalq təşkilatlarından biridir. IUCN 1964-cü ildə nəsli kəsilmək təhlükəsi altında olan canlı və bitki növlərinin vəziyyətini əks etdirən Qırmızı Kitabı yaradaraq qlobal səviyyədə ekoloji qiymətləndirmə və qərarvermə proseslərinə mühüm töhfə verib.

*XQ*

# Azərbaycan təbiəti zubrları doğmalıqla qoynuna alır

**Leyla Əliyevanın təşəbbüsü ilə IDEA İctimai Birliyinin, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin, Ümumdünya Vəhşi Təbiətin Mühafizəsi Fondunun Azərbaycan nümayəndəliyinin həyata keçirdiyi zubrların reintroduksiya layihəsi çərçivəsində Berlindəki "Tierpark" heyvanat parkından 12 zubr Azərbaycana yola salınıb. Almaniyanın Bad Berleburq şəhərindən isə ölkəmizə 6 zubr göndərilib.**





Zubrların ölkəmizə göndərilməsi prosesini Azərbaycanın Almaniyadakı səfiri Nəsimi Ağayev, Berlinin "Tierpark" heyvanat parkının direktoru Andreas Knieriem və digər aidiyyəti qurumların nümayəndələri müşahidə ediblər.

Zubrlar Azərbaycanın zəngin təbiətində əsrlər boyunca məskunlaşıb. Bu cüssəli vəhşi öküzlər qədim zamanlardan insanlar tərəfindən güc rəmzi kimi qəbul olunub. Qobustan qayalarının üstündə vəhşi zubrların cizgilərinin əks olunması da bunun göstəricisidir. Populyasiya effektiv idarə olunmadığından bu növün Azərbaycanda sayı tükənib. Qafqaz dağlarında sonuncu zubr 1927-ci ildə öldürülüb. Son illər ərzində regionun və dünyanın aparıcı alimləri tərəfindən həyata keçirilən araşdırmaların nəticəsi olaraq, təbiətimizdə zubrlar üçün əlverişli şəraitin olduğu aşkarlanıb.

2012-ci ilin sonlarından etibarən zubrların ölkəmizin vəhşi təbiətinə reintroduksiya edilməsi istiqamətində IDEA İctimai Birliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi və WWF-in Azərbaycan nümayəndəliyi tərəfindən intensiv iş aparılır. IDEA İctimai Birliyi ilə Şahdağ Milli Parkı arasında imzalanmış Əməkdaşlıq Sazişinə əsasən, nəsli kəsilmiş zubrların bərpası və onların ölkə təbiətinə reintroduksiya olunması, digər növ vəhşi heyvanların elmi məqsədlərlə artırılması üçün Şahdağ Milli Parkının İsmayıllı bölməsində 305 hektar sahə ayrılıb, ərazidə zubrların çoxaldılıb təbiətə buraxılması üçün kompleks inşa edilib.



2019-cu ilin may ayından etibarən isə müxtəlif ölkələrdən, o cümlədən Almaniyadan Azərbaycana zubrlar gətirilir. Həmin heyvanlar uğurla adaptasiya dövrünü keçir və aralarında təbii artım müşahidə edilir, iqlimləşmə müddətindən sonra isə onlar xüsusi adaptasiya zonasından vəhşi təbiətə buraxılır.

Zubrlar Azərbaycana göndərilməsi üçün Berlin zooparkından nəqliyyat vasitələrinə yüklənərək Frankfurt şəhərinə çatdırılıb və oradan da ölkəmizə yola salınıb. Bu zubrlar Azərbaycana çatdırıldıqda bir müddət volyer şəraitində saxlanılacaq, adaptasiya dövrünü keçdikdən sonra təbiətə buraxılacaq. Bununla, Azərbaycandakı zubrların sayı təxminən 90-a yaxınlaşacaq. Layihənin 2028-ci ilə qədər davam etdirilməsi və zubrların sayının 100 başa çatdırılması nəzərdə tutulur.

*XQ*

# Uşaqların öz dünyası var...

## *Erkən yaşda məcburi dini seçim qadağan edilir*

**Milli Məclisdə müzakirəyə çıxarılmış "Uşaq hüquqları haqqında" yeni qanun layihəsi bu sahədə qanunvericilik bazasının müasir standartlara uyğunlaşdırılması baxımından mühüm mərhələ hesab oluna bilər. Layihədə ilk dəfə olaraq uşaqların vicdan və dini etiqad azadlığı ayrıca və aydın şəkildə təsbit edilir.**

Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin dünənki iclasında bildirildi ki, "Uşaq hüquqları haqqında" yeni qanun layihəsi hazırlanır. Layihə 8 fəsil, 63 maddədən ibarətdir. Sənəddə təsbit olunan yeni müddəalardan biri hazırkı dövrdə cəmiyyət üçün xüsusilə həssas məsələni əhatə edir. Qanun layihəsində azyaşlının vicdan azadlığı ayrıca maddə ilə tənzimlənir və uşaqların dini etiqada məcbur edilməsinin qadağan olunduğu birmənalı şəkildə qeyd edilir.

Məlumdur ki, uşaqlar müəyyən qədər valideynlərinin onlar üçün müəyyənləşdirdiyi "yol xəritəsi" üzrə hərəkət edirlər. Bununla yanaşı, cəmiyyətimizdə hər bir uşağın ayrıca fərd və hər fərdin öz vicdan azadlığına malik olması danılmaz faktdır. Bəllidir ki, uşaq dünyaya hazır inancla gəlmir. Erkən yaşlarda edilən dini seçimlər isə əksər hallarda uşağın öz iradəsindən daha çox valideynlərin qərarının nəticəsi olur. Şübhəsiz ki, hər bir valideyn övladına müəyyən dini dəyərlər aşılaya bilər. Lakin bu proses müəyyən mərhələdən sonra məcburi xarakter alırsa, artıq uşağın vicdan azadlığının açıq şəkildə pozulması gündəmə gəlir. Dinin məcburiyyətlə deyil, nümunə və anlayışla ötürülməsi azyaşlının şəxsiyyətinin sağlam formalaşması üçün olduqca əhəmiyyətlidir. Qanunun məqsədi hər hansı bir fərdi məhdudlaşdırmaq deyil, uşağın yetkinlik yaşına çatana qədər dini etiqad məsələsində seçim etmək, eləcə də bunun etməmək hüququnun qorunmasını təmin etməkdir.

Məsələ ilə bağlı dünya təcrübəsinə nəzərə salmaqda fayda var. Uşaq Hüquqları Konvensiyası bu sahədə dünyada geniş şəkildə ratifikasiya olunmuş beynəlxalq müqavilədir və hazırda, demək olar ki, BMT-yə üzv bütün ölkələri əhatə edir. Azərbaycan da bu Konvensiyaya qoşularaq uşaqların fundamental hüquq və azadlıqlarının qorunması ilə bağlı beynəlxalq öhdəliklər götürüb. Konvensiyanın 14-cü maddəsində uşaqların fikir, vicdan və dini etiqad azadlığı açıq şəkildə tanınır və bu hüquq uşağın şəxsiyyətinin formalaşmasının ayrılmaz tərkib hissəsi kimi qiymətləndirilir.

Beynəlxalq hüquq praktikasında, xüsusilə BMT-nin Uşaq Hüquqları Komitəsinin şərhlərində qeyd olunur ki, uşağın yaşı artdıqca onun dini və dünyagörüşü məsələlərində müstəqil qərarvermə imkanları da genişlənməlidir. Bu, "inkişaf edən imkanlar prinsipi" kimi tanınır və uşağın yetkinliyə doğru mərhələli şəkildə öz seçimlərini etməsini nəzərdə tutur. UNICEF-in Konvensiyanın "Uşaq dostu" versiyasında da uşaqların dini etiqad azadlığı onların öz fikir və inanclarını formalaşdırmaq, seçmək və ifadə etmək hüququ kimi təqdim olunur. Burada valideynlərin əsas funksiyası uşağı müəyyən dini etiqada məcbur etmək deyil, onun məlumatlı, sərbəst və təzyiqsiz şəkildə seçim edə bilməsi üçün dəstək göstərmək kimi izah edilir. Bu yanaşma uşağın fərdiliyinə hörmət prinsipini gücləndirməklə yanaşı, cəmiyyətdə dini tolerantlığın və plüralizmin formalaşmasına da töhfə verir.

Məsələ ilə bağlı **Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova** XQ-yə bildirdi ki, "Uşaq hüquqları haqqında" yeni qanunda vicdan azadlığı ayrıca bir maddə ilə tənzimlənir. H. Hüseynovanın sözlərinə görə, mövcud qanun uşaq hüquq və azadlıqlarının qorunmasında yetərli deyil: "Hazırda qüvvədə olan qanunvericilikdə uşağın vicdan, fikir və söz azadlığı bir maddədə və cəmi bir neçə cümlə ilə təsbit edilib. Lakin bu müddəalar kifayət qədər sadədir və detallı hesab olunmur. Yeni təqdim olunan qanun layihəsində isə bu yanaşma köklü şəkildə dəyişdirilib. Yəni vicdan azadlığı ayrıca bir maddədə, fikir və söz azadlığı isə başqa bir maddədə təsbit olunur və hər bir azadlıq uşaqların dünyagörüşü baxımından xüsusi və ətraflı şəkildə tənzimlənir".



Komitə sədri qeyd etdi ki, qanun layihəsində açıq şəkildə göstərilir ki, uşaqların dini etiqada məcbur edilməsi qadağandır: "Eyni zamanda qeyd olunur ki, uşaqların dini tərbiyəsi onların fiziki və psixoloji sağlamlığına zərər vurmamalıdır. Yalnız qanunvericilikdə nəzərdə tutulan xüsusi hallarda müəyyən məhdudiyyətlərin tətbiqinə yol verilə bilər. Bu məhdudiyyətlər isə uşağın sağlamlığının, mənəvi inkişafının və digər şəxslərin hüquq və azadlıqlarının qorunması məqsədi daşımalıdır".

Hicran Hüseynova qəzetimizə açıqlamasında qanun layihəsində yaş məsələsi ətrafında aparılan müzakirələrə də münasibət bildirdi. O qeyd etdi ki, layihənin müzakirəsindən sonra bəzi şəxslər qanunun hansı yaş həddinə şamil olunması ilə bağlı ona suallar ünvanlayıblar: "Həmin suallarda layihədə əksini tapan "uşaqların vicdan azadlığı" maddəsinin 16, yoxsa 18 yaşdan aşağı şəxslərə aid edilib-edilmədiyi maraq doğurub. H.Hüseynova vurğuladı ki, mövcud qanunvericiliyə əsasən, 18 yaşı tamam olmayan şəxslər uşaq hesab olunur və bu yaş həddindən aşağı bütün şəxslər qanun qarşısında azyaşlı sayılır. Bu səbəbdən də dini etiqadla bağlı müvafiq maddədə "uşaq" anlayışından istifadə edilir və ayrıca yaş həddi göstərilmir.

Milli Məclisin deputatı qanun layihəsinin qəbul ediləcəyi təqdirdə, uşağın digər əsas hüquq və azadlıqları ilə yanaşı, onun vicdan azadlığının təminatının da bu sənəddə aydın və hüquqi mexanizmlərlə müəyyən ediləcəyini vurğuladı. Hicran Hüseynova həmçinin gələcəkdə bu müddəaların həm İnzibati Xətalar Məcəlləsində, həm də digər normativ hüquqi aktlarda məsuliyyət mexanizmləri ilə daha da möhkəmləndiriləcəyini bildirib: "Bunlar perspektiv məsələlərdir. Hazırda isə biz yeni bir qanun layihəsindən danışırıq və bu layihə mövcud qanunvericiliklə müqayisədə daha ətraflı, uşağın mənafelərini əsas götürən və müasir prinsiplər üzərində qurulmuş bir sənəd kimi təqdim olunur".

Komitə sədri sonda qanun layihəsinin komitə səviyyəsində artıq birinci oxunuşdan keçdiyini və müsbət rəy verildiyini bildirdi. Onun sözlərinə görə, qarşıdakı mərhələdə layihə Milli Məclisin plenar iclasında birinci oxunuşda müzakirəyə çıxarılacaq.

Beləliklə, "Uşaq hüquqları haqqında" yeni qanun layihəsi uşağın vicdan və dini etiqad azadlığını ayrıca və sistemli şəkildə tənzimləməklə Azərbaycan qanunvericiliyinin bu sahədə beynəlxalq standartlara uyğunlaşdırılması istiqamətində mühüm addım kimi çıxış edir. Layihə uşağın fərdiliyini və inkişaf edən imkanlarını əsas götürməklə, valideyn məsuliyyəti ilə uşağın azad seçim hüququ arasında hüquqi balans yaratmağı hədəfləyir. Qanunun qəbul ediləcəyi təqdirdə uşaqların dini məsələlərdə məcburiyyətə məruz qalmasının qarşısının alınması, onların fiziki və psixoloji sağlamlığının qorunması, eyni zamanda, tolerant və plüralist cəmiyyət modelinin gücləndirilməsi üçün daha aydın və effektiv hüquqi çərçivə formalaşmış olacaq.

***Tacir SADIQOV***
***XQ***

# "Zurabyançılıq" və tipik erməni xəstəliyi

*(əvvəli 1-ci səhifədə)*

Müqayisəli yanaşsaq, deyə bilərik ki, Azərbaycanda xalq-iqtidar vəhdəti qorunur və bu vəhdət hansı mövqedə dayanmasından asılı olmayaraq, bütövlükdə, ölkəmizin siyasi kəsiminin yanaşmasına təsirsiz ötüşmür. Xalq-iqtidar vəhdətinin oturuşmuş tezisi Ermənistanla düşmənçiliyi daimi saymamaq prinsipinə əsaslanır. Buna görə də qohumu, doğması və əzizi müharibədə, özü də iki müharibədə həlak olmuş azərbaycanlı gələcəyə nikbin baxır. Yəni, sülhün qərarlaşacağına həm inanır, həm də inanmaq istəyir. Azərbaycan toplumu Ermənistanda haqqında söz açdığımız patoloji xəstəliyin simptomlarını da yaxşı görür. O simptomlar ki, hansısa lokal millətçi qrupların revanşist xəyallarında deyil, konkret siyasi qurum təmsilçilərinin fikir və düşüncələrində əksini tapır. Belə rəy formalaşır ki, parlament seçkilərində baş nazir Nikol Paşinyan iqtidarı məğlubiyyətə uğrayıb siyasi səhnədəki mövqeyini itirsə, qığılcımları yenicə közərən sülhdən əsər-əlamət qalmayacaq.

Ermənistanda Erməni Milli Konqresi adlı siyasi təşkilat – partiya var. O partiya ki, ona ölkənin birinci prezidenti Levon Ter-Petrosyan rəhbərlik edir. O Ter-Petrosyan ki, 1997-ci ildə məhz Azərbaycanla danışıqlar prosesinin Ermənistanın xeyrinə nəticələnməyəcəyini duydu. Levon dünya ictimaiyyətinin Qarabağı, o cümlədən digər işğal olunmuş torpaqlarımızı Ermənistan ərazisi kimi tanımayacağını bildiyindən, tutduğu postdan istefa verdi. Onun davranışı yalnız o zaman güclü mövqeyə malik Qarabağ klanının təmsilçiləri qarşısındakı acizlik deyildi.

L.Ter-Petrosyan, eyni zamanda, mütərəqqi qüvvə qismində davranmağın erməni xəstəliyi ilə tərs mütənasibliyini anlamış, istefası tipik xəstəliyə - reallığın, obyektivliyin və həqiqətin dərkinə meydan oxumaq xislətinə, bir növ, can vermək məramı daşımışdı. Onun gedişindən sonrakı 20 ildən artıq bir müddətdə bu xəstəlik, obrazlı desək, süni nəfəs aparatına qoşulu qalmışdı. Nəinki qalmış, habelə, özündə müəyyən həyat əlamətlərini daşımışdı. O əlamətləri ki, qeyri-konstruktivliyi əsas götürürdü. Belə yanaşma nəticəsində Qarabağ danışıqları da inkarçılıq mahiyyəti üzərində qurulurdu. Ermənistan hakimiyyəti ən müxtəlif bəhanələrlə vaxtı uzadır və danışıqlar prosesini pozurdu. Ancaq bıçağın sümüyə dirəndiyi aydın görünürdü.

Diqqət yetirək, hazırda Ermənistanın siyasi həyatında belə bir fikir var ki, ölkənin üçüncü prezidenti, yəni Qarabağ klanının Robert Koçaryandan sonrakı təmsilçisi Serj Sarkisyan tutduğu iqtidar kürsüsünü Paşinyana məhz Qarabağ danışıqlarının ölkəsi üçün heç bir fayda verməyəcəyini anladığı üçün təhvil vermişdi. Doğrudur, Paşinyan administrasiyasının nümayəndələri sırf bu məqamı qabartmırlar. Onlar sadəcə bildirirlər ki, müharibə məğlubiyyətinə görə əvvəlki Sarkisyan iqtidarı günahkardır, çünki bütün sahələr kimi, ordunu da yararsız hala gətirmişdi.

Nəzərə alaq ki, Paşinyan və tərəfdarları çox tez-tez özlərindən əvvəlki hakimiyyətin apardığı Qarabağ danışıqlarının iflasa uğradığını, Ermənistan üçün heç bir müsbət perspektiv vəd etmədiyini də önə çəkirlər. Deməli, Sarkisyanın Nikola güzəşt versiyasının doğruluğunu vurğulamağa əsas var. Bu doğruluq isə öz növbəsində ölkənin məhz patoloji xəstəliyin simptomları ilə idarə olunduğunun göstəricisidir. Axı xəstəlik rasional düşüncəni inkar edəcək qədər iflic durum yaradır. Fikrimizin sübutu olaraq daha bir məqamın üzərində dayanaraq bildirək ki, elə həmin Erməni Milli Koqresi sədrinin müavini Levon Zurabyan Azərbaycanla sülhün müvəqqəti xarakter daşıdığını bildirib. Onun sözlərinə görə, barış mühitinin heç bir təminatı yoxdur və hazırda yaşananlar "seçkiqabağı sülhdür".

Görəsən, Zurabyana daha hansı təminat lazımdır? Əslində, sualımız ritorikdir. Çünki təkcə bu psixopata yox, eləcə də onunla eyni fəsilədə olan siyasilərin heç biri sülh təminatı axtarışında deyil. Axı xəstədirlər. Belələri üçün əbədi düşmənçilik anlamı var. Onlar düşmənçilikdən, sanki, həzz alırlar. İstəkləri yalnız "günah keçisi" tapmaqdır və tapıblar da. Söhbət N.Paşinyandan gedir. O Paşinyandan ki, onun da iqtidar kreslosuna əyləşər-əyləşməz xəstəliyə yoluxduğunu söyləməliyik. Amma atalar misalımızda deyildiyi kimi, ilanın qorxması üçün ulduz görməsi lazımdır. Nikol ulduz gördüyü üçün hazırda sülh yolundadır. Düşmənçilik sevdalısı zurabyanlar isə öz ulduzlarının axtarışına çıxmağı hədəfləyirlər. Yəni, belələri sülhü təminatlı təsəvvür edə bilməzlər.

Zurabyanlar düşünürlər ki, L.Ter-Petrosyan xəstəliyin ömrünü uzatmaq üçün meydanı Koçaryana vermişdi. S.Sarkisyan isə həmin xəstəliyin davamlılığı naminə (sonradan yenidən hakimiyyətə yiyələnmək müqabilində) tapdığı "günah keçisi"nə - Paşinyana güzəştə getmişdisə, indi Nikol müharibə məğlubiyyəti səbəbindən siyasi səhnədən uzaqlaşmalı, hakim kürsüdən əlini üzməlidir. Nəyə görə? Ona görə ki, xəstələr yenidən təşəbbüsə yiyələnsinlər. O xəstələr ki, xaricdən idarə olunurlar. L.Zurabyan həm də buna görə sülh üçün təminat görmədiyini açıqlayır. Axı xaricin, yəni Şimalın diktəsi ilə oturub-durur. Özü də yalnız Zurabyan yox, bütövlükdə təmsil olunduğu siyasi kəsim eyni ağıldadır.

Görünür, Ter-Petrosyan 1997-ci ildə istefa ərizəsi yazanda da yenidən hakimiyyətə gəlməyi düşünürmüş, ancaq Qarabağ klanı həyasız çıxdığından istəyinə çata bilməyibmiş. Ermənistandakı pataloji xəstəlik fonunda isə L.Zurabyanın daha bir fikri üzərində dayanaq.

Məlum olduğu kimi, Paşinyan administrasiyası 27 yanvar tarixini Vətən uğrunda həlak olanların anım günü kimi qeyd edilməsinə qərar verib. Nədən qaynaqlandığı mücərrəd qalan bu tarix ilk dəfə qeyd edilib. Məsələ barədə danışan Zurabyanın sözlərinə görə, hazırkı hakimiyyət vaxtilə özü etiraf etmişdi ki, gəncləri sonradan heç kimin onu xəyanətdə günahlandırmağa cəsarət etməməsi üçün qurban verib. "İndi isə belə çıxır ki, rəhbərlik öz siyasətinin nəticəsində həlak olmuş insanların anım tarixini müəyyənləşdirir", – deyən Zurabyanın gətirdiyi arqumentə pis mənada heyrətlənməmək olmur. Onu da nəzərə alaq ki, partiya funksioneri bu yarıtmaz məntiqini məhz sülhün təminatsızlığı fonunda işə salır.

Sonda bir daha bildirək ki, Paşinyan da hakimiyyətə gələr-gəlməz, özünü tipik erməni xəstəliyinin daşıyıcısı kimi aparmağa başlamışdı. Əlavə edək ki, o, bu "ampluada" daha irəli getmişdi. Nikol həmin vaxtadək heç bir hay liderinin səsləndirmədiyi bəyanatlar səsləndirmiş, "Qarabağ Ermənistandır nöqtə", – deyə bağırmışdı. Ancaq baş nazirin sonrakı fikirlərindən gəlinən qənaət belə düşünməyə əsas verir ki, onun ən pis erməniyə, pataloji xəstəlik daşıyıcısına çevrilməkdən başqa yolu qalmamışdı.

Axı tiran Sarkisyan rejimini tarixin arxivinə göndərmiş demokratiya qladiatoru deyə bilməzdi ki, Ermənistan işğalçı yol tutaraq Qarabağı və digər Azərbaycan torpaqlarını ələ keçirib. Məhz bu anlamda Zurabyan haqlıdır. Yəni, qəhrəman Paşinyan erməni toplumunun düşüncəsinə uyğun xəyanət yolu tutmaq istəmədi və sərsəmləyərək müharibəyə rəvac verdi. Yada salaq ki, baş nazir 44 günlük müharibənin ilk günlərində savaşı dayandırmaqla bağlı parlamentdə məsləhətləşmələr aparanda da Ermənistan Milli Assambleyasındakı xəstə yığını savaşı davam etdirməkdə israrlılıq göstərdi. Beləliklə, Paşinyan ilanlara ulduzu göstərməkdə qətiyyət qazandı. Əlbəttə, buna qətiyyət demək mümkündürsə.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Mənəvi haqqı olmayanların vicdan oyunu

## *Katolikosun "Yerablur"dakı susqunluğu məsuliyyətdən yayınmaq cəhdidir*



**Bütün ermənilərin ali patriarxı və katolikosu, Erməni Apostol Kilsəsinin birinci iyerarxı kimi böyük titulların sahibi olan II Qaregin son vaxtlar ictimaiyyətdən gizlənmək, jurnalistlərdən yayınmaq yolunu tutub. O, ictimai mərasimlərdə gözə dəymir, media ilə məsafə saxlayır və bununla da cəmiyyətdə açıq qalan sualların sayını daha da artırır. Kilsə daxilində baş verən proseslərə dair açıqlamaların verilməməsi şəffaflıqla bağlı narahatlıqları gücləndirir. Ali din xadiminin bu məqamda susqunluğu vəziyyəti sakitləşdirməkdən çox, qeyri-müəyyənliyi dərinləşdirir.**

Katolikos bugünlərdə yenə də oxşar davranış nümayiş etdirdi. Söhbət yanvarın 28-də Ermənistanda qeyd edilən ordu günü ilə bağlı anım mərasimlərinin tərkib hissəsi olaraq "Yerablur" hərbi məzarlığında keçirilən tədbirdə II Qareginin jurnalistlərin normal suallarından yayınmasından gedir. Həmin gün bütün ermənilərin katolikosu da çoxsaylı din xadimlərinin müşayiəti ilə məzarlığa gəlib. Katolikos kilsə ətrafında baş verən hadisələr, arxiyepiskop Gevorq Saroyanın ruhani rütbəsindən məhrum edilməsi (rütbəsi əlindən alındığı üçün hazırda əvvəlki kimi dünyəvi Arman Saroyan ad-soyadını daşıyır – S.H), kilsənin mümkün parçalanması və digər məsələlərlə bağlı jurnalistlərin çoxsaylı suallarını cavablandırmayıb.

Din xadimləri birlikdə dua edib, daha sonra Birinci və İkinci Qarabağ müharibəsində həyatını itirmiş şəxslərin xatirəsinə həsr olunmuş anım mərasimi keçiriblər. Qeyd etdiyimiz kimi, mərasimdən sonra da bütün ermənilərin katolikosu jurnalistlərin heç bir sualına cavab verməyib. Onu müşayiət edən şəxslər isə bütün suallara vaxtı çatanda cavab veriləcəyini bildiriblər. II Qaregin "Yerablur"da ucaldılmış abidənin və digər məzarların önünə gül dəstələri qoyub. Ziyarətini başa çatdırarkən o, jurnalistlərə müraciət edərək deyib: "Biz bu müqəddəs məkanı hər dəfə ziyarət edərkən sizə bir xahişlə müraciət edirik: günün nəsihətini pozmayın. Bu münasibətlə öz ismarıcımızı artıq ünvanlamışıq. Biz bura oğullarımızın xatirəsini yad etmək və vətənimiz üçün Allahdan sülh, təhlükəsizlik və firavan həyat diləmək üçün gəlmişik. Bu sualları başqa vaxt vermək imkanınız olacaq. İnformasiya sistemimizin rəhbəri ilə əlaqə saxlayın. Yaradan sizi qorusun".

Katolikosun bu davranışı bir daha göstərdi ki, o, ictimaiyyət və media qarşısında açıq mövqe nümayiş etdirmək əvəzinə, susqunluq və yayınma taktikasını seçir. Halbuki, burada söhbət kilsə daxilində gedən ciddi proseslərdən, arxiyepiskop kimi yüksək dini rütbə daşıyan birinin bu tituldan məhrum edilməsindən, kilsənin parçalanma təhlükəsi ilə üz-üzə qalmasından gedirdi. Bunlar sıradan mövzular deyil və erməni cəmiyyətinin cavab gözləməsi tamamilə haqlıdır. Ancaq II Qaregin yenə də bu suallardan yayınmağa üstünlük verdi, məsuliyyəti qeyri-müəyyən "sonra cavab veriləcək" vədləri ilə ötürdü. Ali ruhani liderin bu cür davranışı ən azı qəribə təsir bağışlayır. Çünki kilsə yalnız ibadət məkanı deyil, həm də ictimai institutdur və onun rəhbəri baş verənlərə aydınlıq gətirməyə borcludur. Susqunluq isə vəziyyəti aydınlaşdırmır, əksinə, müxtəlif şübhə və söz-söhbətlərin yayılmasına zəmin yaradır. Erməni cəmiyyətində belə bir təəssürat formalaşır ki, katolikos ya baş verən proseslərə nəzarəti itirib, ya da izah edə bilməyəcəyi məsələlərdən yayınır. Əgər kilsə daxilində hər şey şəffaf və qanuni çərçivədə baş verirsə, niyə bu qədər sualdan qaçılır? Niyə jurnalistlərlə açıq dialoqdan imtina edilir? Cavabsız qalan bu suallar katolikosun mənəvi lider obrazına ciddi kölgə salır.

Digər tərəfdən, din xadimləri adlanan bu qaragüruh dəstənin Birinci və İkinci Qarabağ müharibəsində həlak olmuş şəxslərin xatirəsinə dua etməsi zahirən hüzn və ehtiram görüntüsü yaratsa da, bu mərasimlərin arxasında dərin mənəvi riyakarlıq gizlənir. Xüsusilə də mərasimin mərkəzində katolikos II Qaregin dayanırsa. Çünki bu halda söhbət təkcə bir din xadiminin dualarından yox, on minlərlə insanın ölümünə aparan zəhərli ideologiyanın əsas fiqurlarından birinin məsuliyyətdən yayınmaq cəhdindən gedir.

Katolikos II Qareginin müharibə qurbanlarının məzarlarını ziyarət etməyə mənəvi haqqı yoxdur! Bu, sərt səslənsə də, tarixi faktlara söykənən açıq həqiqətdir. Çünki ermənilərin Azərbaycana qarşı işğalçı müharibəsinin ideoloji təməli havadan yaranmayıb. Hələ Sovet İttifaqı dövründən etibarən Erməni Apostol Kilsəsi millətçi-şovinist iddiaların dini don geydirilmiş əsas daşıyıcısı olub. Qarabağ məsələsi kilsə moizələrində "müqəddəs savaş", "tarixi missiya", "milli borc" kimi təqdim olunub və bu ritorika minlərlə gənci ölümə göndərən siyasi avantüraların əsaslandırılmasına xidmət edib.

Özü də kilsə təkbaşına hərəkət etməyib. Xaricdəki erməni diasporu ilə sinxron şəkildə formalaşdırılan bu ideoloji xətt işğalçı müharibənin həm təbliğat, həm də müəyyən mənada maliyyə dayağı olub. Livandan tutmuş ABŞ-a, Rusiyadan tutmuş Uruqvaya kimi dünyanın ən müxtəlif yerlərinə səpələnmiş diaspor ermənilərinin mərkəzləri illərlə revanşist xülyaları qidalandırıb, reallıqdan uzaq vədlərlə Ermənistan cəmiyyətini aldadıb. Nəticə isə göz önündədir: iki müharibə, məhv olmuş talelər və həyatını itirmiş on minlərlə erməni. Bu qanlı nəticənin məsuliyyəti təkcə Koçaryan-Sarkisyan kimi siyasi rəhbərlərin deyil, onları ruhlandıran kilsə və diaspor strukturlarının da üzərindədir. Belə bir acı həqiqət ortada var ikən II Qareginin "Yerablur"da dualar oxuması mənəvi mərasim yox, ölənlərin ruhuna açıq-aşkar həqarətdir. Bu addım tövbə deyil, günahın üstünü örtmək cəhdidir. Əgər kilsə həqiqətən də heç olmazsa, bunan sonra mənəvi institut olmaq iddiasındadırsa, ilk növbədə öz rolunu etiraf etməli, illərlə insanları fəlakətə sürükləyən ideoloji xəttə görə məsuliyyət daşıdığını açıq şəkildə bəyan etməlidir.

Amma bunun əvəzinə susqunluq, suallardan yayınma və dini rituallarla reallığı pərdələmək yolu seçilir. Kilsə və diaspor bu gün də nəticə çıxarmaq istəmir. Açıq revanşizm formasını dəyişsə də, mahiyyət etibarilə sülh prosesinə mane olmaq, cəmiyyəti yenidən qarşıdurmaya sürükləmək cəhdləri davam edir. Bu isə artıq təkcə siyasi səhv deyil, erməni xalqına qarşı növbəti mənəvi cinayətdir.

Lakin daha vəziyyət əvvəlki kimi deyil. Kilsə və diasporun "milli xilaskar" maskası cırılıb. Erməni cəmiyyəti getdikcə daha aydın dərk edir ki, onu fəlakətlərə aparan məhz bu qüvvələr olub. Məhz buna görə də sülhə yönəlmiş, regionda yaranmış yeni reallıqları qəbul edən hazırkı siyasi kursa ictimai dəstək artır. Bu kursu gözdən salmaq istəyənlərin ən çox qorxduğu məqam da elə budur.



**"Qafqaz Tarixi" Mərkəzinin rəhbəri, siyasi şərhçi Rizvan Hüseynov** XQ-yə açıqlamasında bildirdi ki, "Yerablur"da keçirilən anım mərasimində II Qareginin davranışı bir daha onun ictimai məsuliyyətdən yayındığını göstərdi. Onun sözlərinə görə, halbuki, belə günlər susmaq üçün yox, həqiqəti demək üçün fürsət olmalıdır: "Katolikosun jurnalistlərdən qaçması təsadüfi epizod deyil, sistemli davranış qaydasıdır. Əslində, bu xəttin mahiyyəti aydındır. Kilsə münaqişənin baş verməsində roluna dair açıq müzakirədən yayınır, ictimai hesabat verməkdən imtina edir".

Siyasi şərhçi onu da bildirdi ki, Ermənistan müharibəni təkcə döyüş meydanında uduzmayıb, illərlə yanlış istiqamət göstərən mənəvi və ideoloji rəhbərlik də bu məğlubiyyətin bir hissəsidir: "Buna baxmayaraq onlar hələ də baş verənlərdən nəticə çıxarmır, sülh yoluna, necə deyərlər, daş diyirlətməyə davam edirlər. Halbuki bütün bunlar boş və mənasız çapalamalardır. Kilsənin və diasporun iç üzü ifşa olunub. Artıq erməni xalqı bu qüvvələrin əsl mahiyyətini gözəl anlayır və sülhün əldə olunması istiqamətində hazırkı hökumətin apardığı siyasətə dəstək verir".

***Səxavət HƏMİD***
***XQ***

# Gözügötürməzlik hikkəsi

## *Postsovet respublikalarının uğurları niyə qıcıq yaradır?*

**Bu təmayül artıq təkcə postsovet məkanında deyil, dünyanın aparıcı tədqiqat institutlarının, beyin mərkəzlərinin araşdırma və qiymətləndirmə mövzusuna çevrilib. Söhbət "qırmızı imperiya" adlandırılan SSRİ-nin süqutundan sonra müstəqilliyini qazanmış respublikaların əldə etdiyi siyasi, iqtisadi və hərbi nailiyyətlərin özünü bu gün də sovetlərin sələfi hesab edən Rusiya tərəfindən qısqanclıqla qarşılanmasından gedir.**



"Mənim üçün "soyuq müharibə" Ukraynada bitdi. Rusiya ordusu bütün Ukraynanı işğal edə bilməyəndə, Kiyevdən sıxışdırılıb çıxarılanda və hazırda bu ölkənin ərazisinin kiçik bir hissəsini qoparmaqda çətinlik çəkəndə Avropanı işğal etmək iqtidarında olmadığını nümayiş etdirdi. O zaman "soyuq müharibə"nin qorxusu məhz bu idi". ABŞ-ın nüfuzlu analitiklərindən biri, "Stratfor" və "Geopolitical Futures"in yaradıcısı Corc Fridman 2026-cı il üçün proqnozunu bu fikirlərlə başlayır. Fridmanın təqdim etdiyi proqnoza görə, ilin əsas məqamları Rusiyanın böyük dövlətlər liqasından çıxması və yeni dünya nizamının ABŞ–Çin münasibətləri ətrafında qurulacağıdır.

Tanınmış analitik onu da əlavə edib ki, Rusiya bu gün, hətta öz maraqlarını qorumağa qadir regional güc kimi də görünmür: "Moskva müxtəlif təxribat əməliyyatları planlaşdıra və çeşidli coğrafiyalara kəşfiyyat agentlərini göndərə bilər, amma o, artıq qlobal güc deyil. Rusiya Şərq cinahını itirib – Mərkəzi Asiya daha onlara aid deyil. Onlar Cənubi Qafqazı da itirdilər. ABŞ Prezidenti Donald Trampın vasitəçiliyi ilə Ermənistan və Azərbaycan arasında imzalanan sülh sazişindən sonra region Qərbə üz tutur. Bunlar yaxın keçmişdə Rusiyanın təsir dairəsinin hissələri idi".

Fridmanın mülahizələrini mövcud situasiyanın əsaslı və dəqiq təhlili kimi səciyyələndirmək olar. Aydın məsələdir ki, amerikalı analitikin proqnozları şəxsi maraqları naminə uzun müddət Rusiya cəmiyyətinə "şovinizm", "imperializm" adlı dərmanları satan çoxsaylı təbliğatçılar arasında sözlə ifadə olunmaz hiddətə səbəb olub. Burada bizim üçün önəmli məqam şimal qonşumuzun Azərbaycana yönəlik ideoloji təxribatları məsələsidir. Kremlin "carçı-kuklaları" elektron media platformalarında özlərinin şovinist təbliğatı ilə rus cəmiyyətinin beynini dumanlandırmaq üçün "uyuşdurucu" məlumatların fasiləsiz axınını təşkil edirlər.

Kremlin imperiya ambisiyalarının bu ruporları haqqında çox yazmışıq, həddini aşanlara layiq olduqları cavabları vermişik. Belələrinin arasında Kreml isteblişmentinə yaxınlığı ilə seçilən Duqin, Solovyov, Zatulin, Valuyev kimi radikal şovinistlərdən və avantüristlərdən ibarət bir sıra psevdoanalitiklər də var.

Bu dəfə velikorus şovinizminin züytutanı rolunu ifa edən "politoloq" Sergey Mixeyev Solovyovun telekanalizasiyasında söylədikləri ilə gündəmə gəlib. Əslində, o, "həmkarlarının" postsovet ölkələrinə qarşı çirkab dolu sərsəmləmələrini bir qədər kədərli və həzin notlarla dilə gətirib. Amma Mixeyev onlardan daha uzağa gedərək hakimiyyətin ünvanına siyasi iradlarını çatdırmağa da cürət edib: "Postsovet məkanı ilə bağlı rəsmi siyasətimiz o qədər də effektli olmayıb. İndi biz dalana dirənmişik. Rusiyanın hamıya borcu var, amma heç kimin ona borcu yoxdur. Yaranmış vəziyyət postsovet ölkələrinə müəyyən layihələri həyata keçirmələrinə imkan verir ki, bu da bizə qarşı şantaj formasıdır".

*

Əgər siyasi ironiyanı bir tərəfə qoyub məsələyə praqmatik yanaşsaq, deməliyik ki, Mixeyev və onun kimi neoşovinistlər "sovet insanının əxlaq kodeksi"nin qoxusu gələn açıqlamaları ilə Corc Fridmanın gəldiyi nəticələrin doğruluğunu sübut etməklə yanaşı, Rusiyanın bütün istiqamətlərdə sürətlə nüfuzunu itirməsinin əsl səbəbini etiraf etmiş olurlar. Çünki istər Mərkəzi Asiyada, istərsə də Cənubi Qafqazda təsir gücündən məhrum olmuş, Avropanın gözündən düşmüş Moskvanı, məsələn, 2025-ci il avqustun 8-də Vaşinqtonda ABŞ Prezidenti Donald Trampın iştirakı ilə baş tutan "Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında saziş"in mətninin paraflanması xüsusilə hiddətləndirib. Bu sənədə beynəlxalq hüququn ərazi bütövlüyünün qarşılıqlı tanınması və suverenliyə hörmət kimi fundamental normaları daxildir. İntəhası, bu fakt Rusiya Federasiyasında imperiya siyasətinin tərəfdarlarının heç də xoşuna gəlmir. Amma bu da təəccüblü deyil. Ən azı, ona görə ki, hələ 2008-ci ilin avqustunda Gürcüstana ordu yeridən Rusiya beynəlxalq hüququn təməl prinsiplərini ayaqlar altına aldığını, imzaladığı BMT konvensiyalarının kağız parçaları olduğunu nümayiş etdirdi. Üstündən altı il keşəndən sonra Krımı ilhaq edən Rusiya dörd il əvvəl İkinci Dünya müharibəsindən sonra Avropada ən qanlı hərbi qarşıdurmalardan birini başlatmaqla bu faktı daha da gücləndirdi. Bəli, artıq hər şeyin öz adı ilə çağırmağın məqamıdır.

Onu da qeyd etməmək mümkün deyil ki, bu gün Rusiya yaxın qonşuları olan müstəqil respublikalarla gücün dili ilə danışmaq statusunu itirməsinin ağrısını yaşayır. Nə yazıq ki, bu həqiqəti telekanallarda, sosial şəbəkələrdə cəmiyyəti imperializm virusuna yenidən yoluxdurmağa çalışan rus təbliğatçıları heç vaxt etiraf etməyəcəklər.

***İmran BƏDİRXANLI***
***XQ***

### *Ekspert rəyi*



**Rasim MUSABƏYOV,**
**Milli Məclisin deputatı,**
**politoloq**

Sergey Mixeyev heç bir ictimai-siyasi çəkisi olmayan bir fiqurdur. Onun dediklərinə fikir verən də yoxdur. Ümumən belə hesab edirəm ki, bu cür avantürist çağırışların, yekəxana mülahizələrin Rusiyanın rəsmi dövlət telekanalının efirindən səslənməsi qəbulolunmazdır. Çünki bunlara adekvat cavablar verilə bilər. Fərz edək ki, Azərbaycan telekanallarında Rusiya hökmdarlarının tatar xanlarının qarşısında diz çökərək rəiyyətin idarə edilməsi ilə bağlı məsləhət və təlimatlar aldıqları barədə verilişlər yayımlanır. Bu qəbildən olan tarixi faktların şərh və izahına başlasaq, inanmıram ki, onların bundan xoşu gələcək. Əslində, Rusiyanın yaxın qonşuları bu təbliğatın mahiyyətini, onlardan nə gözləməyin mümkünlüyünü çox gözəl bilirlər. Sadəcə olaraq, bu ideoloji diversiyalar Rusiyanın daxilindəki şovinist, imperialist qüvvələrə hesablanmış çağırışlardır. Kreml bununla nəinki xaricdə, heç daxildə də heç nəyə nail ola bilməyəcək. Amma yaxın qonşular ictimai rəyin manipulyasiyasını nəzərdə tutan belə mülahizələrdən özləri üçün lazımi nəticələri çıxaracaqlar. Bununla onsuz da addım-addım Rysiyadan uzaqlaşan həmin qonşuların adekvat davranışını daha da sürətləndirmiş olacaqlar. Yəni burada heç bir qazancdan söhbət gedə bilməz.

O ki qaldı Azərbaycanın mixeyevlərin efirdən səslənən cəfəng iddialarına münasibətinə, biz buna çoxdan öyrəşmişik. Belələrinin cavabı həmişə ən yüksək səviyyədə verilib. Bu xora Rusiya Dövlət Dumasının deputatları qoşulanda isə onlar ən sərt cavabı mənim dilimdən də eşidiblər. Onlardan bir neçəsinin arzuolunmaz şəxs kimi Azərbaycan ərazisinə ayaq basmaları qadağan olunub. Qazaxıstan, Ermənistan və digər respublikalar da Mixeyev kimi avantürist mövqedən çıxış edənləri "persona-non-qrata" elan ediblər.

# Avropa İttifaqı ABŞ-ın kölgəsindən niyə çıxır?

## *Strateji muxtariyyət doktrinası və Transatlantik münasibətlərin gələcəyi*

**Avropa İttifaqının Xarici Əlaqələr və Təhlükəsizlik Siyasəti üzrə ali nümayəndəsi Kaya Kallasın Avropa Müdafiə Agentliyinin illik konfransında səsləndirdiyi fikirlər və yanvarın 27-də Yeni Dehli ilə imzalanan tarixi Sərbəst Ticarət Sazişi (STS) Brüsselin strateji muxtariyyət kursunun dönməz xarakter aldığını nümayiş etdirir. Məsələyə sırf siyasi bəyanat kimi yanaşmaq sadəlövhlük olardı, çünki diplomatik ritorikanın arxasında dayanan iqtisadi və hərbi mexanizmlər artıq işə salınıb. Hindistanla bağlanan ticarət paktı Avropanın iqtisadi diversifikasiya axtarışlarının yalnız Çindən qopmaq məqsədi daşımadığını, həmçinin Amerikanın proteksionist siyasətinə qarşı alternativ qütb yaratmaq niyyətini ortaya qoyur.**




Aİ diplomatiyasının rəhbəri tərəfindən səsləndirilən “daha Avropa mərkəzli NATO” çağırışı alyansın struktur yenidənqurmasına yönəlmiş konkret fəaliyyət planıdır. Mövcud vəziyyət Vaşinqtonun qlobal maraqlarının artıq Avropa qitəsinə fokuslanmadığı, əksinə, Sakit okean hövzəsinə və daxili izolyasionizmə yönəldiyi reallığından qaynaqlanır. Kallasın xəbərdarlığı Avropa paytaxtlarına ünvanlanmış ayıq olmaq siqnalıdır. Təhlükəsizlik arxitekturası artıq ABŞ-ın “nüvə çətiri” və ya hərbi kontingentinin daimi mövcudluğu üzərində qurula bilməz. Yanvarın 28-də Brüsseldə keçirilən konfransda səslənən fikirlər Avropanın hərbi-sənaye kompleksinin (HSK) dirçəldilməsi və qitənin özünümüdafiə qabiliyyətinin tamamilə yerli resurslar hesabına təmin edilməsi zərurətini diktə edir.

Hindistanla imzalanan Sərbəst Ticarət Sazişi strateji muxtariyyətin iqtisadi bazisini formalaşdırmaq məqsədi daşıyır. İki milyardlıq əhalini əhatə edən nəhəng bazarın yaradılması geosiyasi manevrdir. Sazişin detallarına nəzər saldıqda aydın olur ki, tərəflər arasında gömrük rüsumlarının 96,6 faiz həcmində ləğv edilməsi Avropa istehsalçıları üçün misli görünməmiş imkanlar açır. Lakin məsələnin görünməyən tərəfi daha maraqlıdır. Avropa İttifaqı atdığı bu addımla ticarət axınlarını ABŞ bazarından və dolların hegemonluğundan, qismən də olsa, sığortalamağa çalışır. Yeni Dehli ilə qurulan birbaşa ticarət və logistika körpüləri Avropanın Asiya bazarlarına çıxışını Vaşinqtonun vasitəçiliyi olmadan reallaşdırmasına şərait yaradır.

Kaya Kallasın bəyanatındakı ən önəmli məqamlardan biri də “özünü təmin edən lider” ifadəsidir. Bu ifadə Avropanın onilliklər ərzində formalaşmış “yumşaq güc” doktrinasından imtina edərək “sərt güc” elementlərini mənimsəməyə başladığını göstərir. Təhlükəsizlik sahəsindəki mövcud boşluqlar və Rusiyanın yaratdığı konvensional təhdidlər Avropa liderlərini hərbi xərcləri artırmağa və vahid ordu quruculuğu ideyasını yenidən gündəmə gətirməyə məcbur edir. Kallasın NATO-nun “daha Avropa mərkəzli” olması tələbi Alyansın komanda-idarəetmə strukturunda köklü islahatların aparılmasını nəzərdə tutur. Məsələn, Avropa Müttəfiq Qüvvələri Ali Baş Komandanı (SACEUR) vəzifəsinin ənənəvi olaraq amerikalı general tərəfindən tutulması praktikası gələcəkdə sual altına alına bilər. Əgər Avropa müdafiəsi üçün tələb olunan maliyyə yükünün böyük hissəsini təkbaşına üzərinə götürəcəksə, təbii olaraq qərarların qəbulu prosesində də həlledici səs hüququ tələb edəcək. İndiki situasiya Vaşinqtonda müəyyən narahatlıq doğura bilər, lakin ABŞ-ın daxili siyasi dairələrində də “yükü paylaşmaq” tərəfdarlarının sayı artmaqdadır.

Hindistan–Aİ sazişinin başqa strateji ölçüsü də Çin faktorudur. Pekinin qlobal ticarətdəki dominant mövqeyini balanslaşdırmaq üçün həm Brüssel, həm də Yeni Dehli təbii müttəfiq kimi çıxış edirlər. Avropa üçün Hindistan bazarı Çinin itirilməsi ehtimalına qarşı nəhəng sığorta qurşağıdır. Lakin burada incə məqam var. Avropa yaxınlaşmanı ABŞ-ın Çinə qarşı apardığı aqressiv “soyuq müharibə” strategiyasını müstəqil “üçüncü yol” strategiyası kimi təqdim edir. Yəni Brüssel Pekinlə münasibətlərdə şəxsi iqtisadi maraqları çərçivəsində hərəkət edəcəyini, eyni zamanda, Hindistanla əlaqələri dərinləşdirərək Asiyada çoxqütblü nizamı dəstəklədiyini nümayiş etdirir.

Hərbi sahədə baş verəcək hadisələr isə daha dramatik xarakter daşıyır. Aİ ölkələrinin hərbi büdcələrini ÜDM-in yüksək faiz dərəcəsinə qaldırması qaçılmaz olacaq. İndiyə qədər mövcud olan “rifah dövləti” modelindən “təhlükəsizlik dövləti” modelinə keçid Avropa cəmiyyətlərində sosial narazılıqlar yarada bilər. Lakin Kallas və komandası mövcud geosiyasi təhdidləri əsas gətirərək ictimai rəyi səfərbər etməyə çalışacaqlar. Avropa Müdafiə Fondu və digər birgə maliyyələşmə mexanizmləri vasitəsilə Ümumavropa hərbi layihələrinin altıncı nəsil qırıcıların, yeni tankların və hava hücumundan müdafiə sistemlərinin yaradılması prosesi sürətlənəcək. Hindistanla hərbi-texniki əməkdaşlıq da gündəmə gələ bilər. Dehli ənənəvi olaraq Rusiya silahlarından asılı olsa da, son illərdə Qərb texnologiyalarına maraq göstərir. Avropanın boşluğu doldurması, həm də Rusiyanın Hindistan bazarındakı mövqeyini zəiflədəcək.

Avropanın hərbi-sənaye kompleksindəki canlanmanın iqtisadiyyatın digər sahələrinə də təkan verəcəyi proqnozlaşdırılır. “Re-Arm” (Yenidən Silahlanma) təşəbbüsləri çərçivəsində ayrılacaq milyardlarla avroluq investisiyalar elmi-tədqiqat işlərini stimullaşdıracaq. Avropa uzun illər ərzində ABŞ-ın hərbi texnologiyalarından asılı qaldığı üçün potensialını tam reallaşdıra bilmirdi. Hindistanın proqram təminatı və kosmik sənaye sahəsindəki təcrübəsi ilə Avropanın dəqiq mühəndislik ənənələrinin birləşməsi, qlobal texnologiya bazarında yeni rəqabət mühiti yarada bilər. Kallasın vurğuladığı “müstəqil təminat” prinsipi məhz belə sinerji effektlərinin əldə edilməsinə hesablanıb. Təbii ki, prosesin riskləri də az deyil. ABŞ-ın cavab tədbirləri, qlobal maliyyə bazarlarındakı daxili populist hərəkatların təzyiqi Avropanın kursunu dəyişə biləcək amillər sırasındadır.

Kaya Kallasın yanvarın 28-də səsləndirdiyi fikirlər və yanvarın 27-də imzalanan Aİ–Hindistan sazişi Qlobal Şimalın daxili strukturunda baş verən “tektonik dəyişikliklərin” carçısıdır. Artıq aydındır ki, “Kollektiv Qərb” anlayışı mahiyyətini dəyişir və daha çevik, lakin mərkəzləşdirilməmiş formata keçir. Avropa İttifaqı dünya siyasətində fərdi, müstəqil və iddialı rol oynamağa qərar verib. Verilən qərarların uğurlu olub-olmayacağını isə zaman göstərəcək. Avropanın qarşısında duran əsas vəzifə daxili birliyi qorumaqla yanaşı, xarici siyasətdə elan etdiyi müstəqilliyi real güc resursları ilə dəstəkləməkdir. Əks təqdirdə, Kallasın bəyanatları, sadəcə, xoş niyyətli arzular kimi qalacaq.

***Yusif ŞƏRİFZADƏ***
***XQ***

## Strateji çeviklik, yoxsa sistemli parçalanma?




*(əvvəli 1-ci səhifədə)*

Əvvəlcə onu qeyd edək ki, “İki sürətli Avropa” anlayışı yeni deyil. Sözügedən konsepsiya ilk dəfə ötən əsrin 90-cı illərində Avropa inteqrasiyasının dərinləşdirilməsi fonunda ortaya çıxmış və əsasən iqtisadi, monetar birliklə əlaqələndirilmişdi. Avrozonanın yaradılması faktiki olaraq Aİ daxilində funksional fərqliliyin ilk rəsmi nümunəsi idi. Lakin mövcud mərhələdə müzakirə olunan model klassik iqtisadi inteqrasiya çərçivəsindən kənara çıxaraq müdafiə, təhlükəsizlik, enerji siyasəti və strateji avtonomiya kimi sahələri əhatə edir. Almaniya və Fransanın təşəbbüsü bu baxımdan normativ inteqrasiyadan çox, strateji praqmatizmə söykənir. Brüsselin mürəkkəb bürokratik mexanizmləri, veto hüququndan sui-istifadə, milli maraqların kollektiv qərarları bloklaması fonunda kiçik liderlər koalisiyası ideyası funksional effektivlik arqumenti ilə əsaslandırılır. Yəni məqsəd Aİ-ni formal konsensus tələblərindən azad edərək çevik qərarvermə platformasına çevirməkdir.

Bəs, prosesə beş aparıcı ölkənin seçilməsi təsadüfdür, yoxsa bu, strateji balansdır? Sözsüz ki, videokonfransda iştirak edən ölkələrin seçimi təsadüfi xarakter daşımır. Fransa və Almaniya Aİ-nin ənənəvi “mühərrikləri” hesab olunsa da, yeni formata İtaliya və İspaniyanın cəlb edilməsi Cənubi Avropanın sosial-iqtisadi reallıqlarının nəzərə alındığını göstərir. Həmçinin Polşanın iştirakı Şərqi Avropanın tam kənarda saxlanılmadığına dair simvolik mesaj kimi qəbul edilə bilər. Niderland isə fiskal intizam və liberal iqtisadi modelin təmsilçisi olaraq balanslaşdırıcı rol oynayır. Beşlik özündə Aİ-nin iqtisadi potensialının, hərbi imkanlarının və siyasi təsir gücünün böyük hissəsini cəmləşdirir. Ona görə də model digər üzv dövlətlərdə mərkəzləşmiş hegemonluq qorxusunu gücləndirir. Xüsusilə Skandinaviya, Baltik dövlətləri və Cənub-Şərqi Avropa üçün belə bir format qərarların onların iştirakı olmadan qəbul edilməsi riskini yaradır.

Məlumdur ki, Ukrayna müharibəsi Aİ-nin təhlükəsizlik arxitekturasının zəif cəhətlərini açıq şəkildə üzə çıxardı. NATO çərçivəsində ABŞ-ın həlledici rolunun davam etməsi Avropanın strateji muxtariyyət iddialarını sual altına qoydu. “İki sürətli Avropa” modeli də məhz bu kontekstdə Avropa müdafiə siyasətinin daha koordinasiyalı və sürətli qurulması üçün mexanizm kimi təqdim olunur. Almaniya və Fransanın müdafiə sənayesində lider mövqeləri, Polşanın hərbi xərclərinin artması, İtaliya və İspaniyanın Aralıq dənizi təhlükəsizlik gündəmi bu koalisiyanı praktik baxımdan funksional edir. Lakin paralel müdafiə strukturları NATO-Aİ münasibətlərində institusional gərginlik yarada və ABŞ tərəfindən Avropanın transatlantik öhdəliklərdən uzaqlaşması kimi qiymətləndirilə bilər.

Aİ-nin üzləşdiyi digər problem iqtisadi asimmetriyaların dərinləşməsidir. Pandemiya sonrası dövr, enerji böhranı və inflyasiya təzyiqləri üzv dövlətlər arasında fiskal imkan fərqlərini daha da artırdı. Bu nöqteyi-nəzərdən “İki sürətli Avropa” çərçivəsində aparıcı ölkələr arasında koordinasiyalı sənaye siyasəti, birgə investisiya mexanizmləri və yaşıl enerjiyə keçidi strategiyaları planlaşdırılır. Amma bu yanaşma bir tərəfdən innovasiya və rəqabət qabiliyyətini artırsa da, digər tərəfdən vahid bazarın parçalanması riskini gücləndirir. Kiçik və iqtisadi cəhətdən zəif dövlətlər üçün belə bir model aparıcı ölkələrlə müqayisədə uçurumu daha da dərinləşdirə bilər.

Ən ciddi tənqidlərdən biri isə demokratik legitimlik məsələsi ilə bağlıdır. Aİ-nin qərarvermə mexanizmi onsuz da “demokratik defisit” ittihamları ilə üzləşir. Qeyri-rəsmi liderlər koalisiyasının formalaşması Avropa Parlamenti və digər institutların rolunu kölgədə qoya bilər. Bu isə birliyin normativ güc kimi legitimliyinə zərbə vurmaq riski daşıyır. Paralel olaraq, belə bir modelin institusional çərçivəyə salınmamasının hüquqi qeyri-müəyyənlik yaratması da ehtimallar arasındadır. Hansı qərarların bu koalisiya çərçivəsində qəbul ediləcəyi, onların Aİ hüququ ilə necə uzlaşdırılacağı sualı hələlik açıq qalmaqdadır.

Sonda belə nəticəyə gəlmək olar ki, qlobal güc balanslarının dəyişdiyi, ABŞ–Çin rəqabətinin kəskinləşdiyi, Rusiya ilə münasibətlərin gərginləşdiyi bir dövrdə Aİ-nin vahid strateji mövqedən çıxış etməsi həyati əhəmiyyət daşıyır. Almaniya və Fransanın təşəbbüsü Aİ-nin dərin struktur problemlərinə real cavab axtarışının göstəricisidir. Lakin “iki sürətli Avropa” modeli həm funksional həll, həm də potensial risk mənbəyidir. Bu model uğur qazanarsa, Aİ daha çevik və strateji aktora çevrilə bilər. Əks halda isə institusional parçalanma, siyasi narazılıq və demokratik legitimlik böhranı qaçılmaz olacaq.

### *Ekspert rəyi*
**Züriyyə QARAYEVA, politoloq**



Bu təşəbbüs mahiyyət etibarilə Avropa İttifaqının uzun illər yaşadığı qərarvermə böhranına cavab kimi ortaya çıxır. Böyük və təcrübəli dövlətlər bürokratik ləngiməni aşmaq, xüsusilə müdafiə, təhlükəsizlik və iqtisadi dayanıqlıq kimi həyati əhəmiyyətli sahələrdə baş verənlərə daha sürətli reaksiya vermək istəyirlər. Almaniya və Fransanın liderlik etdiyi bu yanaşma Aİ-ni daha funksional etmək niyyəti daşısa da, faktiki olaraq mərkəzləşmiş qərarların dar bir dairədə formalaşmasına gətirib çıxara bilər. Bu isə Avropa İttifaqının bərabərlik və konsensus üzərində qurulmuş siyasi fəlsəfəsi ilə ziddiyyət təşkil edir və kiçik, yaxud kənarda qalan ölkələrdə narazılıq yarada bilər.

Məhz bu nöqtədə yeni qarşıdurma riski ortaya çıxır. “İki sürətli Avropa” modeli rəsmi şəkildə parçalanma yaratmasa da, siyasi reallıqda “birinci dərəcəli” və “ikinci dərəcəli” üzvlər təsəvvürünü gücləndirəcək. Bu da qərarların legitimliyini sual altına qoymaqla yanaşı, Aİ daxilində etimad böhranını dərinləşdirə bilər. Xüsusilə Şərqi Avropa və periferiya ölkələri prosesi öz maraqlarının kənarda qalması kimi qiymətləndirsə, Aİ daxilində səssiz müqavimət və ya açıq siyasi gərginlik ehtimalı artacaq. Yəni təşəbbüs effektivlik gətirə bilər, amma düzgün balans qurulmasa, Avropa daxilində yeni siyasi xəttlərin formalaşmasına da yol aça bilər.

***Nəzrin ELDARQIZI***
***XQ***

## Vaşinqtonun Qafqaz jesti və TRIPP layihəsi

*(əvvəli 1-ci səhifədə)*



Lakin bu iddialar reallıqla üst-üstə düşmür və daha çox daxili siyasi məqsədlərə xidmət edir. Nəzərə almaq lazımdır ki, Vensin regiona səfəri taktiki deyil, strateji xarakter daşıyır və ilk növbədə “Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu” (TRIPP) layihəsinin reallaşması ilə bağlıdır. Bu layihə Orta Dəhliz, Zəngəzur dəhlizi üzərindən regional kommunikasiyaların açılması, iqtisadi inteqrasiya və təhlükəsizliyin möhkəmləndirilməsi məqsədi daşıyır.

Gürcüstanın Baş naziri İrakli Kobaxidzenin də vurğuladığı kimi, vitse-prezidentin məhz Ermənistan və Azərbaycana səfəri TRIPP marşrutunun konkret texniki və siyasi elementlərinin, xüsusilə Zəngəzur dəhlizinin müzakirəsi ilə bağlıdır. Bu baxımdan, Gürcüstanın səfər gündəliyində yer almaması nə Vaşinqtonun Tbilisiyə münasibətinin soyuması, nə də Gürcüstanın regional proseslərdən kənarlaşdırılması anlamına gəlir. Əksinə, bu, ABŞ-ın hazırda prosesə mərhələli və rasional yanaşdığını göstərir.



Üstəlik, Donald Tramp administrasiyası hələ ötən il heç bir ictimai şou və təbliğat kampaniyası aparmadan Gürcüstanı TRIPP planına cəlb edib. Dünən isə Tbilisidə ABŞ Konqresinin Xarici İşlər Komitəsinin nümayəndələri Gürcüstan hökumətinin aparat rəhbəri Levan Jorjoliani ilə görüşüblər. Görüşdə strateji tərəfdaşlığın yenilənməsinin vacibliyi vurğulanıb. Bu, onu göstərir ki, Vaşinqton Gürcüstanla münasibətləri simvolik jestlərlə deyil, konkret əməkdaşlıq mexanizmləri üzərindən qurur. Tbilisinin “ikinci cəbhə”yə cəlb edilməməsi, sabitliyin qorunması və regionun nəqliyyat-logistika potensialından istifadə Vaşinqton üçün daha prioritetdir.

Deməli, Vensin səfəri regionda müharibə və qarşıdurmaya yox, məhz kommunikasiyaların açılması və iqtisadi qarşılıqlı asılılığın artırılması üzərində qurulub. Bu isə Azərbaycanın illərdir irəli sürdüyü konseptual yanaşmaya tam uyğundur. Məhz buna görə Gürcüstanda səfərlə bağlı narazılıqlarını bildirən qüvvələr, eyni zamanda, Zəngəzur dəhlizinə və Orta Dəhlizin güclənməsinə qarşı mövqe tutan dairələrlə bağlıdırlar.

ABŞ vitse-prezidentinin TRIPP layihəsinin dayaqları olan ölkələrlə birbaşa siyasi dialoq qurmaq istəyi başadüşüləndir. Burada Azərbaycan mərkəzi rol oynayır. Layihə Azərbaycanın milli maraqları ilə tam uyğunluq təşkil edir və ölkəmizin Orta Dəhlizdə aparıcı tranzit-logistika mərkəzinə çevrilməsi strategiyasını gücləndirir.

Hazırda Xəzər hövzəsi ilə Avropa arasında təhlükəsiz və dayanıqlı nəqliyyat-kommunikasiya xətlərinin formalaşdırılması Azərbaycanın uzunmüddətli iqtisadi və geosiyasi hədəflərinin ayrılmaz hissəsidir. Zəngəzur dəhlizi isə bu strategiyanın ən önəmli sütunlarından biridir. O, regional və qlobal miqyasda əhəmiyyət daşıyır. Bu bir daha onu göstərir ki, marşrutun əsas qovşaqları olan ölkələrdə siyasi iradə və konkret qərarlar olmadan icrası mümkün deyil. Bu baxımdan səfər tam məntiqli və rasional addımdır.

Səfərin digər mühüm məqamı ABŞ–Azərbaycan strateji tərəfdaşlıq xartiyasının imzalanacağı mərasimlə üst-üstə düşməsidir. Bu sənədin imzalanması iki ölkə arasında əlaqələrin yeni səviyyəyə qaldıracaq və Azərbaycanın beynəlxalq arenadakı mövqeyini gücləndirəcək. Xartiya yalnız diplomatik akt deyil, həm də təhlükəsizlik, iqtisadi əməkdaşlıq və nəqliyyat-logistika sahələrində tərəflərin mövqelərinin üst-üstə düşdüyünü rəsmiləşdirəcək. Qərb investisiyalarının Azərbaycana cəlb olunmasını xeyli asanlaşdıracaq.

Onu da qeyd edim ki, ABŞ Cənubi Qafqaza Avrasiyanın mühüm nəqliyyat və kommunikasiya qovşağı kimi baxır. Çünki region enerji resurslarının tranziti, ticarət yolları və strateji mövqeyi ilə Vaşinqton üçün artan geosiyasi əhəmiyyət kəsb edir. Bu baxımdan vitse-prezidentin səfəri yalnız Azərbaycan üçün deyil, Ermənistan üçün də strateji əhəmiyyət daşıyır. Məsələn, 2026-cı il iyunun 7-də keçiriləcək parlament seçkiləri Bakı–İrəvan arasında yekun sülh müqaviləsinə gedən yolun əsas sınağı olacaq. Seçkilərin uğurla başa çatması Ermənistan daxilində siyasi sabitliyi təmin edəcək, bununla da konstitusiya dəyişikliklərinin və iki ölkə arasında sülh müqaviləsinin imzalanmasının texniki və siyasi şəraiti formalaşacaq. Əgər seçkilər və sonrakı proseslər gözlənildiyi kimi keçərsə, bu, regional inteqrasiyanı sürətləndirəcək, nəqliyyat-logistika və enerji layihələrinin həyata keçirilməsini asanlaşdıracaq.

Digər tərəfdən, proseslərdə risklər də mövcuddur. Ermənistan daxilində siyasi parçalanma, etnik və sosial gərginliklər, eləcə də regional aktorların maraqları sülh prosesinə təsir göstərə bilər. ABŞ-ın TRİPP-də iştirakı bu risklərin azaldılmasına, tərəflərin üzərinə götürdüyü öhdəliklərin yerinə yetirilməsinə dəstək olacaq, eyni zamanda, investorlar üçün stabillik zəmanəti funksiyasını yerinə yetirəcək.

Beləliklə, ABŞ-ın Cənubi Qafqaz siyasəti regiondakı seçkilər və diplomatik təşəbbüslərlə birləşərək həm Azərbaycanın, həm Ermənistanın, həm də bütövlükdə regionun uzunmüddətli sülh və iqtisadi inkişaf perspektivlərini müəyyən edir. Vaşinqon bölgəmizdə əməkdaşlıq, qarşılıqlı etimad, sülhün qorunub saxlanması mexanizmlərini işə salmaq siyasətini həyata keçirir. Həmçinin, ABŞ Azərbaycan vasitəsilə Mərkəzi Asiyaya da çıxış əldə etmiş olur və bu, onun strateji hədəfidir.



Mövzu ilə bağlı **Sosial Strateji Tədqiqatlar və Analitik Araşdırmalar İctimai Birliyinin sədri İlqar Hüseynli** XQ-yə bildirdi ki, TRIPP layihəsi ideoloji deyil, praqmatik və iqtisadi məzmunlu təşəbbüsdür: “Layihə qarşıdurmanı deyil, kommunikasiyaların açılmasını, iqtisadi qarşılıqlı asılılığın artırılmasını və regional sabitliyin möhkəmləndirilməsini hədəfləyir. Bu yanaşma Azərbaycanın illərdir irəli sürdüyü strateji baxışla tam uyğundur”.

Politoloq qeyt etdi ki, maneələrə baxmayaraq, sülhə doğru addımlar atılır: “Azərbaycandan Ermənistana neft məhsulları ixrac olunur, idxal edilən taxıl isə Ermənistana Azərbaycan üzərindən göndərilir. Bu nümunələr Cənubi Qafqazda iqtisadi inteqrasiyanın real mənzərəsini nümayiş etdirir. Əməli işlər iqtisadi dayanıqlığın artırılmasına, regional əməkdaşlığın dərinləşdirilməsinə və tərəfdaş ölkələr arasında qarşılıqlı inamın möhkəmlənməsinə xidmət edir. TRIPP-in icrası yalnız əməliyyat baxımından deyil, həm də geosiyasi və strateji baxımdan Azərbaycanın və regionun maraqlarının qorunması, dayanıqlı inkişafın təşviqi və regional əməkdaşlığın gücləndirilməsi üçün vacib mərhələdir. Bu gün Cənubi Qafqaz regionu nadir, demək olar ki, dönüş nöqtəsini yaşayır”.

Beləliklə, Ceyms Devid Vensin səfəri və TRIPP-in gündəmdə olması bir daha göstərir ki, Cənubi Qafqazda əsas strateji xətt sabitlik, tranzit və iqtisadi əməkdaşlıq üzərində qurulur. Bu xəttin mərkəzində isə Azərbaycan dayanır.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Azərbaycanın Avropa ilə enerji tərəfdaşlığının önəmi artır



**Azərbaycanın Avropa İttifaqı ilə enerji sahəsində əməkdaşlığı uğurla davam edir. Son illər ölkəmiz özünü bu sahədə etibarlı tərəfdaş kimi təqdim etməyi bacarıb. Məhz bunun nəticəsidir ki, indi Avropa təbii qaza olan ehtiyacının ödənilməsində Azərbaycana daha böyük ümidlər bəsləyir. Ölkəmizin Avropa İttifaqı ilə enerji əməkdaşlığının əsası isə 2006-cı il noyabrın 7-də Brüsseldə "Avropa İttifaqı və Azərbaycan Respublikası arasında enerji sahəsində strateji tərəfdaşlıq haqqında Anlaşma Memorandumu"nun imzalanması ilə qoyulub.**

Enerji sektorunun müasirləşdirilməsi və əməkdaşlığın inkişafını özündə ehtiva edən həmin sənədə əsasən, tərəflər arasında əməkdaşlığın strateji istiqamətləri və təməli müəyyən edilib. Bu strateji tərəfdaşlıq sonradan 2011-ci ildə "Cənub Qaz Dəhlizi" üzrə Birgə Bəyannamə və 2022-ci ildə imzalanmış yeni enerji memorandumu ilə daha da genişləndirilib.

Hazırda Azərbaycan və Avropa Komissiyası arasında enerji əməkdaşlığı artıq bir ənənəvi qaz tədarükündən "yaşıl enerji"yə keçid mərhələsinə qədəm qoyub. 2022-ci ildə imzalanmış strateji tərəfdaşlıq memorandumu ilə Xəzər dənizinin külək enerjisi potensialının reallaşdırılması, yaşıl hidrogen istehsalı və Avropaya "yaşıl enerji dəhlizləri"nin yaradılması, xüsusilə "Xəzər–Qara dəniz–Avropa" sualtı kabel layihəsi əsas hədəflərə çevrilib.

Azərbaycanın energetika naziri Pərviz Şahbazovun Avropa Komissiyasının Genişlənmə və Şərq Qonşuluğu üzrə baş direktoru Gert Yan Koopman ilə görüşündə ölkəmizlə Avropa İttifaqının enerji sahəsində strateji tərəfdaşlığının prioritetləri, Cənub Qaz Dəhlizinin Avropanın enerji təhlükəsizliyində rolu, eləcə də yeni ölkələrin Azərbaycan qazının alıcıları sırasına qoşulması məsələləri müzakirə edilib. Söhbət əsnasında ötən il Azərbaycandan Avropaya 12,8 milyard kubmetr qaz tədarük edildiyi vurğulanıb.

Məlum olduğu kimi, ötən müddətdə Xəzər regionu ilə Avropa arasında vacib enerji körpüsü rolunu oynayan Cənub Qaz Dəhlizi "köhnə qitə"nin enerji xəritəsinin zənginləşdirilməsinə mühüm töhfələr verib. Ümumilikdə isə, Avropa bazarlarına çıxış Azərbaycanın qaz hasilatının sürətlə inkişaf etməsinə imkan yaradıb. Rəsmi statistikaya əsasən, 2017-ci ildə ("Şahdəniz-2" layihəsinin istismara verilməsindən əvvəl) 28,6 milyard kubmetr olan qaz hasilatı 2021-ci ildə 43,9 milyard, 2024-cü ildə 50,4 milyard, 2025-ci ildə isə 51,5 milyard kubmetrə yüksəlib. Bununla yanaşı, qaz ixrac həcmləri də artaraq 8,5 milyard kubmetrdən 25,2 milyard kubmetrə çatıb.

Azərbaycan Avropaya qaz tədarükünə isə 2020-ci il dekabrın 31-də Cənub Qaz Dəhlizinin sonuncu seqmenti olan Trans-Adriatik boru kəmərinin istismara verilməsi ilə başlayıb. 2026-cı il yanvarın 1-dək TAP vasitəsilə, ümumilikdə, 54,3 milyard kubmetr qaz nəql olunub. Hazırda Azərbaycan 16 ölkəyə qaz ixrac edir ki, bunun da 12-si məhz Avropa dövlətləridir. Azərbaycan və Avropa İttifaqı arasında əldə olunmuş razılaşmaya əsasən, isə 2027-ci ilə qədər qaz tədarükünün ildə 20 milyard kubmetrə çatdırılması nəzərdə tutulur. Azərbaycan qazının Avropaya ixracının artırılması üçün hazırda TAP boru kəmərində genişləndirmə işləri həyata keçirilir.

Pərviz Şahbazovun Gert Yan Koopman ilə görüşündə Azərbaycanla Avropa İttifaqı arasında enerji sahəsində strateji tərəfdaşlığa dair Anlaşma Memorandumunda təbii qazla yanaşı, bərpa olunan enerji və enerji səmərəliliyi, eləcə də digər mühüm istiqamətlərin də öz əksini tapdığı diqqətə çatdırılaraq bu sənədin ikitərəfli enerji münasibətlərinin əsasını təşkil etdiyi vurğulanıb. Söhbət əsnasında elektrik enerjisinin ötürülməsi üzrə regional enerji bağlantıları xüsusunda Azərbaycanla Avropa arasında Qara dənizdən keçməklə, Naxçıvan və Gürcüstan üzərindən planlaşdırılan layihələrdən də bəhs edilib. "Xəzər–Qara dəniz–Avropa Yaşıl Enerji Dəhlizi" layihəsinin Avropa Elektrik Ötürmə Sistemləri Operatorları Şəbəkəsinin (ENTSO-E) 2026-2036-cı illər üzrə Şəbəkə İnkişaf Planına daxil edilməsi, həmçinin "Ortaq Maraqlar Layihəsi" statusunun əldə olunması ilə bağlı fikir mübadiləsi aparılıb.

Yeri gəlmişkən, "Xəzər–Qara dəniz–Avropa yaşıl enerji dəhlizi" layihəsi artıq icra mərhələsinə qədəm qoyub. Qara dəniz sualtı kabel xəttinin çəkilişi üçün 2023-cü il iyulun 25-də Gürcüstan, Macarıstan, Rumıniya və Azərbaycan arasında birgə müəssisənin yaradılması haqqında Anlaşma Memorandumu imzalanıb. Qeyd edək ki, Qara dəniz sualtı kabel xətti Gürcüstan və Rumıniyanı birbaşa birləşdirəcək və Cənubi Qafqaz və Cənub-Şərqi Avropanın enerji sistemlərini bir-birinə bağlayacaq ən böyük infrastruktur layihəsidir. Sualtı kabelin uzunluğu 1155 kilometrdən çox olacaq. Bunun da 1115 kilometri suyun altı ilə, 40 kilomtri isə quru ərazidən keçəcək. Kabel xəttinin gərginliyi 525 kilovolt, gücü isə 1300 meqavat olacaq. Qara dəniz vasitəsilə sualtı elektrik kabelinin tikintisinin 2032-ci ildə başa çatması planlaşdırılır.

Energetika nazirinin Avropa Komissiyasının Genişlənmə və Şərq Qonşuluğu üzrə baş direktoru ilə görüşündə, həmçinin Zəngəzur dəhlizi vasitəsilə Naxçıvan, Azərbaycan və Türkiyəni əlaqələndirəcək yeni marşrutun Mərkəzi Asiya ilə Avropanı birləşdirəcək strateji enerji dəhlizi rolunu oynayacağı qeyd edilib, bərpa olunan enerji layihələrinin, xüsusilə günəş və külək enerjisinin istehsalı və ötürülməsi istiqamətində Avropa şirkətləri ilə əməkdaşlıq imkanları dəyərləndirilib. Bununla yanaşı, Azərbaycan–Avropa İttifaqı Enerji Dialoqu, Cənub Qaz Dəhlizi və Yaşıl Enerji Məşvərət Şuraları çərçivəsində əməkdaşlıq məsələləri də nəzərdən keçirilib.

Xatırladaq ki, Avropa Komissiyasının Genişlənmə və Şərq Qonşuluğu üzrə Baş Direktorluğu 2015-ci il yanvarın 1-də yaradılıb. Qurumun əsas vəzifəsi Avropa İttifaqının genişlənmə prosesini və Şərq Tərəfdaşlığı ölkələri ilə qonşuluq siyasətini vahid orqan vasitəsilə idarə etməkdən ibarətdir. Avropa Komissiyasının Genişlənmə və Şərq Qonşuluğu üzrə Baş Direktorluğu Avropa İttifaqına üzvlük namizədləri və şərq qonşuları (Ukrayna, Moldova, Azərbaycan, Ermənistan, Gürcüstan) ilə münasibətləri, o cümlədən iqtisadi və siyasi əməkdaşlığı mənbələrinə görə tənzimləyir. Bu struktur sabitlik, təhlükəsizlik və tərəqqini təşviq etmək məqsədilə siyasi və iqtisadi islahatları dəstəkləyir, yardım proqramları həyata keçirir. ENTSO-E isə Avropada 36 ölkədən 40 elektrik enerjisi ötürücü sistem operatorunu birləşdirən təşkilatdır. 2009-cu ildə yaradılan bu qurum, vahid Avropa enerji bazarını təşviq etmək, enerji təhlükəsizliyini və şəbəkələrarası ticarəti təmin etmək məqsədilə fəaliyyət göstərir.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

### *Ekspert rəyi*



**Zəfər VƏLİYEV,**
**enerji məsələləri üzrə ekspert**

Dünyada baş verən iri miqyaslı geosiyasi transformasiyalar fonunda Azərbaycanın həyata keçirdiyi enerji layihələri region ölkələrinin və Avropanın dayanıqlı, sabit və təhlükəsiz enerji təchizatının təmin olunması istiqamətində atılan mühüm addımlar kimi qiymətləndirilir. Bu layihələr enerji təhlükəsizliyinin möhkəmləndirilməsi baxımından xüsusi əhəmiyyət daşıyır.

Bu baxımdan, qarşıdakı illərdə Azərbaycanın beynəlxalq bazarlara çıxaracağı neft, qaz və "yaşıl" enerji resursları dünya enerji bazarlarında fərqli tələbat trayektoriyaları və müxtəlif funksional rollarla üzləşəcək. Məlum olduğu kimi, Azərbaycan nefti uzun illər ərzində qlobal neft bazarlarında yüngül və ağır neft balansının təmin edilməsinə xidmət edib. Cənub Qaz Dəhlizi vasitəsilə Avropa bazarına daxil olan Azərbaycan qazı isə inkişaf üçün yanacaq, keçid yanacağı və ehtiyat enerji mənbəyi funksiyalarını yerinə yetirəcək.

Hazırda ölkə daxilində icra edilən bərpa olunan enerji layihələri enerji kompleksinin şaxələndirilməsinə mühüm töhfələr verir. Eyni zamanda, bu layihələr Azərbaycan üzərindən yeni "yaşıl enerji dəhlizi"nin formalaşmasına və Mərkəzi Asiya ölkələrinin "yaşıl" enerji sistemlərinə çıxışının təmin edilməsinə möhkəm əsas yaradır.

## Avrasiya İnkişaf Bankının Azərbaycanla bağlı müsbət hesabatı

**Azərbaycan Avrasiya regionundan kapital idxal edən əsas ölkələrdən biridir.**

Avrasiya İnkişaf Bankının hesabatında vurğulanır ki, Avrasiya regionu ölkələri kapitalın fəal ixracatçıları kimi çıxış edirlər. 2025-ci ilin birinci yarısının sonuna olan vəziyyətə görə, onların Asiya ölkələrindəki birbaşa xarici investisiyalarının (BXİ) həcmi 56,6 milyard ABŞ dollarına çataraq son bir il yarım ərzində 12,5 faiz artıb.

Bildirilib ki, Avrasiya regionundan Rusiya, Azərbaycan və Qazaxıstan əsas kapital ixracatçıları olaraq qalmaqdadır. Bu 3 ölkənin payına Asiya ölkələrinə yönələn bütün çıxış investisiyalarının, demək olar ki, tam həcmi düşür. Rusiyanın payı 72 faiz təşkil edir ki, bu da onun korporativ sektorunun miqyası və regiondan kənarda elektroenergetika, emal sənayesi və infrastruktur sahələrində tarixi mövcudluğu ilə izah olunur. Azərbaycan əsasən neft-qaz və neft emalı sektorlarına yatırımlar hesabına çıxış BXİ-nin 23 faizini təmin edir, Qazaxıstanın payı isə (4 faiz) maliyyə xidmətləri və daşınmaz əmlak inkişafı sahələrinə investisiyalar hesabına tədricən genişlənir.

Bundan əlavə, hesabatda qeyd olunur ki, Hindistan investisiyaları əsasən Rusiya və Azərbaycanın neft-qaz sektorunda cəmləşib.

Analitikləri vurğulayırlar ki, Türkiyə Avrasiya regionu ölkələrindən investisiya qəbul edən ən böyük ölkədir. Toplanmış investisiyaların həcmi 44 milyard ABŞ dollarına çatıb ki, bu da Türkiyənin Avrasiya regionu ölkələrinə yatırdığı investisiyaların həcmindən (18,6 milyard ABŞ dolları) iki dəfədən çoxdur. Əsas töhfə enerji və neft emalı sektorlarında fəaliyyət göstərən Rusiya və Azərbaycan şirkətləri tərəfindən təmin olunur.

"Sahəvi stuktur baxımından Körfəz ölkələri əsas investisiyalarını neft-qaz sektoruna və elektrik enerjisinə yönəldiblər. Ümumi yatırımların təxminən 43 faizi Türkmənistanda neft hasilatı layihəsinin payına düşür, daha 35 faizi isə Özbəkistan və Azərbaycanda, əsasən bərpa olunan enerji mənbələri seqmentində həyata keçirilən 29 elektrik enerjisi layihəsinə aiddir. Son illərdə ərəb investorları aktivlərin şaxələndirilməsi imkanlarını daha fəal şəkildə araşdırır, Azərbaycan, Gürcüstan və Ermənistanda yeni investisiya istiqamətlərini nəzərdən keçirirlər", – hesabatda qeyd olunub.

Məlumata görə, 2025-ci ilin birinci yarısının sonuna olan vəziyyətə görə, Səudiyyə Ərəbistanının Avrasiya regionu ölkələrində topladığı investisiyaların həcmi 4,17 milyard ABŞ dolları səviyyəsində qiymətləndirilir.

"Son bir il yarım ərzində artım 2 milyard ABŞ dollarından çox olub ki, bu da regionda Səudiyyə şirkətlərinin investisiya fəallığının kəskin yüksəldiyini göstərir. Səudiyyə Ərəbistanının əsas investisiya istiqaməti Özbəkistandır – bütün toplanmış yatırımların, təxminən, 93 faizi bu ölkənin payına düşür. Sərmayelərin qalan hissəsi isə Azərbaycana yönəlib", – hesabatda bildirilir.

AAİB-də qeyd olunur ki, Azərbaycan Türkiyədən BXİ cəlb edən əsas tərəfdaşlardan biridir.

"Buna həm coğrafi baxımdan eləcə də, iki dövlət arasında mövcud olan siyasi və mədəni bağlılıq şərait yaradır. Türkiyənin Azərbaycandakı (eləcə də bütün Avrasiya regionundakı) ən iri investisiya layihəsi "Şahdəniz" yatağının işlənilməsidir. Bu layihədə Türkiyənin TPAO şirkəti (Türkiye Petrolleri Anonim Ortaklığı) Xəzər dənizinin cənub hissəsində qaz hasilatı və işlənməsi üzrə beynəlxalq konsorsiumun iştirakçılarından biridir", – deyə hesabatda vurğulanır.

***XQ***

## Dəmir İpək Yolunun daşıma imkanları yüksəlir



**Dünən Tbilisidə "Azərbaycan Dəmir Yolları" QSC-nin (ADY) və "Marabda-Kartsaxi Dəmir Yolu" MMC-nin törəmə şirkətlərinin birgə müəssisəsi olan "BTKI Railways" MMC ilə "Gürcüstan Dəmir Yolları" SC arasında Bakı–Tbilisi–Qars (BTQ) dəmir yolu xətti üzrə birgə müəssisənin tam fəaliyyətə başlamasının təmin edilməsi məqsədilə müvafiq müqavilələr imzalanıb. Bu barədə XQ-yə "Azərbaycan Dəmir Yolları" QSC-dən məlumat verilib.**

Bildirilib ki, müqavilələrdən biri Marabda–Axalkalaki dəmir yolu infrastrukturundan istifadəni, digəri isə Axalkalaki stansiyasında terminal xidmətlərinin göstərilməsini nəzərdə tutur. İmzalanma mərasimində qeyd olunub ki, yeni razılaşmalar Orta Dəhlizin mühüm seqmenti olan BTQ üzrə əməliyyatların daha səmərəli təşkilinə və yükdaşıma həcmlərinin artırılmasına imkan verəcək.

ADY Bakı–Tbilisi–Qars xəttinin Gürcüstandan keçən və mürəkkəb coğrafi relyefə malik 184 kilometrlik hissəsində təmir-bərpa və modernləşdirmə işlərini uğurla yekunlaşdırıb. Nəticədə, xəttin illik yükötürmə qabiliyyəti 1 milyon tondan 5 milyon tona çatdırılıb. Bu dəmir yolu xəttinin modernləşdirilməsinin əsas məqsədi Orta Dəhlizin rəqabət qabiliyyətini artırmaq və BTQ-ni dəhlizin əsas yükdaşıma arteriyalarından birinə çevirməkdir.

Xatırladaq ki, "BTKI Railways" MMC 2024-cü il avqustun 13-də yaradılıb. Birgə müəssisənin fəaliyyəti BTQ üzrə əməliyyatların səmərəli idarə olunması və yeni yüklərin cəlbi, regionda strateji nəqliyyat əlaqələrinin gücləndirilməsi və Orta Dəhlizin potensialının artırılması kimi istiqamətləri əhatə edir.

***XQ***

## Aqrar Kredit və İnkişaf Agentliyinin texniki layihəsi

**Ötən il Aqrar Kredit və İnkişaf Agentliyi tərəfindən 7565 kənd təsərrüfatı texnikası və avadanlığının satışı maliyyələşdirilib. Bu barədə Kənd Təsərrüfatı Nazirliyinin ictimaiyyətlə əlaqələr və informasiya təminatı şöbəsindən məlumat verilib.**



Bildirilib ki, 2025-ci ildə Aqrar Kredit və İnkişaf Agentliyi tərəfindən aqrar sektorda fəaliyyət göstərən şəxslərə 5444 müraciət üzrə 112,3 milyon manat məbləğində güzəştli kredit verilib. Bunun 62,5 milyon manatı texnika və avadanlıq təyinatlı kreditlər, 26,8 milyon manatı güzəştli kreditlər, 23 milyon manatı isə mikrokreditlərdir.

Keçən il Aqrar Kredit və İnkişaf Agentliyi tərəfindən 5574 baş damazlıq (5074 baş iribuynuzlu və 500 baş xırdabuynuzlu) heyvanın alışına 21,3 milyon manat, habelə kənd təsərrüfatı texnikası və avadanlıqlarının alışı üçün 94 milyon manat məbləğində güzəşt vəsaiti ayrılıb.

***XQ***

## İllik sərmayə qoyuluşu – 32 milyard manat!

**2026-ci il yanvar ayının 1-nə Azərbaycan iqtisadiyyatına cəmi kredit qoyuluşları (bank və qeyri-bank birlikdə) 31 milyard 946,7 milyon manat təşkil edib. Bu, ötən ilin yanvar ayının 1-i ilə müqayisədə 2 milyard 658,5 milyon manat və ya 9,1 faiz artım deməkdir.**



Azərbaycan Mərkəzi Bankının məlumatına əsasən, hesabat dövründə dövlət bankları tərəfindən kredit qoyuluşları 7 milyard 867,3 milyon manat, özəl banklar tərəfindən 22 milyard 195,7 milyon manat, qeyri-bank kredit təşkilatları tərəfindən isə 1 milyard 883,7 milyon manat təşkil edib.

Qeyd edək ki, bu il yanvarın 1-nə bankların kredit portfelinin həcmi 30 milyard 63 milyon manata bərabər olub. Bunun da 16 milyard 106,3 milyon manatı biznes, 9 milyard 354,2 milyon manatı istehlak, 4 milyard 602,5 milyon manatı isə ipoteka kreditlərinin payına düşüb.

***XQ***

## Ötən il Qarabağda 5 milyard manatlıq bərpa-quruculuq aparılıb

**2025-ci ildə Azərbaycanın dövlət büdcəsindən işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası üçün 4 milyard 465,7 milyon manat vəsait ayrılıb. Bu barədə Maliyyə Nazirliyi məlumat yayıb.**



Bildirilib ki, həmin vəsaitin 3 milyard 781,9 milyon manatı və yaxud 84,7 faizi işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası ilə bağlı nəzərdə tutulmuş məqsədli vəsaitin, 373,2 milyon manatı və yaxud 8,3 faizi dövlət büdcəsinin ehtiyat fondunun vəsaitinin, 258,5 milyon manatı və yaxud 5,8 faizi dövlət əsaslı vəsait qoyuluşu (investisiya) xərcləri üzrə vəsaitin, 52,1 milyon manatı və yaxud 1,2 faizi dövlət büdcəsinin digər ehtiyatlarından ayrılmış vəsaitin payına düşüb.

Xatırladaq ki, 2024-cü ildə dövlət büdcəsindən işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası üçün 4 milyard 855,8 milyon manat vəsait ayrılmışdı.

***XQ***

# 5 illik sosial-iqtisadi marafonun yüksəliş xətti

## *“Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası”nın uğurlu nəticələri*

**Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası” ölkədə davamlı iqtisadi artımın təmin edilməsi, institusional islahatların dərinləşdirilməsi və inklüziv inkişafın gücləndirilməsi baxımından əsas çərçivə sənədi kimi çıxış edir. Strategiyanın icrası nəticəsində əldə olunan göstəricilər növbəti mərhələdə qəbul ediləcək strateji qərarlar üçün etibarlı analitik əsas formalaşdırır.**



Sənədin 4-cü bəndinə əsasən, strategiyada nəzərdə tutulmuş tədbirlərin icrasının monitorinqi və qiymətləndirilməsi Azərbaycan Respublikası Nazirlər Kabinetinin sifarişi əsasında, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi (İİTKM) tərəfindən həyata keçirilir. Bu proses icra nəticələrinin sistemli təhlilini, institusional və sektorlar üzrə irəliləyişlərin qiymətləndirilməsini, həmçinin mövcud çağırışların və yeni imkanların müəyyən edilməsini əhatə edir.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru, iqtisad elmləri doktoru, professor Vüsal Qasımlı Strategiyanın icra vəziyyəti, əldə olunan əsas nəticələr və bu nəticələrin 2027–2030-cu illər üçün hazırlanan yeni sosial-iqtisadi inkişaf strategiyasının konseptual sütunlarının formalaşmasına verdiyi töhfələr barədə XQ-nin suallarını cavablandırıb.

***–2022–2026-cı illər üzrə sosial-iqtisadi inkişaf Strategiyasının icrasının monitorinq və qiymətləndirilməsi hansı əsas məqsədlərə xidmət edir?***

–Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası” ölkədə dayanıqlı və inklüziv iqtisadi artımın təmin edilməsinə xidmət edir və bu istiqamətdə dövlət siyasəti üçün əsas çərçivəni formalaşdırır. Sənədin icrasının monitorinqi və qiymətləndirilməsi dövlət başçısı tərəfindən İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinə tapşırılıb ki, bu proses Strategiya çərçivəsində müəyyənləşdirilmiş hədəflərin icra vəziyyətinin obyektiv izlənməsinə, resurslardan səmərəli istifadənin təminatına və əldə olunan nəticələr əsasında vaxtında əsaslandırılmış idarəetmə qərarlarının qəbuluna zəmin yaradır.

Strategiya sənədi digər dövlət proqramları və fəaliyyət planları üçün baza sənədi hesab edilə bilər. Bu əsasda monitorinq və qiymətləndirmənin mühüm fərqləndirici xüsusiyyətləri var. Belə ki, Nazirlər Kabinetinin Sərəncamı ilə təsdiq edilmiş Metodoloji Çərçivə sənədi və dövlət başçısının Fərmanı ilə təsdiq edilmiş “Dövlət proqramlarının tərtibi, icrası, monitorinqi və qiymətləndirilməsi” Qaydası əsas tutularaq Strategiya üzrə “Elektron Hesabatlılıq Portalı” (www.azerbaijan2030.gov.az) vasitəsilə monitorinq və qiymətləndirmə aparılır.

Bu çərçivədə Mərkəz Dövlət Proqramının Tədbirlər Planı üzrə əsas və digər icraçı qurum qismində müəyyən edilmiş 60-a yaxın dövlət qurumu və orqanları ilə sıx və sistemli koordinasiya, eləcə də davamlı kommunikasiya təmin edir. Mühüm fərqləndirici məqamlardan biri odur ki, Strategiyanın həyata keçirilməsi və koordinasiyası məqsədilə Nazirlər Kabinetinin tabeliyində yaradılmış 8 işçi qrup monitorinq və qiymətləndirmə kontekstində hökumət proqramlarının icrasının əlaqələndirilməsində mühüm rol oynayır.

Onlar Mərkəzin rəhbərliyi ilə nəticəyönümlü monitorinq sisteminə inteqrasiya olunaraq məlumatların toplanması, təhlili və hesabatların hazırlanmasını koordinasiya edirlər. Bu qruplar vasitəsilə müxtəlif dövlət qurumlarının məlumat mübadiləsi vahid platformada həyata keçirilir, nəticədə qərarvermə daha çevik və sübutlara əsaslanmış olur. İşçi qrupları həmçinin problemlərin erkən aşkarlanması və risklərin idarə olunması baxımından effektiv mexanizm kimi çıxış edir və dövlət proqramlarının icrasında koordinasiyalı yanaşmanı təmin edir.

Eyni zamanda, Strategiyanın monitorinq və qiymətləndirilmə prosesində layihə və proqram idarəetməsi beynəlxalq yanaşmalar əsasında tətbiq olunur. Belə ki, fəaliyyətdə olan “Layihə idarəetməsi” modulu vasitəsilə icra mərhələləri real vaxt rejimində rəqəmsal platforma vasitəsilə izlənilir və bütün proseslər ortamüddətli xərclər çərçivəsi ilə uzlaşdırılaraq nəticəyə əsaslanan qərarqəbuletmə təmin edilir.

Bunlardan əlavə, monitorinq və qiymətləndirmə prosesinin effektiv aparılması məqsədilə bölgələrə səfərlər təşkil edilir və icra olunan aidiyyəti layihələrə, o cümlədən yenidənqurma və bərpa işlərinə, həmçinin infrastruktur və digər obyektlərə, ümumilikdə, görülmüş işlərə yerində baxış keçirilir, müvafiq hesabatlar və təkliflər hazırlanaraq ali rəhbərliyə təqdim edilir. Belə ki, cari dövrədək 5 strateji siyasət sənədi üzrə, o cümlədən Strategiya çərçivəsində səfərlər təşkil edilib. Vurğulayaq ki, ötən ilin may ayında Xızı–Abşeron Külək Elektrik Stansiyası və Qaradağ Günəş Elektrik Stansiyasına həyata keçirilmiş səfərlər çərçivəsində icra vəziyyəti yerində qiymətləndirilib, müşahidələr nəticəsində əsaslandırılmış rəy və təkliflər formalaşdırılıb. Səfərlər zamanı əldə olunan məlumatlar monitorinq və qiymətləndirmə hesabatlarında nəzərə alınaraq keyfiyyətin daha da artırılmasına mühüm töhfə verir.

***–2022–2026-cı illər üzrə sosial-iqtisadi inkişaf Strategiyasının icrası çərçivəsində hansı mühüm nəticələrə nail olunub, monitorinq nəticələrinə görə ölkədə sosial-iqtisadi inkişafın mövcud vəziyyəti hansı səviyyədədir, bu nəticələr perspektiv üçün nə vəd edir?***

–Əvvəla qeyd edim ki, 2022–2026-cı illər üzrə sosial-iqtisadi inkişaf Strategiyası dayanıqlı, innovativ və sosial ədalətə əsaslanan inkişaf modelini formalaşdırır. 2025-ci ilin yekunlarına əsasən, Azərbaycanda iqtisadiyyatın dayanıqlı inkişaf meyilləri qorunub saxlanılıb. Bu dövrdə Ümumi Daxili Məhsul 1,4 faiz artıb, qeyri-neft-qaz sektorunda artım 2,7 faiz təşkil edib.

Eyni zamanda, ölkənin strateji valyuta ehtiyatları ilin əvvəlindən 14,2 milyard ABŞ dolları artaraq 85,2 milyard ABŞ dollarına çatıb. Manat ifadəsində bu göstərici 145 milyard manat təşkil etməklə, 2025-ci il üzrə gözlənilən ÜDM həcmini üstələyir. Hazırda strateji valyuta ehtiyatlarının xarici dövlət borcundan təxminən 18 dəfəyə qədər çox olması ölkənin maliyyə dayanıqlığının daha da möhkəmləndiyini göstərir.

2025-ci il ərzində Azərbaycan mənşəli qeyri-neft məhsullarının ixracı 3,6 milyard ABŞ dollarını ötüb. 2022-ci ildən bəri olan inkişaf dinamikası göstərir ki, qeyri-neft ixracı artıq 14 milyard dollara yaxın həcmdə reallaşıb. Bu artım iqtisadiyyatın diversifikasiyası istiqamətində mühüm nəticədir. Eyni zamanda, 2022-ci ildən bəri qeyri-neft sektoruna 6 milyard ABŞ dollarından çox birbaşa xarici investisiya cəlb olunub.

İllik inflasiya səviyyəsinin 4±2 diapazonunda, habelə məcmu dövlət borcunun ÜDM-ə nisbəti və icmal büdcənin qeyri-neft baza kəsirinin qeyri-neft-qaz ÜDM-ə nisbəti ilə bağlı müəyyən edilmiş makro-fiskal çərçivədə saxlanılması Strategiyanın icrası dövründə təmin edilib.

Son illərdə əmək bazarında rəqabətqabiliyyətli kadr potensialının formalaşdırılması istiqamətində də mühüm addımlar atılıb. Peşə və kvalifikasiya standartlarının yaradılması bu prosesin əsas dayaqlarından biridir. Hazırda “Peşə və Kvalifikasiya Standartlarının Reyestri”ndə 1 600-dən çox standart mövcuddur ki, bu da əmək bazarında təklif və tələbin daha effektiv uyğunlaşdırılmasına imkan verir.

Azərbaycan rəqəmsal transformasiya sahəsində regionda öncül mövqeyini möhkəmləndirir. Yüksək və orta-yüksək texnoloji sənayenin əlavə dəyərinin ümumi əlavə dəyərdə xüsusi çəkisi 13 faizə çatıb. Qeyd edək ki, bu göstərici üzrə 2026-cı ildə 15 faizə nail olunması əsas hədəflərdən biridir. Bununla yanaşı, bu Strategiyaya istinadən ölkə başçısının müvafiq Sərəncamları ilə təsdiq olunmuş Süni İntellekt Strategiyası, Rəqəmsal İnkişaf Konsepsiyası və Rəqəmsal iqtisadiyyatın inkişafına dair Strategiyanın qəbul edilməsi Azərbaycanın texnoloji inkişafında yeni mərhələni müəyyənləşdirir.

Təhsil, elm, səhiyyə və rəqəmsal transformasiya sahələrində həyata keçirilən ardıcıl islahatlar müasir bilik və bacarıqlara malik, sağlam və rəqabətqabiliyyətli nəsil formalaşdırmağa yönəlib. 2025–2026-cı tədris ilində 225 mindən çox uşaq məktəbəhazırlığa cəlb edilib, 80-dən artıq məktəb isə əsaslı şəkildə yenilənib. Peşə təhsilində də artıq modern yanaşmalar tətbiq olunur. Bakı və Lənkəran Peşə Təhsil Mərkəzlərində yenidənqurma işləri başa çatıb, adambaşı maliyyələşmə modeli çərçivəsində minlərlə gənc əmək bazarına uyğun ixtisaslar üzrə təhsil alır.

Ekoloji tarazlığın qorunması, bərpa olunan enerji mənbələrinin payının artırılması və təmiz istehsal texnologiyalarının tətbiqi istiqamətində də ötən icra dövründə mühüm addımlar atılıb. Hidrometeoroloji müşahidələrin gücləndirilməsi məqsədilə ölkədə hava və su resurslarının monitorinqini daha operativ və dəqiq aparmağa imkan verən onlarla avtomat meteoroloji, hidroloji və radar sistemi quraşdırılıb. Kənd təsərrüfatında süni intellektə əsaslanan idarəetmə sistemləri və ekoloji təmiz istehsal texnologiyaları artıq bir çox təsərrüfatlarda sınaqdan keçirilir.

Enerji sektorunda qəbul edilən “Elektroenergetika haqqında” və “Qaz təchizatı haqqında” Qanunlar bu sahədə müasir tənzimləyici çərçivənin formalaşmasına mühüm töhfə verib. Azərbaycanın enerji xəritəsində əlamətdar hadisələrdən biri “Masdar” şirkəti tərəfindən inşa edilən 230 MVt gücündə “Qaradağ” Günəş Elektrik Stansiyasının açılışı olub.

Bununla yanaşı, “8 Noyabr” Elektrik Stansiyasının istismara verilməsi ölkənin enerji təhlükəsizliyini daha da gücləndirib. Son illərdə həyata keçirilən tədbirlər nəticəsində bərpa olunan enerji mənbələrinin payı 17,3 faizdən 20,8 faizə yüksəlib, bu isə Azərbaycanın “yaşıl enerji” strategiyasına sadiqliyinin göstəricisidir. Burada diqqətə çatdırmaq yerinə düşər ki, su elektrik stansiyaları da daxil olmaqla, bərpa olunan enerji mənbələri üzrə ümumi qoyuluş gücü 1796 MVt-a çatıb və ölkə üzrə elektrik enerjisi istehsalının qoyuluş gücündə bərpa olunan enerji mənbələrinin payı 20,8 faiz təşkil edib.

Bu tədbirlər nəticəsində artıq söyləmək olar ki, ölkə həm enerji təhlükəsizliyini möhkəmləndirir, həm də iqlim dəyişmələrinin təsirlərinin azaldılması istiqamətində regional lider kimi mövqeyini gücləndirir.

Beləliklə, iqtisadi sabitlik, rəqabətqabiliyyətli insan kapitalı, rəqəmsal transformasiya və “yaşıl artım” istiqamətində əldə edilən nəticələr ölkəmizin milli prioritetlərə uyğun şəkildə modern, inklüziv və uzunmüddətli inkişaf yolunda inamla irəlilədiyini təsdiqləyir.

***–2022–2026-cı illər üzrə sosial-iqtisadi inkişaf Strategiyasının icrası zamanı tətbiq edilən rəqəmsal və nəticəyönümlü monitorinq yanaşması gələcək strateji sənədlərin keyfiyyətinə necə təsir edəcək?***

–2022–2026-cı illər üzrə sosial-iqtisadi inkişaf strategiyasının icrası zamanı tətbiq edilən rəqəmsal və nəticəyönümlü monitorinq yanaşması ilk növbədə qərarqəbuletmə prosesinin faktlara əsaslanmasını gücləndirir və strateji sənədlərin hazırlanmasında keyfiyyətcə yeni mərhələyə keçidi təmin edir. Bu yanaşma icra prosesindən real vaxt rejimində əldə olunan məlumatların sistemli təhlilinə, hədəflərlə faktiki nəticələr arasında əlaqənin daha dəqiq qurulmasına və növbəti strateji sənədlərdə ölçülə bilən, icrası mümkün və nəticəyə fokuslanan məqsədlərin formalaşdırılmasına imkan yaradır.

Hazırda müvafiq portal üzərindən hesabatlılığın təmin olunması ilə bağlı bütün proseslər tam rəqəmsal əsasda həyata keçirilir. Monitorinq və qiymətləndirmə prosesləri rəqəmsal platformalar və artıq cari ildən mərkəzləşmiş şəkildə “Vahid Elektron Hesabatlılıq Portalı” üzərindən həyata keçirilir ki, bu da şəffaflığı, hesabatlılığı və operativliyi əhəmiyyətli dərəcədə artırır. Hesabat dövrlərinə uyğun olaraq məlumatların təqdim edilməsi avtomatlaşdırılmış mexanizmlər vasitəsilə icraçı qurumların şəxsi kabinetlərinə yönləndirilir, formalaşan böyük həcmli və strukturlaşdırılmış məlumatlar isə elektron mühitdə təhlil üçün İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinə ötürülür.

Qlobal təcrübə də göstərir ki, insan resurslarının məhsuldarlığını artıran və əməliyyat risklərini azaldan süni intellekt həlləri monitorinq və qiymətləndirmə proseslərində artıq effektiv şəkildə tətbiq olunur. Bu çərçivədə təbii dilin emalı alqoritmləri mətn əsaslı məlumatların sürətli emalı, yoxlanılması və analizi ilə yanaşı, əldə edilən nəticələr əsasında tendensiyaların proqnozlaşdırılmasına və resursların daha rasional bölüşdürülməsinə imkan yaradır.

Məhz bu yanaşma əsasında Mərkəzin mövcud portallarında “location intelligence” alqoritmləri və “chat-bot” interfeyslərinin tətbiqi istiqamətində işlər aparılıb. Coğrafi məlumatların vizuallaşdırılması strategiya çərçivəsində görülən işlərə əyani baxışı təmin etməklə monitorinqin effektivliyini artırır və müxtəlif məlumat mənbələrinin vahid ağıllı xəritədə birləşdirilməsi yeni analitik baxış imkanları yaradır. Ümumilikdə, süni intellekt alətlərinin monitorinq və qiymətləndirmə proseslərinə inteqrasiyası insan resursu ilə texnoloji imkanların sinerji şəklində istifadəsini təmin edir və qərarqəbuletmə prosesinin daha çevik, dəqiq və nəticəyönümlü təşkilinə xidmət edir.

Mərkəzin monitorinq və qiymətləndirmə məqsədilə formalaşdırdığı müasir rəqəmsal platformalar layihələrin icrasına nəzarətdə və qərarların dəstəklənməsində data analitikası, coğrafi informasiya texnologiyaları, videomüşahidə sistemləri və süni intellekt imkanlarının tətbiqi ilə seçilir. Bu sistemlər OECD/DAC standartlarına əsaslanaraq layihələrin effektivliyini, səmərəliliyini və dayanıqlılığını qiymətləndirir. Eyni zamanda “Earned Value Management” (EVM) və “Risk Heat Map” kimi beynəlxalq metodlar tətbiq olunur. Nəticədə qərarvermə daha sübutlara əsaslanır, proqram idarəetməsi isə daha şəffaf və nəticəyönümlü olur.

Mərkəz təsis edildiyi dövrdən etibarən təqribən 40-dək strateji siyasət sənədinin monitorinq və qiymətləndirilməsini həyata keçirib. Xüsusən də, bu strateji sənədlərin demək olar ki, yarısından çoxu məhz son iki ildə təsdiq edilib. Hazırda icrası davam edən və ya yeni qəbul olunmuş 24 strateji sənəd üzrə proses müvafiq qaydada davam etdirilir.

Mərkəzin monitorinq və qiymətləndirmə mexanizmi beynəlxalq səviyyədə də tanınıb və ABŞ, Birləşmiş Krallıq və BƏƏ-də yerləşən beynəlxalq media qurumları tərəfindən 10-dan artıq beynəlxalq mükafatla təltif olunub. Bu faktlar Azərbaycanın innovativ ekosisteminin formalaşmasında institusional potensialın gücləndiyini və qlobal inkişaf meyarları ilə uyğunlaşmanın dərinləşdiyini göstərir.

Sonda onu qeyd edim ki, bu il həmçinin ölkə rəhbərliyi tərəfindən növbəti illərdə daha mürəkkəb çağırışlar və geniş imkanlarla xarakterizə olunan yeni mərhələyə daxil olmağı nəzərə alaraq, “Azərbaycan Respublikasının 2027–2030-cu illərdə sosial-iqtisadi inkişaf Strategiyası”nın və “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair II Dövlət Proqramı”nın layihələrinin hazırlanması barədə tapşırıq verilib.

Qeyd edək ki, məhz sözügedən sənədlərin layihələri də əvvəlki strateji sənədlər və dövlət proqramları üzrə aparılmış monitorinq və qiymətləndirmə nəticələri üzrə Mərkəzin təcrübələri, əldə edilmiş nailiyyətlər, müəyyən edilmiş boşluqlar və icra prosesində üzə çıxan çağırışlar, ortamüddətli dövr üçün nəzərdə tutulmuş resurslar nəzərə alınmaqla hazırlanır, demək olar ki, artıq yekunlaşma ərəfəsindədir.

Nəhayət, tətbiq edilən rəqəmsal və nəticəyönümlü monitorinq yanaşması əvvəlki təcrübə üzrə toplanmış sübutlara əsaslanaraq növbəti strateji sənədin daha real, ölçülə bilən, icrası mümkün və risklərə davamlı şəkildə hazırlanmasını təmin etməklə onların ümumi keyfiyyətini əhəmiyyətli dərəcədə yüksəldir.

Son illərdə aparılan sistemli monitorinq və qiymətləndirmə nəticələri göstərir ki, iqtisadi idarəetmədə tətbiq olunan yeni yanaşmalar real nəticələr formalaşdırır və dövlət siyasətinin icrasını daha çevik və əsaslandırılmış edir. Qeyri-neft sektorunun artan rolu, maliyyə dayanıqlığının güclənməsi və rəqəmsal idarəetmə alətlərinin geniş tətbiqi bu Strategiyanın əsas institusional töhfəsi və bir növ “mirası” kimi çıxış edir.

Məhz bu nəticələr sosial rifahın, məşğulluğun və gəlirlərin uzunmüddətli artımı üçün real zəmin yaratması ilə yanaşı, növbəti dövr üçün strateji qərarların daha dəqiq, ölçülə bilən və uzunmüddətli inkişaf hədəflərinə uyğun şəkildə formalaşdırılmasına imkan verir.

***Müsahibəni qələmə aldı:***
***Nurlan ABDALOV***
***XQ***

# Zəngəzur dəhlizinə maraq artır

**Azərbaycanla Avropa İttifaqı (Aİ) arasında Zəngəzur dəhlizinin Trans-Avropa nəqliyyat şəbəkələrinə (TEN-T) əlavə olunması ətrafında fikir mübadiləsi aparılıb.**



Bu barədə rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev "X" sosial şəbəkəsindəki hesabında bildirib.

"Avropa Komissiyasının Qonşuluq və Genişlənmə danışıqları üzrə baş direktoru Gert Can Kupman ilə görüş keçirdik. Görüşdə Naxçıvanın nəqliyyat infrastrukturunun inkişafı və bu istiqamətdə texniki-iqtisadi əsaslandırmanın hazırlanmasına başlanılması ilə bağlı məsələləri müzakirə etdik. Süni intellekt və kibertəhlükəsizlik sahəsində kadr potensialının gücləndirilməsi, Aİ şirkətlərinin ölkəmizdə fəaliyyəti barədə danışdıq. Eyni zamanda Azərbaycanın Aİ-nin "Horizon Europe" proqramı çərçivəsində layihələrdə iştirakı imkanlarını nəzərdən keçirdik", - deyə nazir qeyd edib.

R.Nəbiyev, tərəflərin həmçinin Orta Dəhlizin potensialının artırılması və rəqəmsallaşdırılması, eləcə də aviasiya, dəniz nəqliyyatı, süni intellekt və kibertəhlükəsizlik sahələrində Aİ ilə əməkdaşlıq imkanları barədə fikir mübadiləsi apardığını diqqətə çatdırıb.

***XQ***

*"Yaşıl" hədəflərimiz*

# Bakı buxtası – paytaxtın dəniz meydanı

## *Bu nadir hövzə "yaşıl" gələcəyə qucaq açır*



**Bakı buxtası paytaxtın rəmzi amfiteatrı olmaqla yanaşı, həm də Azərbaycanın sənaye tarixinin, enerji layihələrinin və ekoloji problemlərinin çulğalaşdığı bir məkandır. Onilliklər boyu neft hasilatı, sənaye fəaliyyəti və urbanizasiya nəticəsində bu ərazi ciddi antropogen təsirlərə məruz qalıb. Bu gün isə Bakı buxtasının ekoloji vəziyyətinin yaxşılaşdırılması adi bir məsələ deyil, eyni zamanda, milli təhlükəsizlik, iqtisadi inkişaf və ekoloji dayanıqlılıqla birbaşa bağlı önəmli "yaşıl" hədəfdir.**

### Dəniz çirkabı sahilə qaytarır

Nazirlər Kabinetində Baş nazir Əli Əsədovun sədrliyi ilə yanvarın 27-də Bakı buxtasının ekoloji vəziyyətinin yaxşılaşdırılması məsələlərinə həsr olunmuş iclas da bu baxımdan mühüm dönüş nöqtəsi kimi qiymətləndirilir. Toplantıda Xəzər dənizində müxtəlif təyinatlı qəzalı və yararsız vəziyyətdəki hidrotexniki qurğuların ləğv olunması, estakadaların, yanalma körpülərinin, platformaların, eləcə də batmış gəmilərin çıxarılması, həmçinin digər reabilitasiya layihələrinin müzakirə edilməsi də dövlətin bu sahəyə sistemli yanaşmasının göstəricisidir.

Baş Nazir Əli Əsədov çıxışında Xəzər dənizinin Azərbaycan Respublikasına məxsus sektorundakı neft-qaz yataqlarında sovet ittifaqından miras qalmış müxtəlif təyinatlı hidrotexniki qurğuların, ləğv edilmiş və ya konservasiya olunmuş neft quyularının, estakadaların, yanalma körpülərinin, platformaların köhnəlməsi, korroziyaya uğraması və hidrometeoroloji amillərin təsiri səbəbindən qəzalı vəziyyətə düşməsi nəticəsində yaranmış problemlər dənizin ekoloji vəziyyətinə neqativ təsir göstərdiyini diqqətə çatdırıb. O, eyni zamanda, uzun müddət antropogen təsirlərin davam etməsi nəticəsində Bakı buxtasında da çirklənmənin dərinləşdiyini, habelə onun ekoloji vəziyyətinin yaxşılaşdırılmasına kəskin zərurət yarandığını bildirib.

Mütəxəssislərin fikrincə, Bakı buxtasının ekoloji vəziyyəti uzun müddət daha çox ekoloji məsələ kimi müzakirə edilsə də, əslində, bu, ciddi problem olaraq daim narahatlıq doğurub. Çünki Xəzər dənizində yerləşən köhnə hidrotexniki qurğular, yararsız platformalar, batmış gəmilər və ləğv edilmiş neft quyuları təbiətlə yanaşı, həm də iqtisadiyyatın müxtəlif sahələrinə mənfi təsir göstərib. Belə ki, sadalanan obyektlərin mövcudluğu dəniz nəqliyyatının təhlükəsizliyini zəiflədib, enerji infrastrukturu üçün risk yaradıb, turizm və rekreasiya potensialını məhdudlaşdırıb, daşınmaz əmlak bazarında sahilyanı zonaların dəyərini aşağı salıb, eləcə də ekoloji risklərə görə dövlətin gələcək xərclərini artırıb.

Xatırladaq ki, sovet dövründə sənaye modelinin nümunəsi kimi qiymətləndirilən Xəzər hövzəsindəki hidrotexniki qurğuların böyük hissəsi bu gün ekoloji təhlükəsizliyə ciddi təhdid yaradır. Nəticədə Azərbaycan hazırda, necə deyərlər, "gecikmiş ekoloji borc"la üz-üzədir. Bu borcun əsas komponentləri sırasında texniki baxımdan təhlükəli obyektlərin demontaj xərclərinin reallaşdırılması, neftlə çirklənmiş torpaqların bərpası, dəniz dibinin təmizlənməsi, ekoloji monitorinq və risklərin idarə olunması, şəhər infrastrukturunun modernləşdirilməsi xüsusi yer tutur.

### Yaralı körfəz müalicəyə möhtacdır

Ekoloq Qasım Hüseynov Nazirlər Kabinetində Bakı buxtasının ekoloji vəziyyətinin yaxşılaşdırılması ilə bağlı keçirilən toplantıda tədbirlər planının müzakirə edilməsini bu sahənin reabilitasiyasına ilk dəfə olaraq kompleks iqtisadi layihə kimi yanaşılması baxımından yüksək qiymətləndirir. O, eyni zamanda, bu layihənin iqtisadi mahiyyətinin əsasında birbaşa maliyyə xərclərinin dayandığını bildirir. Ekoloq bütün bunlarla yanaşı, Bakı buxtasında platformaların, estakadaların yüksək peşəkarlıqla sökülməsi, batmış gəmilərin çıxarılması, metal konstruksiyaların kənarlaşdırılması, çirklənmiş torpaqların bərpası, eləcə də monitorinq sistemlərinin qurulmasının milyard manatlarla ölçülən investisiya tələb etdiyini vurğulayır. Qasım Hüseynov sözügedən layihə xarclərinin qısamüddətli dövrdə dövlət büdcəsi üçün ağır yük kimi görünə biləcəyini, lakin uzunmüddətli perspektivdə bunun iqtisadi baxımdan məntiqli investisiya olduğunu da xatırladır.

Ətraf mühit məsələləri üzrə ekspert Asim Hüseynovun sözlərinə görə, Bakı buxtasının ekoloji vəziyyətinin yaxşılaşması turizm sektorunda gəlirlərin artmasına, sahilyanı ərazilərdə kommersiya layihələrinin sürətli icrasına, daşınmaz əmlakın qiymətlərinin yüksəlməsinə, şəhər brendinin güclənməsinə və xarici investisiyaların artmasına müsbət təsir göstərəcək. Məsələn, beynəlxalq araşdırmalara görə, sahil zonalarının ekoloji reabilitasiyası həmin ərazilərdə daşınmaz əmlakın dəyərini 20-40 faiz artıracaq. Bütün bunlarla bərabər, Bakı buxtasında ekoloji risklər, dövlətin bu sahədə fövqəladə xərcləri azalacaq, səhiyyə sisteminə düşən yük yüngülləşəcək və ekoloji fəlakət riskləri minimuma enəcək.

Asim Hüseynov söhbətində Prezident İlham Əliyevin 2026-cı il yanvarın 12-də təsdiqlədiyi "Bakı şəhərində və Abşeron yarımadasında su təchizatı, yağış və tullantı suları sistemlərinin təkmilləşdirilməsinə dair 2026–2035-ci illər üçün Dövlət Proqramı"nın da Bakı təmizlənməsi və ekoloji vəziyyətinin yaxşılaşdırılması baxımından mühüm önəm daşıdığını diqqətə çatdırdı. Ekoloq, eyni zamanda, adıçəkilən sənədin Bakı buxtasının reabilitasiyası üçün institusional və maliyyə çərçivəsi formalaşdırdığını yüksək qiymətləndirdi.

Proqramın iqtisadi əhəmiyyəti barədə danışan Asim Hüseynov bildirdi ki, sənəddə nəzərdə tutulan layihələrin gerçəkləşdirilməsi ilə su təchizatı daha da yaxşılacaq, yağış və tullantı suları sistemləri vahid strategiya çərçivəsində müasirləşdiriləcək. Bununla da paralel layihələrin qarşısı alınacaq və investisiya səmərəliyi yüksələcək. Eyni zamanda, urbanizasiya və ekoloji siyasətin sintezi ilə təmizlənən Bakı buxtası paytaxtın inkişaf strategiyasının tərkib hissəsinə çevriləcək.

Asim Hüseynovun sözlərinə görə, "Bakı şəhərində və Abşeron yarımadasında su təchizatı, yağış və tullantı suları sistemlərinin təkmilləşdirilməsinə dair 2026–2035-ci illər üçün Dövlət Proqramı"nda nəzərdə tutulan layihələrin icrası dövlət-özəl tərəfdaşlığı modeli əsasında gerçəkləşdiriləcək. Bu modelin tətbiqi ilə dövlətin maliyyə yükü azalacaq, özəl sektorun texnoloji imkanları prosesə cəlb ediləcək, layihələrin idarəetmə keyfiyyəti yüksələcək.

***Ekspert rəyi***



**İradə HƏSƏNOVA,**
**Səma və Eko Sosial-İqtisadi İnkişafa Yardım İctimai Birliyinin sədri**

Xəzər dənizi uzun illərdir ki, intensiv neft-qaz hasilatının, şəhər kanalizasiya axıntılarının və nəzarətsiz antropogen fəaliyyətin təsiri ilə üz-üzə qalıb. Xüsusilə Abşeron yarımadası və Bakı buxtası köhnə istismardan çıxarılmış neft quyuları, paslanmış estakadalar dibdə yığılan neftlə çirklənərək çirklənmə mənbəyinə çevrilib. Son illər dəniz suyunun çəkilməsi ilə bu çirklənmənin vizual miqyası hamıya məlum olub, eyni zamanda, metal konstruksiyaların sahilə yaxın ərazilərdə ekoloji və təhlükəsislik riskiləri çoxalıb.

Köhnə neft quyuları və estakadalar isə təkcə keçmiş sənaye fəaliyyyətinin "yadigarı" deyil, eyni zamanda, mikro və makro səviyyədə neft sızıntılarının, ağır metalların suya qarışmasının, dəniz ekosisteminin zədələnməsinin əsas mənbələrindən biridir. Fiziki cəhətdən ömrünü başa vuran bu infrastrukturun ləğv edilməsi çirklənmənin davamlı mənbəyini aradan qaldırır, dənizin özünübərpa potensialını gücləndirir, sahil zonalarının təhlükəsiz və istifadəyə yararlı hala gəlməsinə şərait yaradır. Bu qərar ekoloji baxımdan gecikmiş olsa da, zəruri və müsbət addım kimi dəyərləndirilməlidir.

Nazirlər Kabinetinin Bakı buxtasının ekoloji vəziyyətinin yaxşılaşdırılması məsələlərinə həsr olunmuş iclasında səsləndirilən tapşırıqlara gəldikdə isə deyə bilərəm ki, hökumət tərəfindən aidiyyəti qurumlara sözügedən buxtanın təmizlənməsi və ekoloji vəziyyətinin yaxşılaşdırılması məqsədilə bir neçə istiqamətdə fəaliyyətin təşkil olunması tapşırılıb. **Məsələn, bu sırada:**

*– Bakı buxtasına daxil olan 31 axardan hövzəyə çirkab suların və neftli məhsulların axıdılmasının qarşısının alınması;*

*– Buxtanın tullantılardan təmizlənməsi istiqamətində təxirəsalınmaz tədbirlərin görülməsi;*

*– Ağ Şəhər istiqamətində, Bibiheybət neft mədənləri ərazisində neftlə çirklənmiş torpaqların təmizlənməsi;*

*– dəniz suyunun çəkilməsi ilə əlaqədar sahilə yaxın hissələrdə üzə çıxmış metal konstruksiyaların, estakadaların və batmış su-nəqliyyat vasitələrinin demontaj olunaraq ərazidən kənarlaşdırılması kimi məsələlərin gerçəkləşdirilməsinin diqqət mərkəzində saxlanılması prioritet istiqamətlər hesab edilib.*

Sadalanan bu layihələrin icrasının dövlət səviyyəsində reallaşdırılması məqsədilə qəbul edilən Dövlət Proqramı Xəzərin daha da pisləşməsinin qarşısını alacaq, Bakı buxtasının təmizlənməsi isə paytaxtın daha da gözəlləşməsi ilə bərabər, həm də dərin ekoloji deqradasiyasını aradan qaldıracaq. Bütün bunlarla yanaşı, suyun səthindəki neft ləkələrinin və tullantıların təmizlənməsi, sahilə çıxmış metal konstruksiyaların kənarlaşdırılması sanitariya və ictimai sağlamlıq baxımından müsbət nəticə verəcək, şəhər mühitinin estetik görünüşünü yaxşılaşdıracaq.

Lakin buxtanın real ekoloji bərpası üçün dib çöküntülərinin rekultivasiyası, şəhər və sənaye axıntılarının tam nəzarətə alınması, uzunmüddətli su keyfiyyəti monitorinqi vacib şərtlərdir. Bunlar olmadan Bakı buxtasında ekoloji sabitlik əldə etmək mümkün deyil. Köhnə neft quyularının və estakadaların ləğvi təkcə texniki tədbir deyil, həm də ekoloji məsuliyyətin göstəricisidir. Bu addımların ardıcıl, elmi əsaslı və şəffaf şəkildə icra olunması isə Xəzər dənizi və Bakı buxtası üçün real dəyişikliklərin başlanğıcı ola bilər.

Sonda qeyd edim ki, Nazirlər Kabinetində qəbul olunan qərarlar Xəzər dənizi və Bakı buxtası ilə bağlı illərdir ki, yığılan problemlərə dövlət səviyyəsində diqqətin artmasından xəbər verir. Bu, Xəzərin ekoloji vəziyyətini dərhal ideal hala gətirməsə də, daha da pisləşməsinin qarşısını almaq və mərhələli bərpa prosesinə başlamaq üçün mühüm fürsətdir. Məsələnin taleyi isə icranın keyfiyyətindən, şəffaflığından və davamlı nəzarətdən asılı olacaq.

***Vaqif BAYRAMOV***
***XQ***

# Zəngəzur yolu enerji dəhlizinə də çevrilir

## *400 kV-luq ilk gərginlik xətti layihəsi gerçəkləşir*

**Son illər qlobal energetika gündəmində elektrik enerjisinin sabit ötürülməsi önəmli yer tutur. Bu baxımdan, Azərbaycan regionda strateji mövqeyini gücləndirərək elektrik enerjisi tranzitinin əsas halqasına çevrilir. Xəzər hövzəsinin geniş bərpaolunan enerji potensialı fonunda ölkəmiz böyük həcmdə elektrik ötürən tranzit mərkəzi rolunda çıxış etməyə başlayır.**

Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qalan ərazisi arasında birbaşa bağlantının bərpası xüsusi əhəmiyyət daşıyır. Məhz Zəngəzur dəhlizinin açılması perspektivi fonunda icra edilən enerji infrastrukturu layihələri, o cümlədən Zəngəzur elektrik ötürmə xətti Azərbaycanı regionda və Avropada etibarlı tərəfdaş kimi daha da cəlbedici edir.

Artıq Xəzər dənizi–Qara dəniz–Avropa marşrutu üzrə yeni elektrik interkonnektorlarının yaradılması planlaşdırılır ki, bu da Azərbaycanı Cənubi Qafqazda elektrik enerjisinin ötürülməsi baxımından əsas qovşaqlardan birinə çevirəcək. Xüsusilə, Qarabağ və Şərqi Zəngəzurda və Xəzər ölkələri çərçivəsində planlaşdırılan günəş və külək elektrik stansiyaları sayəsində Azərbaycan gələcəkdə Avropa bazarlarına "yaşıl enerji" ixracını genişləndirməyi hədəfləyir.



Hazırda Naxçıvan MR-in ölkənin vahid enerji sisteminə qoşulması və beləliklə, Azərbaycan–Türkiyə–Avropa beynəlxalq enerji dəhlizinin formalaşdırılması üçün mühüm addımlar atılır. Ən əsas addımlardan biri "Zəngəzur" yüksəkgərginlikli elektrik xətti layihəsidir. Prezident İlham Əliyevin tapşırığına əsasən, "AzərEnerji" ASC tərəfindən Cəbrayıl rayonu ərazisindən Ağbənd qəsəbəsinə qədər 74 kilometr, paralel olaraq Naxçıvan şəhərindən Ordubad istiqamətində dövlət sərhədinədək 105 kilometr uzunluğunda ikidövrəli, 330 kilovoltluq xətt inşa edilir.

Həmin ötürmə xətti 1000 meqavat gücdaşıma qabiliyyətinə malik olacaq ki, bu da ölkədaxili və ölkələrarası elektrik ötürülməsi üçün kifayət qədər yüksək göstəricidir. Yeni xəttin marşrutu boyunca müxtəlif iqlim və relyef şəraiti mövcuddur. Xüsusən Araz çayı boyunca uzanan bəzi hissələrdə xətt dağlıq və qayalı massivləri yararaq keçir ki, bu da tikinti işlərini olduqca çətinləşdirir. "AzərEnerji" bu xətti son dərəcə mürəkkəb relyef və ağır iqlim şəraitində çəkməklə qarşıya qoyulan tapşırığı icra edir.

Layihə mərhələli şəkildə həyata keçirilir. Hazırda hər iki istiqamətdə – həm Cəbrayıl–Ağbənd, həm də Naxçıvan–Ordubad xəttinin inşası gedir. Nəticədə, Azərbaycan ərazisində inşa olunan 74 kilometrlik və Naxçıvan ərazisində çəkilən 105 kilometrlik xətlər vahid bir magistrala çevriləcək. Bundan başqa, Naxçıvan şəhərində yeni 330 kilovoltluq yarımstansiyanın tikilməsi də layihəyə daxildir. Artıq bu məqsədlə 49 hektar torpaq sahəsi ayrılıb və hazırlıq-təşkilati (mobilizasiya) işlərinə start verilib. Sözügedən yarımstansiya Naxçıvanın enerji təminatında mühüm rol oynayacaq, eyni zamanda, gələcək beynəlxalq ötürmənin texniki dayanıqlılığını təmin edəcək.

Zəngəzur enerji xətti layihəsi birbaşa dövlət rəhbərliyinin nəzarətində həyata keçirilir. Qeyd edək ki, ölkə Prezidenti uzun illərdir, Azərbaycanın enerji strategiyasının tərkib hissəsi kimi Naxçıvanın enerji izolyasiyasına son qoyulması və regional interkonnektorların yaradılması ideyasını diqqət mərkəzində saxlayır. Zəngəzur dəhlizi layihəsinin gerçəkləşdirilməsi istiqamətində dövlət başçısı məqsədyönlü və ardıcıl siyasət həyata keçirir.

Bu siyasətin nəticəsi olaraq, 2023-cü ilin sonu və 2024-cü ilin əvvəllərindən etibarən praktiki tikinti işlərinə başlanılıb. "AzərEnerji" hazırda Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında elektrik şəbəkəsinin yenidən qurulması, Cəbrayıl rayonunda yeni 330 kilovoltluq qovşaq yarımstansiyasının tikintisi və digər əlaqəli infrastruktur layihələrini də icra edir. Bütün bu fəaliyyətlər Prezident İlham Əliyevin enerji strategiyasına uyğun olaraq ölkəmizin enerji sistemini modernləşdirməyə və beynəlxalq inteqrasiya səviyyəsini artırmağa yönəlib.

Bundan başqa, Naxçıvanın inteqrasiyası regional enerji şəbəkəsinin optimallaşdırılması baxımından da faydalıdır. Xüsusilə, Naxçıvan bağlantısı qurulduqdan sonra Azərbaycan–Türkiyə üzərindən Avropaya uzanan elektrik xətlərinin səmərəliliyi artacaq və regional enerji təhlükəsizliyi daha da güclənəcək. Yəni təkcə Naxçıvan deyil, bütövlükdə region ölkələri üçün elektrik enerjisinin ötürülmə etibarlılığı yüksələcək. Bu inteqrasiya addımı Azərbaycana imkan verir ki, enerji sistemində tezlik və güc balansını ölkədaxili resurslar hesabına tənzimləsin, qonşu ölkələrdən fövqəladə yardım ehtiyacını minimuma endirsin.

Qeyd edək ki, Azərbaycan tarixində ilk dəfədir ki, 400 kilovoltluq gərginlik sinfində bir infrastruktur yaradılır. İndiyədək ölkənin enerji sistemi, əsasən, 110, 220 və 330 kilovoltluq xətlər üzərində qurulmuşdu. Yeni 400 kilovoltluq xətt Naxçıvanı Türkiyə Respublikasının enerji sistemi ilə birləşdirəcək. Burada inşa ediləcək konvertor (çevirici) stansiyası isə iki müxtəlif enerji sistemi arasında fasiləsiz enerji mübadiləsini təmin edəcək.

Türkiyə hazırda Avropa enerji sisteminin (ENTSO-E) tərkib hissəsidir və sinxron rejimdə fəaliyyət göstərir. Azərbaycanın enerji sistemi isə hələlik Avropa şəbəkəsinə birbaşa qoşulu deyil. Bu səbəbdən 400 kilovoltluq xətt üzərində qurulacaq çevirici yarımstansiya bir növ "enerji körpüsü" rolunu oynayacaq – yəni Azərbaycanın şəbəkəsi ilə Türkiyə–Avropa şəbəkəsi arasında enerji mübadiləsi mümkün olacaq. Bu stansiya vasitəsilə gərginlik və tezlik parametrləri uyğunlaşdırılaraq qarşılıqlı enerji axını tənzimlənəcək.

Naxçıvan–Türkiyə 400 kilovoltluq xəttinin çəkilməsi, həm də ölkəmizin elektrik enerjisi ixrac imkanlarını birbaşa genişləndirəcək. Əgər indiyədək Azərbaycan elektrik enerjisini yalnız Gürcüstan, Türkiyə və Rusiya, İran kimi qonşu ölkələrə ötürürdüsə, yeni xətt vasitəsilə ilk dəfə Avropa bazarına birbaşa çıxış əldə ediləcək. Bu xətt üzrə ötürüləcək enerji həcmlərinin optimallaşdırılması məqsədilə Naxçıvan ərazisində geniş yarımstansiya və infrastruktur tikintisi aparılır.

Gözlənilir ki, 400 kilovoltluq xəttin reallaşması ilə Naxçıvan enerji sistemi təkcə ölkədaxili rol oynamayacaq, həm də tranzit funksiyasını icra edəcək. Yəni Mərkəzi Asiya və Xəzər hövzəsi ölkələrinin gələcəkdə bu dəhlizə qoşulması ilə onların elektrik enerjisi də məhz Azərbaycan üzərindən Türkiyəyə və Avropaya nəql oluna bilər. Bu ehtimal xüsusilə Türkmənistan, Qazaxıstan kimi böyük enerji istehsalçılarının artan "yaşıl enerji" layihələri fonunda maraq doğurur. Mərkəzi Asiya ölkələrinin zəngin enerji resursları mövcuddur və Zəngəzur dəhlizi onların Avropaya çıxışı üçün daha qısa və səmərəli marşrut təqdim edə bilər.

Beləliklə, Naxçıvandan keçməklə yaradılan 400 kilovoltluq xətt təkcə Azərbaycan üçün deyil, bütövlükdə region üçün strateji önəm daşıyan bir enerji körpüsünə çevriləcək.

***Nurlan ABDALOV***
***XQ***

I Türkoloji Qurultay

# Türk xalqlarının XX əsr elmi-mədəni manifesti

## *Müsahibimiz görkəmli ədib və ictimai-siyasi xadim Hidayət Orucovdur*

*(əvvəli qəzetimizin ötən sayında)*

**Osmanlı dövlətinin Cümhuriyyət dövründə Türkiyə, onun xalqının isə türk adı alması dilin bütün kateqoriyalarında fərqli duruma gəlmiş iki xalqın eyni ad daşımasını qeyri-mümkün etmişdi. Buna görə də müstəqillik illərində Azərbaycan dilinin yenidən türk dili adlandırılması cəhdi ağlabatan olmadı və cəmiyyətdə dəstəklənmədi. Bir də ki Azərbaycan coğrafiyasında Azərbaycan dili adı almaq bu dilin türk dilləri ailəsində olduğunu inkar etmir.**

***– Bu məsələlərdə sovet diktatoru İosif Stalinin xalqımıza və türklüyə düşmən münasibəti barədə hələ də çox deyilir, yazılır...***

– Stalin kimi böyük tarixi şəxsiyyətlərin səhvi də böyük olub. Bəli, bu insan dünyanın gələcəyini kommunistləşmədə görürdü və bunun uğrunda hər şeydən keçirdi. Amma o, bəşəri tərəqqini də qəbul edirdi. Heç kəs repressiya damğasını Stalinin alnından silə bilməz. Lakin biz onun kommunist libası geymiş erməni daşnaklarına düşmən olduğunu, xalqımızı onların müəyyən hiylə və xəyanətlərindən xilas etdiyini də dana bilmərik.

Söhbət Qarabağın dağlıq hissəsinin Azərbaycanda saxlanmasından, sonrakı dövrdə də ermənilərin bu barədə qaldırdıqları məsələlərə qol qoymamasından və müharibə zamanı xalqımızın Krım türkləri və çeçenlər kimi sürgün edilməməsindən gedir. Lakin sovet diktatoru 1948–1953-cü illərdə soydaşlarımızın Qərbi Azərbaycandan zorakılıqla köçürülməsinə razı olmaqla xalqımıza qarşı bağışlanılmaz cinayət etmişdi.

Stalin Bakıda inqilabi fəaliyyət göstərmişdi, xalqımızı yaxşı tanıyırdı. O, soydaşlarımızın gizli "Koba" adı daşıdığı vaxtda onun həyatını xilas etməsini heç vaxt unutmamışdı. Stalin Moskvada Azərbaycan mədəniyyəti günlərində ziyalılarımızın ana dilimizi təmiz bilməsinin zəruriliyini xüsusi qeyd etmişdi. Bu barədə tarixi şahidlik də var. Mən Stalini ideallaşdırmağın deyil, tarixi gerçəyin tərəfdarıyam.

***– Türkoloji Qurultayın ideyaları ötən bir əsrdə necə yaşadılıb, nə səviyyədə gerçəkləşdirilib?***

– Bu, ayrıca və geniş söhbətin mövzusudur. Bir həqiqət var: ox yaydan çıxdısa, hədəfə dəyməsə də, geri də qayıtmaz. Türkoloji Qurultayda türk xalqlarının tarixi kimliyi meydana gətirildi, ortaq hədəflər elan edildi. Nə repressiya, nə ideoloji yasaqlar bu oyanışın qarşısını ala bilmədi. Türk xalqlarının mədəni intibahı müxtəlif yollarla davam etdi. Azərbaycan xalqı da ötən bir əsrdə tarixini araşdırıb, ana dilini qoruyub zənginləşdirib, mədəni yüksəliş yolu keçib.

Bütün bunların nəticəsidir ki, "sovet xalqı" adlı hibrid rusdilli toplum yaratmaq siyasəti baş tutmadı. Keçmiş SSRİ süqut edəndən sonra bu ittifaqın türk xalqları müstəqil dövlətlər kimi ayağa qalxa bildilər. Rusiya Federasiyasındakı xalqlar da geniş muxtariyyət qazandılar. Türkiyə və Azərbaycan mərkəzdə olmaqla türk dövlətlərinin hərtərəfli birliyi sürətlə gerçəkləşir. Şübhəsiz, bütün bunlar Bakı Türkoloji Qurultayının ideyalarının yaşadılması, zamanı gələndə dirçəldilməsi, dostluq və qardaşlıq təntənəsinə çevrilməsi oldu.

***– Hidayət müəllim, siz stalinizmin aradan qaldırılması, tarixdə deyildiyi kimi, "yumşaldılma" dövrünün şahidisiniz. O dövrdə ölkəmizdə, açıq şəkildə olmasa da, Türkoloji Qurultayın qərar və ideyaları dil məsələlərinin öyrənilməsi və sovet türkologiyası çərçivəsində dirçəldilmişdi. Ümummilli lider Heydər Əliyevin Azərbaycanda hakimiyyətə gəlməsi isə yenidən Bakını SSRİ daxilində türkoloji mərkəzə çevirirdi.***

– Haqlısınız. Mən ötən əsrin 60-cı illərində BDU-nun filologiya fakültəsində oxuyanda artıq bu ali məktəbdə türkologiya kafedrası yaradılmışdı, bu fənn tədris edilirdi. Ulu öndərin himayədarlığı ilə "Sovet türkologiyası" jurnalının redaksiyası Bakıda təşkil edildi. Azərbaycan rəhbəri Heydər Əliyevin 4 cildlik "Müasir Azərbaycan dili" dərsliyini respublika dövlət mükafatına layiq görməsi dilçilik və türkologiya sahəsində araşdırmalara geniş meydan açdı.

1978-ci ildə Azərbaycan SSR-in yeni konstitusiyasında Azərbaycan dilinin dövlət dili elan edilməsi isə keçmiş İttifaqda milli təəssübkeşliyin ən ciddi faktı kimi tarixə yazıldı. Bütün bunlar Türkoloji Qurultayın ruhunun dirçəldilməsi ideyalarına meydan açılması idi. Lakin dünyanın yeganə türk dövləti olan Türkiyə düşmən cəbhə sayılır, mədəni əlaqələr qısqanclıqla məhdudlaşdırılırdı.

***– Bəs necə olmuşdu ki, siz belə bir şəraitdə Türkiyədə keçirilən irimiqyaslı Uşaq Ədəbiyyatı bayramında və sərgisində iştirak etmişdiniz?***

– Bunun qəribə və maraqlı bir tarixçəsi var. Bu barədə mən tarixi önəmi olduğuna görə ötən illərdə mətbuatda da yazmışam. 1986-cı ilin mart ayı idi. Ümummilli lider Heydər Əliyev hələ Kreml rəhbərliyində idi. Mixail Qorbaçov isə yenidənqurma – yəni sovet dövlətinin siyasətinin yenidən yumşaldılması prosesinə yenicə start vermişdi. Mən 2 il idi ki, İrəvandan Bakıya köçüb Azərbaycanda uşaq və gənclər üçün ədəbiyyat buraxan "Gənclik" nəşriyyatının baş redaktoru işləyirdim.

Bir gün Azərbaycan SSR Dövlət Mətbuat Komitəsinin sədri Nazim İbrahimov mənə bildirdi ki, Ankaraya getməyə hazırlaşın. Türkiyədə böyük təntənə ilə qeyd edilən, xaricdən də çoxlu qonağın iştirak etdiyi 24 Aprel – Uşaq Ədəbiyyatı bayramında tərkibində olduğumuz Sovet İttifaqını təmsil edəcəksiniz.

Tamamilə gözlənilməz, həm də çox şad xəbər idi. O vaxtlar mövcud keçmiş SSRİ-nin "qadağalar rejimi"nin iki qardaş millətə çox "həssas münasibəti sayəsində" Azərbaycan ziyalıları Türkiyəyə rəsmi tədbirlərə, demək olar, ya dəvət almırdılar, ya da göndərilən dəvətlər Moskvada gizlədilirdi. Qardaş Türkiyə, demək olar ki, kütləvi surətdə azərbaycanlıların üzünə bağlı idi. Səfər üçün lazım olan sənədləri (anket, iş yerindən xasiyyətnamə, tərcümeyi-hal və s.) hazırlayıb təqdim etdim və bundan heyrətləndirici bir məlumat məni çox düşündürdü: daha dərindən "rentgendən" (o vaxtlar KQB yoxlamalarını el içində belə adlandırırdılar) keçirilmək, daha dəqiq rəy almaq üçün sənədlərimi uzun illər çalışdığım və 2 il əvvəl köçüb Bakıya gəldiyim İrəvana göndərdilər.




Məni anadan olduğum gündən başlamış 38 il İrəvanda o ki var yoxlamışdılar. SSRİ-nin, Azərbaycanın, Ermənistanın yüksək mükafatlarını almışdım. Neçə dəfə xaricdə olmuşdum, hər dəfə də təkrar-təkrar yoxlanmışdım. Soruşdum ki, bəs indi nəyimi və nə üçün İrəvanda yoxlayırdılar? Dedilər ki, qayda belədir. Dedim ki, artıq 2 ildir mən Bakıda yaşayıram, məsul vəzifədə işləyirəm. Bu müddət bəs etmirmi ki, sadə tərcümeyi-halı olan yaradıcı bir insanı elə Bakıda, öz respublikasında "rentgendən" keçirsinlər?".

Cavab yenə qısa və kəskin oldu: "Yox, kifayət deyil, qayda belədir". Bu dəfə bildirdim ki, "İrəvandan neçə dəfə xarici ölkəyə getmişəm. Bakıya köçəndən 2 ay öncə isə Ermənistan Mədəniyyət Nazirliyinin xüsusi turist qrupunun rəhbəri kimi Çexoslovakiyada olmuşam. Belə qrup rəhbərini Mərkəzi Komitənin katibliyi təsdiq edir. Axı məni İrəvanda nə qədər lazımdır, yoxlayıblar. Son cavab belə oldu ki, yenidən yoxlanılmalısınız, İrəvandan 1 aya gələsi rəsmi cavabı gözləməlisiniz.

Bu mənasız və bezdirici yoxlama məsələsi səfərə həvəsimi tamam soyutdu. Kim bilir, İrəvanın cavabı nə olacaqdı? 2-3 həftə sonra isə bu səfəri tamam unutdum. Amma görünür, məsələ çox ciddi imiş. Türkiyədə bayrama 3-4 gün qalmış Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsi xarici əlaqələr şöbəsinin məsul işçisi Surxay Həsənov mənə zəng edərək bildirdi: – Büro (Mərkəzi Komitənin Bürosunu nəzərdə tuturdu – H.) bu gün Sizin Ankaraya getməyinizə razılıq verdi. Sabah Moskvaya uçmalısınız. Bilet alın, əgər çətindirsə, Mərkəzi Komitənin bronundan ayıra bilərik.

Məlum oldu ki, 3 gündən sonra Moskvadan Ankaraya uçmalıyam. Sonra SSRİ Dövlət Nəşriyyat, Poliqrafiya və Kitab Ticarəti Komitəsindən Tatyana adlı qadın zəng çalıb dedi ki, "Zvyozdnaya" mehmanxanasında qalacaqsınız. Zarafatla bildirdi ki, bu yeri elə-belə seçməmişik, yazıçı gərək ulduzlara yaxın olsun. Əmin olmaq üçün Tatyanadan da soruşdum ki, bəs Ankaraya uçuş nə vaxtdır? O da təsdiqlədi ki, 3 gün sonra. Səfərin baş tutacağına inanmadığım üçün hazırlıq görməmişdim. Yaxşı oldu ki, Moskvada buna vaxt olacaqdı.

Ertəsi gün "Zvyozdnaya"ya çatan kimi birinci mərtəbədə, qeydiyyat bölməsində mənə dedilər: "Dövlətnəşrkomdan zəng çalmışdılar, xahiş etdilər ki, gələn kimi onlara telefon edəsiniz". Nömrəyə qalxıb həmin Tatyanaya zəng çalanda o dedi ki, tez komitəyə gəlin, Ankaraya uçuş sabahdır. Tez taksi çağırıb Dövlətnəşrkoma getdim.

Dövlət Komitəsindəki söhbətlər, sorğular xeyli vaxt apardı. Bütün kabinetlərdən keçəndən sonra günün axırında məni komitə sədri Boris Nikolayeviç Pastuxovun yanına apardılar. O, ixtisasca mühəndis-texnik olsa da, müxtəlif siyasi-ideoloji sahələrdə məsul vəzifələrdə "bişmiş" partiya-hökumət funksioneri idi. Sədr təyin edilənədək SSRİ-nin gənclər təşkilatına rəhbərlik etmişdi. Belə yüksək postlar tutduğu üçün SSRİ Ali Sovetinin deputatı, Sov.İKP Mərkəzi Komitənin üzvü idi. 6 il idi bizim Komitənin sədri təyin edilmişdi və bu özünəməxsus sahənin problemləri ilə az-çox tanış ola bilmişdi.

Söhbətimiz gözlədiyimdən xeyli çox – 35 dəqiqə çəkdi. Əvvəlcə Bakı haqqında, kitab mədəniyyətimiz barədə maraqlandı, "Gənclik" nəşriyyatının fəaliyyəti ilə bağlı suallar verdi. Son vaxtlarda Azərbaycanda kitab işindən razı olduğunu dedi və uşaqlar, yeniyetmələr üçün ədəbiyyat çapında müsbət dəyişiklikləri də unutmadı, hətta məni bir az təriflədi də.

Hərdən stolun üstündəki kağıza baxırdı. Görünür, barəmdə ona arayış təqdim etmişdilər. Sonra gəldi mətləb üstə: amiranə, eyni zamanda, çox ehtiyatla danışırdı. Sözünün canı bu idi: səfər boyunca diqqətli olum, oradakı ab-havanı, bizə münasibəti dərindən öyrənim. Guya, elə-belə, təbəssümlə, sözgəlişi dedi ki, əgər arzu etsəniz, səfərdən qayıdanda da görüşə bilərik.

SSRİ boyda imperiyanın naziri ilə görüşməyi kim arzulamazdı ki?! Amma nə üçün özü dəvət edir? İlk dəfə idi ki, SSRİ nazirinin qəbulunda olurdum. Kabinetə daxil olanacan həyəcanlı idim. Suallar çox oldu, çalışdım ki, özümü soyuqqanlı aparım və səmimi cavab verim. Komitə sədrinin çöhrəsində narazılıq əlaməti yox idi. Böyük kabinetinin qapısınacan gəlib (qarşılayanda isə otağının yarısınacan gəlmişdi) məni yola saldı. Sonra məni xüsusi şöbəyə aparıb xüsusi də inzibatçılıqla 2 səhifəlik xəbərdarlıq və xaricdə davranış mətni ilə tanış etdilər. Verilən xarici pasportu isə qayıdan kimi təhvil verməli idim. Sovet rejimi vətəndaşının xarici pasportunu, xüsusən də xidməti pasportunu qoymurdu ki, özündə qalsın.

Hazırlıq işlərini başa çatdırıb "Zvyozdnaya"ya qayıtdım. Uçuş sübh tezdən idi. "Şeremetyovo" hava limanında nəhəng SSRİ uçağına ("TU-154") əyləşəndə heyrət məni götürdü: o boyda salonda cəmi 4-5 nəfər sərnişin var idi. Marşrut isə "Moskva–Ankara–İstanbul" idi. O nəhəng hava gəmisi Ankarada yerə enəndə təyyarədən yalnız mən düşdüm, yerdə qalan 3-4 sərnişin İstanbula uçurdu. Və trapın pillələriylə enəenə qəribə bir fikir keçdi başımdan: "Allah, sənə min şükür, bir dəfə də məndən ötrü bu boyda uçaq yerə endi". Sonralar xidməti işlərlə bağlı xüsusi reyslərlə çox uçmuşam müxtəlif ölkələrə, şəhərlərə, bəlkə elələri var – unutmuşam, ancaq 40 il bundan öncə baş tutan o qəribə, maraqlı uçuş, bütövlüklə, yaddaşıma həkk olunub və ömrüm boyu unudulan deyil.

***– Bu düz 60 il əvvəl Türk dünyasına "atalıq qayğısı" göstərmiş sovet dövlətinin türk dövlətçiliyini yaşadan yeganə ölkəyə münasibətinin, onunla əlaqələrinin rəmzi göstəricisi deyildimi? Nəhəng bir dövlətdən digər bir böyük ölkəyə 3-4 gündə bir dəfə uçan təyyarədə 4-5 xüsusi məqsədli sərnişinin getməsi nə demək idi?***

– Elə mən də bu səfərdən belə geniş söhbət açıram ki, I Türkoloji Qurultaydan keçən 60 il müddətində SSRİ-də türklüyə, Türkiyəyə olan münasibət aydın görünsün. O dövrdə sovet imperiyasında yaşayan xalqları Türkiyədən pambığı oddan qoruyan kimi aralıda saxlayırdılar.

***– Bəs necə olmuşdu ki, Türkiyəni dünyada təbliğ edən bir bayrama SSRİ-dən dəvət edilən yeganə şəxsi Azərbaycandan seçmişdilər?***

– Az sonra mənə məlum oldu ki, o zaman Moskvada sovet dövlətinin ali rəhbərlərindən biri sayılan ümummilli lider Heydər Əliyevin tabeliyində çalışan Pastuxov onun xatirinə, həm də onun rəğbətini qazanmaq üçün həmin 1 nəfəri Azərbaycandan çeçib. Onun gedəndə də, geri qayıdanda da məni xüsusi hörmətlə qəbul etməyi türk ədəbiyyatı nəşri ilə xüsusi maraqlanması da, sən demə, Heydər Əliyevin türk olması, sovet dövlətinin baş naşirinin Ulu öndərə xüsusi münasibətindən qaynaqlanırmış.

Həm də 1 il idi ki, Mixail Qorbaçov yenidənqurması başlamışdı, müəyyən yumşalmalar hiss olunurdu. Pastuxov da yeni atmosferdə bir azərbaycanlı naşirin qohum xalq olan Türkiyəyə getməsini o qədər də təhlükəli hesab etməmişdi. O, məsuliyyəti öz üzərinə götürərək məni şəxsən qəbul etmişdi və geri qayıdanda da səfərin nəticəsini öyrənməyi nəzərdə tutmuşdu. O ki qaldı mənə, Türkiyədəki Uşaq bayramında iştirak etməyə mənim tutduğum vəzifə və fəaliyyətim imkan verirdi. Mən ölkəmizdə uşaq ədəbiyyatı buraxan nəşriyyatın baş redaktoru idim, şair-dramaturq, yaradıcı ziyalı olaraq da mənim seçilməyim təəccüblü deyildi. O zaman mən Dövlətnəşrkomda təşəbbüskar baş redaktor kimi də tanınırdım.

***– Türkiyəyə səfər, Uşaq bayramı və kitab sərgisi təntənəsi necə keçdi?***

– Ankara hava limanında məni SSRİ-nin Türkiyə Respublikasındakı səfirliyinin müşavir-elçisi Vladimir Solouxin qarşıladı. Diplomatiya protokolunda müşavir – Elçinin nəşriyyatın baş redaktorunu qarşılaması çox yüksək şərəf idi. Onun idarə etdiyi "Fort" avtomobilinə əyləşib şəhərə tərəf gəldikcə ətrafda nə varsa – heyranlıqla baxmaqdan doymurdum. Hər şey mənə cazibədar, yeni və əziz idi.

Mənim üçün sərgiyə yaxın və rahat "Evquran" adlı mehmanxana seçilmişdi. Beynəlxalq Uşaq Ədəbiyyatı sərgisi 1924-cü ildən böyük Mustafa Kamal Atatürkün təşəbbüsü ilə əsası qoyulan, ölkədə geniş miqyasda dövlət səviyyəsində hər ilin 24 aprelində qeyd edilən Cocuq bayramının tərkib hissəsi idi. SSRİ ilk dəfə idi bu tədbirə dəvət almışdı.

Yeniyetməlik çağlarımdan arzuladığım səfər ilk dəfə yüksək səviyyədə baş tutmuşdu. Bu o dövr üçün yuxuya bənzər bir möcüzə idi. Birdən-birə illər boyu dəmir hasarlar arxasında qalan, düşmən sayılan bir ölkəyə düşərək doğmalıq, sevgi görmək, türklüyün nə olduğuna bütün genişliyi ilə, öz gözlərinlə şahid olmaq dünyaya yenidən gəlmək kimi qeyri-adi bir hal idi.

Atatürk meydanında keçirilən genişmiqyaslı beynəlxalq sərgi yüksək səviyyədə təşkil edilmişdi. Sərgidə dünyanın əksər inkişaf etmiş ölkələrinin nümayəndələri iştirak edirdilər. Mən Türkiyə, ABŞ, İngiltərə, Fransa, Almaniya Federativ Respublikası və digər güclü kapitalist ölkələrinin sərgi guşələrini diqqətlə izləyir, onların ədəbiyyatına, kitab nəşri mədəniyyətinə hədsiz maraq göstərirdim.

Türk qardaşlarımızın və qonaqların marağı isə daha çox sərginin SSRİ bölməsinə yönəlmişdi. Bölmənin önü həmişə dolu olurdu, Ankara universitetlərində rus dilini öyrənən tələbələrin əlindən tərpənmək olmurdu. Onlar məndən kitab istəyirdilər, mən isə deyirdim ki, sərgi bağlananda verəcəyəm. Onlar da bunu səbirsizliklə gözləyirdilər.

SSRİ-nin Türkiyədəki səfiri Vladimir Lavrov sərginin açılışına gələndə uşaqlar səfiri rus dilində inciklikə suala tutdular ki, niyə onlarla görüşüb söhbət etmir? Səfir isə dedi ki, indi onun buna ixtiyarı yoxdur, gərək iki ölkə arasında müvafiq razılaşma ola. Tələbələr Yevgeni Yevtuşenkonun onlarla 2 saatlıq görüş keçirdiyini deyəndə səfir bildirdi ki, o, şairdir, müstəqil insandır, səfir isə dövləti təmsil edir və xaricdə onun qayda-qanunlarına əməl etməlidir.

***– Bu fakt o zaman SSRİ – Türkiyə münasibətlərinin hələ də sərt olduğunu göstərmirdimi?***

– Əlbəttə, Türkiyənin kapitalist ölkəsi, NATO-ya üzv olması, SSRİ-nin təsirini qəbul etməməsi onu arzuedilməz dövlət etmişdi. Mədəni təmaslar isə tamamilə zərərli sayılırdı. Sərgidən gedəndə də səfir özümü yaxşı aparmağım üçün bildirdi ki, biz görüşəcəyik – yəni ehtiyatlı ol. SSRİ-nin bölməsi Moskvada hazırlanaraq Ankaraya göndərilmiş və mən gələnədək qurulmuşdu.

İlk baxışdan sərgidə o vaxtlar "sovet xalqları ədəbiyyatı"ndan, SSRİ-nin türk xanədanlıqlarından və eləcə də Azərbaycandan bəhs edən bircə nüsxə də olsun kitab olmadığını yəqin etdim. Mən "Gənclik" və digər nəşriyyatlarımızın bəzi suvenir, nəfis nəşrlərini özümlə götürmüşdüm, onları razılaşdırıb sərgiyə əlavə etdim. Bu kitabları türk qardaş-bacılarımız böyük maraqla qarşıladılar.



İradlar, gözlənilməz ittihamlar da oldu və təbii ki, nəzarət altında olduğumdan bunlar məni narahat edirdi. Ucaboylu, ziyalı görkəmli, orta yaşlarında bir kişi Azərbaycan dilində olan kitabları nəzərdən keçirəndən sonra çox əsəbiliklə soruşdu:

– Əlifbanı niyə dəyişdilər?

Cavabında aramızda belə bir dialoq yarandı:

– Birinci dəfə deyildi ki, dəyişirdik. Öz əlifbamızı itirəndə belə olur.

– Dəyişdilər ki, bizi birdəfəlik ayırsınlar?

– Xeyr, yalnız bizim əlifbamız dəyişmədi, Sovetlər Birliyindəki bütün xalqlar... ikicə xalqdan başqa.

Kişi sərt sualını yenə təkrarlayanda sakitcə dedim:

– Bizi əlifbalarla ayırmaq olmaz. Ortaq dilimiz, mədəniyyətimiz, tariximiz, mənəviyyatımız, psixologiyamız var...

Mənim hissə qapılıb həmin kişiyə doğmalıq göstərməyim türkcə başa düşən səfirlik əməkdaşlarının nəzərindən qaçmadı. Kişinin isə narazılığı tam keçmədi və küskün halda, xudahafizləşmədən uzaqlaşdı. Daxilimdə isə düşündüm ki, tarixi ədalətsizliyə –əlifba ayrılığına son qoymağın zamana ehtiyacı var.

Səfər çox maraqlı keçsə də, mən bayramın çevrəsindən kənara çıxa bilmədim. Türkiyəni görmək, gəzmək arzum sonrakı dövrə qaldı. Həsrət və nisgilimi isə "Türkiyə, mən sənin nəyini gördüm" adlı təsirli bir şeirlə söndürməyə çalışdım.

İllər keçdi. Türkiyənin Prezidenti Süleyman Dəmirəl Çankayada müstəqil Azərbaycanın Prezidenti Heydər Əliyevin şərəfinə verdiyi ziyafətdə Kamran bəy adlı həmin türk ziyalısı ilə bir təsadüf nəticəsində görüşdük, tarixin üzümüzə açdığı böyük qapını şükranlıqa yad etdik. O ki qaldı mənim Türkiyəyə ilk səfərimə, Moskvaya qayıdandan sonra Pastuxov məni yenidən qəbul etdi, hesabatvari məlumatını diqqətlə dinlədi. Gətirdiyim kitabları maraqla qarşıladı. Az sonra məni Moskvaya komitənin kollegiya iclasına çağırdılar. Məsələlərdən biri də SSRİ-də türk ədəbiyyatının nəşri oldu. Bu barədə mənim təkliflərim də dinlənildi.

Bakıya qayıdandan sonra türk ədəbi örnəklərindən ibarət "Gözəllik suyu" adlı ilk türk antologiyası" buraxdıq. Türk qardaşlar sonralar mənə dedilər ki, bu onlara məlum olan ilk belə nəşr olub. Türkiyədə də antologiyalar nəşr etməyə başlayıblar. Moskvada ittifaq komitəsinin qərarından sonra SSRİ-də və xüsusən Azərbaycanda türk ədəbiyyatı barədə kitab nəşrinə meydan açıldı.

***– Sovet rejiminin süqutundan sonra Türkiyəyə geniş qapılar açılanda siz müstəqil Azərbaycanın milli məsələlər üzrə dövlət müşaviri kimi qardaş ölkədə çox səfərlərdə oldunuz, həsrətinizə son qoydunuz və bu dəfə yazdınız: "Türkiyə, mən sənin nəyini sevdim?".***

– Ulu öndər Heydər Əliyevin özü ilə və xüsusi tapşırıqları ilə Türkiyədə çox səfərlərdə oldum, qardaş ölkəni və onun xalqını ürəkdən sevdim, dostluğumuzun möhkəmlənməsinə mən də öz töhfələrimi verdim. 1994-cü ildən başlayaraq Türkiyədə keçirilən "Türk dövlət və topluluqlarının dostluq, qardaşlıq və işbirliyi qurultayları"nda 5 dəfə ölkəmiz adından çıxış etmək şərəfi mənə nəsib olub.

Zaman xalqlarımızı Türkoloji Qurultayın ideyalarının təntənəsi yolu ilə böyük gələcəyə aparır. Azərbaycan Prezidenti İlham Əliyev bir çox təşəbbüsləri ilə Türk Dövlətləri Təşkilatının səmərəli fəaliyyətinə önəmli dəstək verir. Azərbaycan formalaşmaqda olan ümumtürk birliyinin mərkəzi ölkəsi rolunu uğurla gerçəkləşdirir. Prezident İlham Əliyevin I Türkoloji Qurultayının 100 illik yubileyi barədə sərəncamı isə 1 əsrlik ümumtürk elmi-mədəni manifestinin çağdaş ruhunu təcəssüm etdirir.

***– Maraqlı müsahibəyə görə təşəkkür edirik.***

***Müsahibəni hazırladı:***
***Tahir AYDINOĞLU***
***XQ***

# Sərt qış Leriki sınağa çəkib

## Ötən ilin barı-bərəkəti isə insanları çətinliklərdən qoruyur

**Builki qış dağlar diyarına sərt üzünü göstərib. Bir neçə gün fasiləsiz yağan qarın hündürlüyü bəzi yerlərdə 1-1,5 metrdən çox olub. Havalar açılsa da, qarın və çovğunun yaratdığı çətinliklər qalmaqdadır. Uca dağlar, sıldırımlı qayalarla əhatə olunmuş Lerik qış qayğıları ilə yaşayır.**



Müasir üslubda tikilmiş yaraşıqlı, üçmərtəbəli binada yerləşən Lerik Dövlət Aqrar İnkişaf Mərkəzində (DAİM) hamı iş başındadır. Burada işgüzar, xoş ovqat hiss olunur. **Mərkəzin direktoru, təcrübəli təsərrüfatçı Cahani Nüsrətzadə** Lerikin mürəkkəb relyefə, zəngin təbii ehtiyatlara malik olduğunu vurğulayaraq dedi:

–Rayonun 162 yaşayış məntəqəsi var. Hər bir ərazinin özünəməxsus iqlimi, təbii imkanları mövcuddur. Əbəs yerə bu yerləri möcüzələr diyarı adlandırmırlar. Həqiqətən, qəribə təbiəti var Lerikin. Hər kilometrdən bir havası dəyişir. Qərbində havadan qar qoxusu gələndə şərqində hələ də meyvə dərilir. Şimalında aramsız yağışlar yağanda, cənubunda torpaq sudan korluq çəkir. Bir tərəfində şaxta iliyə işləyəndə, o biri tərəfində kölgəliyə tələsirsən. Aranında biçin qurtaranda yaylağında hələ ot göyərir.

Lerikin belə bir möcüzəli təbiəti var. Rayonda kənd təsərrüfatına yararlı torpaqlar 57 min 787 hektar təşkil edir. Bitkilər əsasən dəmyə şəraitində becərilir. Əhali əkinçilik, heyvandarlıq və qismən meyvəçiliklə məşğul olur. Davamlı dövlət qayğısı sayəsində kənd təsərrüfatı məhsullarının istehsalı xeyli artıb, yeni uğurlar əldə olunub. Kənd əməkçiləri ötən ili sevindirici nailiyyətlərlə yola salıblar.

***–Lerik tarixən çörəkli rayon kimi tanınıb. Sakinlər buğda, arpa, paxlalı-dənli bitkilərin əkilib-becərilməsinə üstünlük veriblər. Ağsaqqallardan eşitmişik ki, İkinci Dünya müharibəsi dövründə və sonrakı aclıq, qıtlıq illərində Lerik cəbhəyə, hətta qonşu rayonlara da taxılla yardım edib. Hazırda taxılçılıqda vəziyyət necədir?***

–Ölkəmizdə əhalinin etibarlı ərzaq təminatı dövlətimizin iqtisadi siyasətinin başlıca istiqamətlərindən biridir. Bundan ruhlanan kənd əməkçiləri ölkəmizin ərzaq təhlükəsizliyinə layiqli töhfələr verirlər.

Lerik artıq respublikamızda taxılçılığın intensiv inkişaf etdirildiyi rayonlar sırasındadır. Rəqəmlərə nəzər salaq. 2025-ci ildə taxılçılar 9 min 152 ton buğda, 345 ton arpa, 132 ton çovdar istehsal ediblər. Hektardan 26 sentner buğda, 25 sentner arpa, 22 sentner çovdar götürülüb. Murya, Vistən, Züvüç, Boykəndi və digər ərazilərdə qabaqcıl fermerlər hektarın məhsuldarlığını 45-50 sentnerə çatdırıblar.

Biçindən sonra sahələrdə yay şumu aparılıb, aqrotexniki qulluq işləri həyata keçirilib. Payızlıq taxıl üçün şum və əkin işləri "Aqroservis" ASC-nin Lənkəran-Astara-Lerik bölməsinə və fiziki şəxslərə məxsus texnikalar vasitəsilə həyata keçirilib. Taxıl sahələrində xəstəlik və ziyanvericilərə, alaq otlarına qarşı kimyəvi, mexaniki və aqrotexniki tədbirlərin aparılması, yemləmə gübrələrindən istifadə olunması haqqında məhsul istehsalçılarına məsləhətlər verilib.

***–Rayonda ənənəvi sahələrdən biri də heyvandarlıqdır. Son illər sahənin intensiv inkişaf etdirilməsi ilə bağlı nə kimi tədbirlər görülür?***

–Lerikdə ailə, kəndli-fermer və şəxsi təsərrüfatlarda 34 min 643 baş iribuynuzlu, 68 min 48 baş xırdabuynuzlu davar, 176 min 538 ev quşu, 19 min 350 arı ailəsi bəslənilir. Heyvanların cins tərkibini dəyişməkdən ötrü rayona lizinq yolu ilə cins heyvanlar gətirilib. Süni mayalanma ilə də heyvanların cins tərkibinin yaxşılaşdırılması istiqamətində işlər görülür. Fermerlərə süni mayalanma yolu ilə alınmış buzovlara görə subsidiya ödənilir. Cins tərkibini dəyişməklə heyvanları stasionar bəsləmə şəraitinə keçirmək və intensiv yolla heyvandarlığın inkişaf etdirilməsinin üstünlükləri barədə fermerlərlə maarifləndirici söhbətlər aparılır.





Qoyunçuluq rayon iqtisadiyyatında mühüm yer tutur. Əvvəllər rayonda 113 min baş qoyun-quzu bəslənilib. Fermerlər qış dövründə davarı Biləsuvar və Neftçala rayonlarında yerləşən, ümumi ərazisi 25 min hektar olan yataqlara aparırdılar. 2006-cı ildə Nazirlər Kabinetinin müvafiq qərarı ilə rayona təhkim olunmuş qış otlaqları alınaraq Biləsuvar, Neftçala və Cəlilabad rayonlarına verilib.

İndi fermerlər 8 min hektara yaxın qış yataqlarından istifadə edirlər. Qışlama üçün lazımi yer olmadığından fermerlər qoyun-quzularını satmaq məcburiyyətində qalırlar. Bu səbəbdən davarların sayı ilbəil azalır. Qışlaq problemi həll olunsa, qoyunçuluqla məşğul olan fermerlər əhalinin ət, yun məhsulları ilə təminatını daha da yaxşılaşdıracaqlar.

Lerikdə arıçılığın inkişaf etdirilməsi üçün gözəl şərait var. Şəxsi və fermer təsərrüfatlarında 19 min 350 arı ailəsi bəslənilir. Rayonda arıçılıq kooperativi də fəaliyyət göstərir. Lerik ekoloji cəhətdən təmiz, yüksəkkeyfiyyətli monoflor və poliflor çiçək balı ilə məşhurdur. İl ərzində rayonda 130-160 ton bal istehsal olunur. Arıçılar paytaxtda keçirilən satış yarmarkalarında fəal iştirak edirlər. Lakin bu sahədə problemlər də mövcuddur. İstehsal edilən təbii balın qəbulu, arıçılıqda istifadə olunan avadanlıqların və dərman preparatlarının satış məntəqələrinin yaradılmasına ciddi ehtiyac var.

***– Rayonda tərəvəzçilik, kartofçuluq, meyvəçilik və üzümçülüyün inkişafı sahəsində nə kimi işlər görülüb? Lerik brendli alma, pomidor, kartof respublikamızın bazarlarında məşhurdur, cənub bölgəsində həm də güllər diyarı kimi tanınır.***

– Elədir. Rayonun bütün kəndlərində taxıl bitkiləri ilə yanaşı, kartof, tərəvəz və meyvə yetişdirilir. Ötən il 1550 hektar kartof sahəsindən 22 min 475 ton məhsul yığılıb. Maarifləndirici tədbirlər nəticəsində damcı ilə suvarma üsulu tətbiq edilərək 230 hektar sahədə ekoloji cəhətdən təmiz zuvand kartofu yetişdirilib. "Lerik kartofu" adlı yeni sortun yaradılması məqsədilə Tərəvəzçilik Elmi-Tədqiqat İnstitutu tərəfindən müvafiq işlər görülüb.

2025-ci ildə pomidor əkini əvvəlki illə müqayisədə 10 hektar artırılaraq 50 hektara çatdırılıb. Hektarın məhsuldarlığı 135,5 sentner olmaqla 675 ton pomidor yığılıb. Bundan əlavə, istixana şəraitində 1,83 hektar sahədən 140 ton pomidor istehsal olunub. Dadı, ləzzəti, yüksək keyfiyyəti ilə fərqlənən Lerik pomidorunun qonşu rayonlarda və Bakıda çoxlu alıcıları vardır. Keçən il şəxsi və fermer təsərrüfatlarında 402 ton kələm, 417 ton xiyar, 2620 ton soğan, 585 ton sarımsaq istehsal edilib.

Rayonda ənənəvi üsulla salınmış 542 hektar meyvə bağı vardır. Bunun 467 hektarı bar verən bağlardır. Keçən il fermer və şəxsi təsərrüfatlara məxsus 252 hektar alma, 46,6 hektar armud, 53,1 hektar fındıq, 5 hektar albalı, 9,3 hektar alça, 4 hektar badam, 7,3 hektar ərik, 13 hektar gilas, 11 hektar feyxoa, 14,4 hektar gavalı bağlarında 1441 ton meyvə istehsal olunub. Məhsul rayonun və ölkəmizin daxili bazarlarına çıxarılıb.

1970-1980-ci illərdə rayonun orta dağətəyi ərazilərində 3 min 500 hektar sahədə üzüm bağları salınıb. İndi onlardan əsər-əlamət qalmayıb. Son illər intensiv üsulla 1,43 hektar sahədə üzüm tingləri əkilib. Rayonun kəndlərində üzümçülük təcrübəsinin olduğunu nəzərə alaraq rayonlaşdırılmış üzüm sortlarından yeni plantasiyalarin salınması istiqamətində işlər aparılır. Azərbaycan Elmi-Tədqiqat Üzümçülük və Şərabçılıq İnstitutunun əməkdaşlarının tövsiyələrinə əsasən Lələdulan və Murya kəndlərində 1 hektar sahədə nümayiş bağı salınıb. Üzüm bağlarına görə 8 min manat məbləğində subsidiyanın verilməsi fermerlərin marağını artırıb.

Yeni ildə qarşıda daha mühüm vəzifələr durur. Lerik DAİM-in kollektivi aqrar sahənin davamlı inkişaf etdirilməsi, çətinliklərin aradan qaldırılması üçün bundan sonra da səylə, var qüvvə ilə çalışacaq.

***Əlisəfa HƏSƏNOV,***
***XQ-nin bölgə müxbiri***

# Göygöldə istehsal müasirləşir və genişlənir



**Göygöl Rayon İcra Hakimiyyətinin başçısı Vüqar Novruzov və Azərbaycan Respublikası Prezidenti Administrasiyası Ərazi-təşkilat məsələləri şöbəsinin regionların sosial-iqtisadi inkişafının təhlili sektorunun müdiri Müşfiq Osmanov rayon ərazisində fəaliyyət göstərən bir sıra istehsal və aqrar müəssisələrin fəaliyyəti ilə yerində tanış olublar.**

Rayonun Quşqara kəndində yerləşən "Xanni-2017" müəssisəsinin rəhbəri məlumat verərək bildirdi ki, "Xanni-2017" ölkənin ilk və yeganə əlcək istehsalçısıdır. İstehsalda yüksəkkeyfiyyətli xammaldan istifadə olunur, məhsullar beynəlxalq standartlara cavab verən müasir avadanlıqlar vasitəsilə hazırlanır.

Uyğunluq sertifikatı almış əlcəklər müəyyən edilmiş keyfiyyət və təhlükəsizlik tələblərinə tam cavab verir. Müəssisə daxili bazarla yanaşı, xarici bazarlara da çıxış əldə edib, 2018-ci ildən etibarən Qazaxıstan, Gürcüstan və Rusiya şirkətləri ilə əməkdaşlıq qurub. Bu isə yerli sənaye məhsullarının ixrac potensialının artmasına mühüm töhfə verir. Müəssisənin fəaliyyəti, eyni zamanda, rayon əhalisinin məşğulluğunun artırılmasında əhəmiyyətli rol oynayır.

Daha sonra rayonun Qızılca kəndində yerləşən "Şirin Aqro" QSC-nin intensiv meyvə bağlarına baxış keçirilib. Cəmiyyətin rəhbəri tərəfindən verilən məlumata görə, 220 hektar ərazidə salınmış bağlarda 190 hektar şaftalı, 20 hektar gilas və 10 hektar ərik ağacları əkilib. Bağlarda müasir aqrotexniki üsullardan istifadə olunur, bu da məhsuldarlığın yüksəldilməsinə şərait yaradır.

Müəssisənin illik meyvə istehsalı gücü 8 min ton təşkil edir. Hazırda burada 250 nəfər mövsümi, 28 nəfər isə daimi işlə təmin olunub. "Şirin Aqro" QSC fəaliyyətə başladığı ilk dövrlərdə yerli bazardan meyvə məhsullarının tədarükü və ixracı ilə məşğul olmuş, 2020–2021-ci illərdə isə fəaliyyətini genişləndirərək Göygöl, Qusar və Zəngilan rayonlarında da intensiv meyvə bağları salmışdır.

Qeyd edildi ki, müəssisə təkcə meyvə istehsalı ilə kifayətlənmir. Təsərrüfatda istifadə üçün illik 1,5 milyon ədəd plastik yeşik, 40 min ədəd beton dirək və 72 min kvadratmetr hasar toru istehsal olunur. Bu da daxili tələbatın ödənilməsinə və istehsal xərclərinin optimallaşdırılmasına imkan yaradır.

Eyni zamanda, müəssisəyə məxsus 3 hektar torpaq sahəsinin 1,5 hektarında soyuducu anbar kompleksinin tikintisi ilə bağlı ilkin planlaşdırma işlərinə başlanıldığı bildirildi. Meyvələrin çeşidlənməsi, saxlanılması və qablaşdırılması bölmələrindən ibarət olacaq bu anbarda 35 yeni daimi iş yerinin yaradılması nəzərdə tutulur.

***Hamlet QASIMOV,***
***XQ-nin bölgə müxbiri***

# Naxçıvan fermerlərinə texniki dəstək

## Ötən il onlara 1 milyon 916 min manatlıq maşın-mexanizm satılıb



**Ötən il "Naxçıvan Aqroservis" ASC tərəfindən ümumi dəyəri 1 milyon 916 min 730 manat olan kənd təsərrüfatı texnikası və texnoloji avadanlıq 36 fermerin istifadəsinə verilib. Satılan avadanlıqlar sırasında 17 adda 49 ədəd texnika və texnoloji avadanlıq yer alıb.**

Fermerlərə satılan 49 texnikanın 20-ni taxılyığan kombaynlar təşkil edib. Bundan əlavə, fermerlərin ehtiyaclarına uyğun olaraq əkin, becərmə, məhsul yığımı, yem hazırlığı, arıçılıq və südçülük sahələrində istifadə olunan müxtəlif kənd təsərrüfatı texnikaları və texnoloji avadanlıqların da satışı həyata keçirilib.

Öyrəndik ki, fermerlərin texnikaya olan tələbatını ödəmək məqsədilə 2025-ci ildə Gəncə Avtomobil Zavodundan ümumi dəyəri 1 milyon 532 min 800 manat olan "Belarus" markalı 27 ədəd traktor satın alınıb. Fermerlərin sözlərinə görə, bu traktorlar güc, komfort və dayanıqlılıq baxımından daha üstün göstəricilərə malikdir. Həmçinin kənd təsərrüfatı texnikaları fermerlərə nağd satışla yanaşı, lizinq yolu ilə də təqdim olunur. Bu zaman texnikanın dəyərinin 20 faizi fermer tərəfindən ödənilir, ilkin dəyərin 40 faizi dövlət büdcəsi hesabına subsidiyalaşdırılır, qalan 40 faizi isə 5 il müddətində ödənilir.

Qeyd edək ki, yeni texnika və texnoloji avadanlıqların alınması cari ildə də davam etdiriləcək. Belə ki, 2026-cı ildə fermerlərin tələbi nəzərə alınaraq daha çox "CLASS Dominator" və "New Holland" markalı texnikaların alınması planlaşdırılır. Bununla yanaşı, Naxçıvanda bağçılığın inkişafı məqsədilə ağac silkələyən qurğuların, şitil əkilməsi və gübrə səpilməsi üçün avadanlıqların, su kanalı açan texnikaların, çalaqazan, mala və dırmıq kimi alətlərin, həmçinin 1, 2 və 3 hektarlıq sahələr üçün çiləmə üsullu suvarma sistemlərinin və üzüm bağları üçün tənəkə məftili bağlayan qurğuların alınması da nəzərdə tutulur.

***Səbuhi HƏSƏNOV,***
***XQ-nin Naxçıvan müxbiri***

# Ağdam "ağ qızıl"lı günlərinə qayıdır

## Pambıqçılar bu gəlirli sahəni uğurla dirçəldirlər

**Münbit, barlı-bərəkətli torpaqları olan Ağdam rayonunun pambıqçıları da onlar üçün yaradılmış əlverişli imkanlardan yararlanaraq ötən ili uğurlu nəticələrlə başa vurublar.**

"P-aqro" MMC-nin Ağdam filialının direktoru, I dərəcəli Əmək ordenli Mürsəl Qurbanov bildirdi ki, rəhbərlik etdiyi müəssisə ötən mövsüm 126 fermerlə 800 hektar sahədə pambıq əkini üçün müqavilə bağlamışdı. Qarşıya qoyulan hədəf isə pambıq kollarına yaxşı qulluq göstərməklə, aqrotexniki xidmət sayəsində əkilən ərazilərdən yüksək məhsuldarlıq əldə etmək olub:

– Bunun üçün bizə hər cür şərait yaradılmışdı, fermerlər hərtərəfli qayğı ilə əhatə olunmuşdular. Çiyid səpinindən başlayaraq bütün aqrotexniki xidmətlərin göstərilməsinə, sahələrin dərmanlanmasına, həmçinin məhsulun yığılıb məntəqəyə təhvil verilməsinə kimi bütün xərclər pambığın alışı zamanı hesablaşmaq şərtilə "P-aqro" MMC tərəfindən qarşılanıb. Əkin sahələrində bütün aqrotexniki işlər vaxtında görülüb, ərazilərin zərərvericilərdən qorunması üçün dərmanlama prosesi aparılıb, pambıq yığımı və tədarükü tam yekunlaşıb.

Görülən işlərin nəticəsi olaraq qarşıya qoyduğumuz hədəflərimizə çatmışıq. Belə ki, 800 hektar sahədən 2 min 757 ton fiziki çəkidə, 2 min 403 ton kondisiya çəkidə məhsul yığmışıq. Orta məhsuldarlıq hər hektar üçün 30,5 sentner təşkil edib. Yığımda 4 kombayn, 26 qoşqu olmaqla 13 traktor fəaliyyət göstərib.



"P-aqro" MMC-nin rəhbərliyinin Ağdamda pambıqçılığın inkişafını hər zaman diqqətdə saxladığını bildirən filial direktoru onu da əlavə etdi ki, mövsüm ərazində texnika, onların ehtiyat hissələri, dərman vasitələri və gübrələrlə bağlı heç bir problemlə üzləşməyiblər. 2026-cı təsərrüfat ili üçün isə min hektar sahədə əkinin aparılması nəzərdə tutulub. Hazırda fermerlərlə müqavilələr bağlanır, şumlama, çöp doğrama və arat işləri davam etdirilir.

Qeyd edək ki, filialın fəaliyyəti rayonda əhalinin məşğulluğuna da öz töhfəsini verir. Qurumda 40 nəfər ağdamlı daimi işlə təmin edilib, daha 10 nəfərlə isə mövsümi olaraq müddətli müqavilələr imzalanır.

***R.MAHİR***
***XQ***

# Nigeriyalı Nikin Qarabağ sevgisi

**Artıq uzun illərdir Azərbaycanda yaşayan nigeriyalı Nik Nvolisanın "Mənim Qarabağa səfərim" ("My trip to Karabakh") əsərini "TEAS Press" Nəşriyyatı 2025-ci ilin payızında ingilis dilində nəşr etməklə doğma Qarabağımıza bu dəfə də bir xarici vətəndaşın gözü ilə baxmağımıza imkan yaratmış oldu. Kitabın 30 oktyabr 2025-ci il tarixində "LIBRAFF" kitab evində Azərbaycan Mətbuat Şurasının sədri, Yazıçılar Birliyinin katibi Rəşad Məcidin rəhbərliyi ilə keçirilən təqdimatı haqlı olaraq ədəbi, ictimai-siyasi cəmiyyətimizin diqqət mərkəzinə çevrildi. Görkəmli yazıçılarımız, millət vəkillərimiz, tədqiqatçılarımız və jurnalistlərimiz Nikin kitabını yüksək dəyərləndirdilər, kitabın tezliklə Azərbaycan dilinə və digər dillərə tərcümə edilib yayılmasını arzuladılar.**

İndi isə qısaca kitab haqqında. Müəllif kitabının cildində kitabın adının altında "Azərbaycan XXI əsr miqrantının gözü ilə" yazmaqla bütünlüklə ölkəmiz barəsində hiss və duyğularını səmimi təqdim edir. Kitabın ön sözündə qeyd edir ki, bu əsəri 2020-ci ilin əvvəllərində yazmağa başlamış, Qarabağ müharibəsindən sonra isə azad edilmiş bölgələrə səfər edib öz müşahidələri, görüşləri ilə tədqiqatını canlı təcrübə əsasında qurmağı hədəfləmişdir. Qərblilərin baxışlarından fərqli olaraq müəllif öz əsərində həm Azərbaycanın Qarabağ torpağında illərlə baş vermiş hadisələri, həm də mövcud reallığı və qarşıdakı perspektivləri əhatə edən mülahizə və təəssüratlarını maraqlı dildə ifadə edir, "Mən Füzulidən bu gözəl regiona daxil olan gündən Qarabağa aşiq oldum", – deyir. O, belə füsunkar və zəngin təbiətə malik bölgənin ermənilər tərəfindən viranəyə çevrildiyinə təəssüf edir. Nik yazır: "Təkcə bu gözəl məkanın tezliklə bərpa edilməsini deyil, həm də əhalisinin başına gətirilənləri dünyanın bilməsini istədim, dünyaya, Qərbə bir afrikalı səsi ilə səslənmək istədim. İstədim ki, bilsinlər ki, bu, bir dini, islam-xristianlıq qarşıdurması deyil, bu torpaq, kimlik və qayıdış haqqı məsələsidir".

Müəllif kitabını maraqlı bölmələrə ayırmışdır: Şuşa, Füzuli, Xocalı, Umud, Tərtər, Ağdam, "Qarabağ Azərbaycandır!" və Qələbə Günü. Bölmələrdən birinin Umud adlandırılması təsadüfi deyil, bu Beynəlxalq Avrasiya Mətbuat Fondunun (BAMF) təsisçisi və rəhbəri Umud Mirzəyevin Azərbaycan həqiqətlərini beynəlxalq təşkilatlara çatdırmaq, Qarabağı və Azərbaycanın haqlı davasını dünya ictimaiyyətinə və mediasına tanıtmaq və qəbul etdirmək yolunda illərlə çalışan bir Vətən oğlunun, qarabağlının taleyinin doğma torpaqlarla ayrılmaz bağlılığına işarədir. Nik sovet dövründə Umud Mirzəyevin jurnalist kimi çalışdığını, sonra isə yaşadığı Füzulinin Aşağı Əbdülrəhmanlı kəndini məcburi köçkün kimi tərk etməyə məcbur qaldığını xatırladır.

Umud Mirzəyevin Birinci Qarabağ müharibəsi zamanı – 1992-ci ildə təsis etdiyi BAMF-ın həm Qarabağ həqiqətlərinin dünyada tanıdılmasına, həm də məcburi köçkünlərlə əlaqədar bir sıra layihələrin həyata keçirilməsinə dəstək verdiyini, tanınmış xarici jurnalistlərin Qarabağ bölgəsinə səfərlərinin təşkil etdiyini, eyni zamanda, cəbhəboyu ərazilərin minalardan və partlamamış döyüş sursatlarından təmizlənməsi işində yaxından iştirak etdiyini geniş şərh edir. Mina qurbanlarının həyatını yüngülləşdirmək üçün dövlətə dəstək verən bu qeyri-hökumət təşkilatının fəaliyyətini yüksək qiymətləndirir. Qeyd edilməlidir ki, BAMF bizim regionun yeganə qeyri-hökumət təşkilatıdır ki, BMT-nin İqtisadi və Sosial Şurasının Əsas Məsləhətçi statusuna malikdir və BMT-nin Cenevrə, Nyu-York və Vyana nümayəndəliklərində keçirilən müvafiq iclaslarda iştirak etmək haqqına sahibdir.

Birinci Qarabağ müharibəsində yüzdən çox xarici jurnalistin ölkəmizə dəvət edilməsi faktı onu göstərir ki, bir neçə fəaliyyət istiqamətində Azərbaycan dövlətinin həyata keçirdiyi tədbirlərə fəal dəstək verən BAMF hələ 2002-ci ildən etibarən mina təmizləmə əməliyyatlarında ANAMA ilə əməkdaşlıqda öz dəstəyini verməyə başlamışdı və bu fəaliyyət bu gün də davam edir. Umud Mirzəyevin mətbuata bildirdiyinə görə, bu günə qədər BAMF könüllüləri tərəfindən 16 min 274 hektar ərazinin 2118 piyada əleyhinə, 1841 tank əleyhinə minalardan, 17 min 869 partlamamış döyüş sursatlarından təmizlənməsi, eyni zamanda, mina qurbanlarına beynəlxalq təşkilatlarının dəstəyinin cəlb edilməsi bu qurumun səmərəli fəaliyyətindən xəbər verir.

Qeyd edilməlidir ki, Nikin 10 mart 2006-cı ildən – Azərbaycana gəldiyi gündən ölkəni, xüsusən Qarabağı öyrənməsi, BAMF-in prezidenti Umud Mirzəyevin yaxından dəstəyilə Xəzər Universitetində, sonra Bakı Slavyan Universitetində, ardınca ADA Universitetində təhsil alması onu bir qeyri-hökumət təşkilatı üzvü kimi inkişaf etdirmiş, dünyagörüşünü xeyli zənginləşdirmiş, get-gedə pənah gətirdiyi Azərbaycana bağlamışdır. İlk gündən BAMF tərəfindən himayə olunan və ictimai fəaliyyətə cəlb edilən, bununla əlaqədar qaçqın və köçkünlərin problemlərini öyrənməyə başlayan Nik bu illər ərzində təcrübəli təhsil, iqtisadiyyat və müdiriyyət üzrə qlobal iş təcrübəsi olan mütəxəssis kimi yetişmişdir.

BAMF prezidenti Umud Mirzəyevin xeyirxah və işgüzar münasibəti onu bir Qarabağ sevdalısına çevirmişdir. O, fəal iştirak etdiyi qeyri-hökumət təşkilatlarında Azərbaycanın qaçqın-köçkün problemini qaldırmış, bunu görməzlikdən gələn bir sıra beynəlxalq təşkilatları haqlı tənqid etmiş, BAMF-in beynəlxalq təşkilatlarla əməkdaşlığı çərçivəsində ABŞ-da, Pakistanda, Türkiyədə, Avropa qurumlarında etdiyi çıxışlarında o, Qarabağ münaqişəsinin bir dini münaqişə olmadığını, Ermənistanın aşkar təcavüzkarlıq etdiyini, etnik təmizləmə siyasəti həyata keçirdiyini, əraziləri minaladığını, minlərlə insanın həlak olmasına və ağır xəsarət almasına səbəb olduğunu vurğulamışdır. Nik yazır ki, Ermənistan Rusiyanın hərbi dəstəyilə Azərbaycan torpaqlarını işğal etmiş, çoxsaylı məcburi köçkünün Qarabağı tərk etməsinə səbəb olmuşdu. Azərbaycan öz əhalisinin məcburi köçkün sayına görə dünyada ən başda gələn ölkəyə çevrilmişdi.

Nik yazır ki, o, hələ 2007-ci ildə, azı 15 il əvvəl köçkün düşən adamlarla söhbətində onun şahidi olmuşdu ki, heç kim geri, doğma yurda dönəcəyinə inamını itirməmişdi və onu düşündürürdü ki, bu inamın mənbəyi nə idi? Sonralar bu sualın cavabı ona aydın olmuşdu – onların dövlətə və dövlət başçısına sarsılmaz inamı.

Əsərin "Füzuli" bölməsində keçmiş Qarabulağın Azərbaycanın böyük şairi Məhəmməd Füzulinin adı ilə adlandırılması, Araz boyunca yerləşən bu şəhərə 2007-ci ildən Nikin Umud Mirzəyevlə etdiyi səfərlər, orada köçkünlərlə əlaqədar görülən işlər maraqlı bir dildə təsvir edilir. O, yazır: "Azərbaycanın bu gözəl bölgəsinə daxil olduğum gündən Füzuliyə, Qarabağa aşiq oldum... indi də, az qala 20 il sonra məndən, haralı olduğumu soruşanlara "Füzulidənəm", - deyirəm. Bəlkə də, buna haqlıyam, həyat yoldaşım Lalə ilə də orada tanış olmuşam".

Qeyd etmək lazımdır ki, ölkəsindəki radikal dini cərəyanlardan və tez-tez törədilən dəhşətli terror aktlarından fərqli olaraq Azərbaycanın çoxinanclılığı və dini xoşrəftarlılığı Niki daha da ölkəmizə bağlamışdır. O, xristian olmasının Azərbaycan mühitində ona hansısa çətinlik, ya fərqli münasibət doğurmadığını məmnunluqla vurğulayır. Nik yazır ki, o, Nigeriyanın İqbo tayfasının mənsubu kimi görür ki, ölkəsinin 1960-cı ildə Britaniya müstəmləkəçiliyindən azad olduğuna baxmayaraq, xalqı hələ də bu müstəmləkəçiliyin acı nəticələrindən əzab çəkir. Vətəndaş müharibəsinin, tayfa və dini qarşıdurmaların 60 ildən sonra da fəsadlarının davam etdiyini təəssüflə qeyd edir.

Nik əsərində Azərbaycan hökumətinin məcburi köçkünlərə qayğısından geniş söz açır, Azərbaycan xalqının qonaqpərvərliyindən, Novruz bayramının onda doğurduğu təəssüratlardan bəhs edir. O, qaradərili olmağının azərbaycanlılarda hansısa mənfi münasibət doğurmadığını, əksinə, "Qarabala" kimi əzizləndiyini məmnunluqla qeyd edir. Hələ ölkəmizə təzə gəldiyi vaxtlarda Qarabağa, ya ölkənin digər bölgələrinə səfərlərində bildiyi sözlərdən, məsələn, "qardaş, sağ ol, nə var- nə yox?" istifadə etdiyinin necə xoş qarşılandığını yada salır.

Əsərin "Umud" fəslində Nik Umud Mirzəyevin Bakıda təhsil alan beynəlxalq tələbələrlə geniş iş apardığını, onları müharibə qurbanlarının övladları ilə görüşdürdüyünü, onlara həm qayğı göstərdiyini, həm də rəhbərlik etdiyi Fondun qaçqın və köçkünlərlə əlaqədar layihələrinə cəlb etdiyini qələmə almaqla köçkünlərin problemlərini beynəlmiləşdirmək yolunda fəal çalışdığını, özünün də iştirakı ilə beynəlxalq təşkilatlarla fəal işlədiyini vurğulayır. O yazır ki, 1992-ci ildə Moskva Lomonosov Universitetinin məzunu Umud Mirzəyev tərəfindən əsası qoyulan BAMF BMT-nin müxtəlif təşkilatlarının Azərbaycan qaçqın və köçkünlərinin vəziyyətinə münasibətlərinin dəyişməsinə davamlı səy göstərmişdir.

Nikin ilk səfəri də BAMF nümayəndəsi kimi Vyanaya, sonra ABŞ-a bu məqsədi daşımış, o, Beynəlxalq Mətbuat İnstitutunda (BMİ), BMT Baş Məclisinin iclasında Umud Mirzəyevlə bərabər iştirak etmiş, Fondun fəaliyyətinin beynəlxalq çərçivədə tanıdılmasında yaxından iştirak etmişdir. O, Azərbaycan rəsmi orqanları nümayəndələrinin, xüsusən Azay Quliyevin, Qənirə Paşayevanın (rəhmətlik), Əflatun Amaşovun, Qurban Sadıqovun və başqalarının fəaliyyətinə yüksək dəyər verir, eyni zamanda, Fondun Proqram direktoru olaraq bir çox rəsmi və qeyri-hökumət təşkilatları ilə əlaqəli çalışmaları şərh edir. BAMF-in milli mina təmizləmə agentliyi – ANAMA ilə sıx əməkdaşlıq etdiyini bildirir.

Nik qeyd edir ki, onun BAMF-in ABŞ Dövlət Departamenti ilə danışıqları mina qurbanları və onların ailələri üçün Tərtərdə Peşə Təlim Mərkəzinin (Vocational Training Centre) açılmasına şərait yaradıb. BAMF ABŞ-ın "Journal on Mine Action" jurnalının nümayəndəsinin Tərtərə səfərini təşkil edib. ABŞ hökumətinin dəstəyi ilə Azərbaycanda qurulan ANAMA ilə BAMF-in səmərəli əməkdaşlıq etdiyini, özünün yuxarıda adı keçən jurnala ətraflı məqalə yazıb mövzunu geniş beynəlxalq auditoriyaya çıxardığını vurğulayır. Peşə Təlim Mərkəzinə Azərbaycan hökumətinin önəm verdiyini qeyd edən Nik Qarabağ bölgəsində Azərbaycan hökumətinin köçkünlər üçün hərtərəfli sosial-iqtisadi tədbirlər həyata keçirdiyini, bu sahədə çalışan qeyri-hökumət qurumlarına da dəstək verdiyini işıqlandırır.

Nik 2011-ci ildə artıq Peşə Təlim Mərkəzinin təmsilçisi olaraq ABŞ-a səfər edib BMT İqtisadi və Sosial Şurasının sessiyasında iştirak edir, ardınca Cenevrədə, sonra Düşənbədə mina qurbanlarına dəstək seminarlarında çıxışlar edir. Çıxışlarında Ermənistanın mina terroru ilə yanaşı, ekoloji terrorunu anladır, gölləri, çayları çirkləndirdiyini, işğal olunmamış Qarabağ bölgəsində bir çox yerlərdə su qıtlığı yaratdığını, bunun da həmin bölgədə müvəqqəti yaşayan məcburi köçkünlərin həyat şəraitini daha da ağırlaşdırdığını şərh edir.




Nik BAMF-in UNİSEF-i və digər beynəlxalq qurumları Azərbaycanın Tərtər bölgəsində həyata keçirilən layihələrə cəlb etdiyini vurğulayır. BAMF-in Bakı Beynəlxalq Tələbə Klubu yaratdığını, tələbələrin Füzuli, Ağdam, Tərtər, Goranboy bölgələrinə səfərlərini təşkil etdiyini, Azərbaycanın dövlət orqanlarının dəstəyilə Azərbaycan Gənclərə Dəstək Layihəsi (Azerbaijan Youth Advocacy Project - AYAP) təsis edildiyini, xüsusən Bərdədə AYAP lideri Ülviyyə Babayevanın "BBC World"da çıxış edib məcburi köçkünlərin problemləri, müharibənin ağır nəticələri barəsində ətraflı məlumat verdiyini qeyd edir.

Əsərin "Ağdam" bölümündə Nik Umud Mirzəyevlə bərabər dəfələrlə bu bölgədə olduğunu, Umud Mirzəyevin həm də Beynəlxalq Mətbuat İnstitutu Milli Komitəsinin (İPİ) rəhbəri olaraq Azərbaycan Mətbuat Şurası ilə birgə fəaliyyətinin əhəmiyyətli olduğunu yazır. O, İPİ-nin Vyanada yerləşən Baş ofisi ilə sıx əməkdaşlıq, Azərbaycan jurnalisti Azər Həsrətin bu qurumla fəal iş birliyinin, digər jurnalistlərin bu sahədə çalışmalarını qeyd etmişdir. O, həmçinin o zaman jurnalist Eynulla Fətullayevin və digərlərinin Prezident İlham Əliyev tərəfindən əfv edilməsinin əhəmiyyətini vurğulayır.

Nik əsərində Heydər Əliyev Fondunun dəvəti ilə Azərbaycana gələn Rza Deqatinin Birinci Qarabağ müharibəsinə dair fotolarından, onun fotojurnalist kimi səmərəli fəaliyyətindən söz açır. Onun Cənubi Azərbaycandan olduğunu, Fransaya mühacirət edib orada yaşadığını, dünyanın qaynar nöqtələrindən çəkdiyi fotoları ilə yaxşı tanındığını, onunla ilk dəfə Qarabağ səfərində tanış olduğunu qeyd edir. "Qarabağ: Azərbaycan və Ermənistan Sülh və Müharibə yolu ilə" ("Black Garden: Armenia and Azerbaijan Through Peace and War") əsərinin müəllifi Thomas de Waal və "Azərbaycan Gündəliyi: Neftlə zəngin, müharibənin dağıtdığı postsovet respublikasında fırıldaqçı müxbirin macəraları" ("Azerbaijan Diary: A Rogue Reporter's Adventures in an Oil-Rich, War-Torn, Post-Soviet Republic") əsərinin yazarı Thomas Golts ilə Qarabağda tanışlıqlarını təsvir edir.

Nikin kitabının son fəsli "Qarabağ Azərbaycandır" adlanır. O, ümummilli lider Heydər Əliyevin siyasəti ilə Azərbaycanın sabit, asayişli ölkəyə çevrildiyini, 1994-cü ildə imzalanan neft sazişinin ölkənin inkişafında mühüm rol oynadığını, özünü təmin edən ölkəyə çevrildiyini təsvir edir və Prezident İlham Əliyevin rəhbərliyi ilə 2020-ci ilin noyabrında öz ərazilərini işğaldan azad etdiyini rəğbətlə şərh edir. Qələbədən az sonra 2021-ci ilin əvvəlində övladları Joel və Angel ilə birlikdə Qarabağa səfərini təsvir edir. Tərtərdə onları qarşılayan Oğuz Umud oğlunun ABŞ-da təhsilini başa vurub qayıdandan sonra atası ilə bərabər BAMF-də çalışıb doğma xalqına xidmət etdiyini yüksək dəyərləndirir.

Nik əsərində Azərbaycan ziyalılarına, o cümlədən ADA Universitetinin rektoru, professor Hafiz Paşayevə, prorektor, millət vəkili Fariz İsmayılzadəyə xüsusi ehtiramını ifadə edir, orada keçirilən beynəlxalq tədbirlərin mühüm əhəmiyyətindən bəhs edir.

Nik Azərbaycan hökumətinin media siyasətini yüksək təqdir edir. Prezident İlham Əliyevin insan kapitalının inkişafına verdiyi diqqəti vurğulayır, Asan Xidmət qurumlarının əhəmiyyətindən söz açır. Azərbaycanın çoxmədəniyyətlilik siyasətini alqışlayır, dövlətin gənclərə qayğısını vurğulayır. O, "Qarabağ" futbol klubunun azarkeşi olaraq ölkəmizin zəfərləri ilə fəxr edir.

Əsərdə Nik azad edilmiş torpaqlardakı quruculuğun miqyası, keyfiyyəti, müasirliyi və nümunəviliyinə diqqəti yönəldir. Azərbaycanın inkişafının bütün regiona müsbət təsir edəcəyini, hətta Ermənistanın da bundan faydalanacağına əminliyini bildirir.

Nik haqlı olaraq özünü BAMF ailəsinin üzvü hesab edir. Qarabağda həyata keçirilən təməlquruluş layihələrini heyranlıqla seyr edir. Azərbaycanın "yeni renessans" dövrünü yaşadığını bildirir, ölkənin 20 il əvvəl gəldiyi vaxtdan bəri nəhəng nailiyyətlərə çatdığını, Şərqlə Qərb mədəniyyətinin ortaq dəyərlərinə malik olduğunu, xalqda Torpaq, Vətən, Bayraq sevgisinin çox yüksək olduğunu vurğulayır. Keçmiş məcburi köçkünlərin doğma yurdlarına ləyaqətli qayıdışı üçün Prezident İlham Əliyevin siyasi, iqtisadi, sosial, mədəni siyasətinin uğurla həyata keçirildiyini yazır. O, qədim İpək Yolunun yeni həyatından bəhs edir, qaynar inkişaf dövrünü yaşayan Qarabağı bundan sonra da məmnuniyyətlə ziyarət edəcəyini bildirir.

Fikrimizcə, Nik Nvalisanın "Mənim Qarabağa səfərim" kitabının Azərbaycan dilinə tərcümə edilib nəşr olunması ölkəmizdə gənc nəslin vətən sevgisinin və xalqa xidmət arzusunun daha da yüksəlməsinə dəyərli töhfə olar.

***Eynulla MƏDƏTLİ,***
***tarix elmləri doktoru,***
***fövqəladə və səlahiyyətli səfir***

*Ulu yurdlarımız*

# O yer gözəlliklər məskənidir

**Ötən əsrin sonlarından Borçalının dərin tarixi qatlarında adı, ünvanı olan kəndimiz yavaş-yavaş sozalır, adamlar işləmək və yaşamaq üçün başqa ölkələrə üz tuturdular. Sanki el yerindən oynayırdı. Elinə-obasına möhkəm bağlı olanları isə heç bir qüvvə yerindən tərpədə bilmirdi. Onlar öz namuslu, fədakar əməyi ilə kəndin əvvəlki istiliyini özünə qaytarmaq üçün çalışırdılar.**



***Həzi HƏSƏNLİ,***
***şair-publisist***

Ömrün-günün sərt çağlarında da kənd-kəsək saflığını özündə saxlayanlar ata-babalarının yandırdığı odun-ocağın qədrini bildilər. Kəndin hər əziyyətinə qatlaşdılar, dədə-baba torpaqlarını əkib becərdilər.

Amma qapısı bağlı, üzü günə qalan evləri içiboş, daşında, divarında yaş görənlər deyirdilər daha o kənd sən görən deyil. Evlər insan nəfəsilə isinməyəndə sanki ulularımızın ruhları ağlayır.

Faxralı kəndi bir çoxları kimi, mənim də həyat yoluma romantik fikirlər, qanadlı arzular çırağı kimi işıq saçıb. Altmış il bundan əvvəl o kənddə məktəbə getdiyim ilk gün də yadımdadır. Kəndimiz ucsuz-bucaqsız meşələrlə, zirvəli dağlarla, gen dərələrlə əhatə olunub. O dağlar, o qayalar, o qalalar qızılquş yuvası, tərlan qalasıdır.

Mən kəndimizin gözəl təbiətinə orada yaşadığım uşaqlıq illərimdən vurğun olmuşam. Çox diyarlar gəzib, çox yerlər görsəm də, öz kəndimiz, öz elimiz məni çəkir. Uzun illərdən bəri Bakıda yaşasam da, ata yurdunda ev tikdirdim. Evimiz Hasanlının yalı deyilən hündür yerində qərarlaşıb. Həyətimizdən bütün kənd ovuc içi kimi görünür. Evimizin panoramı Gözəl dağına baxır. Üzüm tənəkləri, meyvə ağacları, kirəmitli evlərin eyvanlarına sarmaşan qızıl güllər kəndimizin torpağından pöhrələnib, bağçaların ilkin yazından xəbər verəndə elə bilirdim ki, arzularım gül açıb.

Bir müddət ata yurdumdakı evimizin qapısı bağlı qalmışdı. İllər sonra gedəndə kənd evimizdə elə şirin yuxu yatırdım ki... Orada gecələr kəndə keşik çəkən itlərin hürüşməsi ilə uzanır, səhərlər xoruzların banı ilə açılır. Kəndin payız toylarında sazın, qara zurnanın iliyə, qana işləyən səsi heyrətamiz nəğməyə dönür.

Kəndimizdə çoxlu zəhmətkeş ailələr var. Alnının təri üzünə axan halal və qoçaq zəhmət adamları doğma kəndə çox bağlıdır. Əllərindən hər iş gəlir. Kəndin yeganə ümidi, dayağı da onlardır. Çünki yaz, yay, payız və qış aylarında kənddə qalırlar. Qışda ocaqlarını gur yandırmaq üçün ilin qalan fəsillərində torpağa qulluq edir, məhsul əkib becərir, mal-qara, toyuq-cücə saxlayır, əllərinin zəhməti, ürəklərinin hərarəti ilə doğma elin istiliyini artırırlar.

Son illər kəndin ab-havası yaxşılığa doğru xeyli dəyişib. Odun sobasının ətrinə, hərarətinə, istiliyinə istilik çatmaz. Üstəlik, on il bundan əvvəl kəndə qaz çəkildi. Evlərin istiliyinə yeni istilik qatdılar. Eldən gedənlər istiliyə bürünə-bürünə yenidən döndülər doğma yuvaya. Daş üstünə daş qoydular. Hər tikilən yeni ev məhəbbət və heyrət abidəsinə döndü. Həyət-bacalar gül qoxumağa başladı. İndi yaza-yaza o ilahi gözəlliyə yaraşan söz gəzirəm.

Nə müddətdi qoynundan köçüb yad yerlərə gedənlərə kənd gəl-gəl deyir. Onların elə dönmək meyli, yurd mehri kəndin ömrünə ömür calayar. Eldən gedib yaxşı ad alanlar da kəndin özü üçün bir şöhrətdir. Amma kənd onlardan bəzilərinin üzünə həsrətdir. Gərək onlar da hərdənbir dürlü-dürlü nura, işığa, aydınlığa çıxmış doğma kəndin görüşünə gəlsinlər.

Burada hər bulaq, hər çeşmə şairin ilham mənbəyidir. Başı dumanlı dağların döşündən qaynayıb daşan bulaqların saf suyundan içməkdən gözəl nə var?! Biz uşaq olanda böyüklərimiz deyirdilər ki, Qoşa bulağın, Təhməz bulağın və dağların qoynunda göz yaşı kimi dupduru axan bulaqların suyu şəfa qaynağıdır – yaxşı sudur, yüngül sudur. Saf sular mamırlı daşlardan süzülüb axır. Kəndin özündə isə illərdən bəri su qıtlığı yaşanırdı. Qız-gəlinlər sənəklə su gətirəndə bulaq başında uzun növbə yaranırdı.

Kəndin icra nümayəndəsi Novruz Ayvazov ədəb-ərkanla könüllərdə sevinc doğuran işlərdən böyük məhəbbətlə söhbət açır: – Nəhayət, gözlədiyimiz gün gəlib çatdı. Kəndimizdə içməli suyun çəkilməsi işi yekunlaşdı. İndi kəndimizdə hər ev gün ərzində fasiləsiz içməli su ilə təmin olunur. Su aydınlıqdır, saflıqdır, paklıqdır. Su qədər ömrünüz olsun! Dağ çeşmələrinin suyundan kəndimizdə min-min adam su içir, ürəklər sərinləyir, hamı "oxqay" deyir. Qazı, işığı, suyu bol olan kəndimiz həm də gözəlliklər məskənidir. İndi kəndarası yollara da işıq dirəklərindən nur süzülür. Sanki yollar Tanrı nuruna bələnib...

*Yeni nəşrlər*

# Milli musiqimizin tar ensiklopediyası

**Üzeyir Hacıbəyli adına Musiqi Akademiyası, "Musiqi dünyası" Beynəlxalq Elektron Elmi Nəşrlər Mərkəzinin və "Azərbaycan Nəşriyyatı" MMC-nin Xalq artisti, professor Fərhad Bədəlbəylinin rəhbərliyi ilə həyata keçirdiyi "Tar – Azərbaycan musiqi alətlərinin tacı" birgə layihəsi Prezident İlham Əliyevin 2026-ci il yanvarın 14-də təsdiq etdiyi "Azərbaycan mədəniyyəti – 2040" konsepsiyasında əksini tapan qloballaşma şəraitində milli kimliyin və milli-mənəvi dəyərlərin qorunması ilə bağlı müddəaların ruhuna tam uyğundur.**







Həmin layihə çərçivəsində hazırlanan dahi Üzeyir Hacıbəylinin 140 illik yubileyinə həsr olunan "Tar – Azərbaycan musiqi alətlərinin tacı" (2025, "Azərbaycan nəşriyyatı" MMC, Azərbaycan və ingilis dillərində) adlı rəqəmsal məlumatlarla təchiz olunan kitabın nəşri milli musiqi mədəniyyəti və elmi təfəkkür tariximizdə əlamətdar hadisədir. Kitabın ideya müəllifi və tərtibçisi, elmi redaktoru Əməkdar incəsənət xadimi, sənətşünaslıq doktoru, professor Tariyel Məmmədovun peşəkar işçi qrupu ilə birgə başlıca amalı qərinələrdən bu günə kimi milli irs xəzinəmizin "mədəni etnobrendi" səviyyəsinə qədər ucalan tar aləti barədə müfəssəl elmi-nəzəri audio-vizual ensiklopedik mənbəni ərsəyə gətirmək idi. Xatırladaq ki, nəşrin musiqi redaktoru bəstəkar, Əməkdar incəsənət xadimi Cavanşir Quliyev, məsul redaktoru sənətşünaslıq üzrə fəlsəfə doktoru Vidadi Qafarov, tərcüməçi Əməkdar mədəniyyət işçisi Tomris Babanlı, kutabın bədii tərtibatçısı Fəxriyyə Məmmədova, dizayner Alina Cahangirovadır.

Tar alətinin Azərbaycanın mədəni-tarixi təkamülü tarixində müstəsna yeri vardır. Kulturoloji diskursda tar aləti mədəniyyətimizin "etnobrend"i olaraq Azərbaycan xalqının etnik identikliyinin müsiqi atributudur. Müasirləri olduğumuz XXI əsrdə tar aləti nəinki lokal və ya regional, artıq qlobal səviyyədə Azərbaycana aid olan və mədəniyyətimizi tanıdan unikal etnomədəni hadisədir. UNESCO-nun tar alətini 5 dekabr 2012-ci ildə "Azərbaycan tar ifaçılıq sənəti və onun hazırlanma ustalığı" Bəşəriyyətin Qeyri-maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına daxil etməsi onun dünya mədəniyyəti kontekstində nadir sənət növünün olduğunu təsdiqləyir.

Tar milli və bəşəri mənəvi-mədəni dəyərlər xəzinəsinin ləl-cəvahiratıdır. Tar alətinin unikallığı ondan ibarətdir ki, o həm Şərq, həm də Avropa klassik musiqisini əks etdirən səslərin bütün zənginliyini parlaq şəkildə ifadə edir. Xüsusilə, Azərbaycan muğamının musiqi və fəlsəfi məzmununun dərin fəlsəfi qatlarının təcəssümünün tarsız təsəvvür etmək qeyri-mümkündür.

Təsadüfi deyildir ki, kitabın "Ön söz"ü tar alətinə ideoloji aspektdən yanaşmanı ehtiva edən akademik Rəfael Hüseynovun "Dinləyəni azərbaycançılığa kökləyən tarın portreti" adlı geniş elmi məqaləsi ilə başlayır. Akademik tarixi kulturoloji ekskurs nəticəsində tar alətinin portretini xalqımızın tale boyaları ilə təsvir edir.

Kitabın növbəti hissələrində tarın musiqi aləti kimi ifaçılıq xüsusiyyətlərinə, tarın yaranma və təkamül tarixinə müfəssəl ekskurs edilir. Azərbaycan folkloru nümunələrində ən qədim və paleomusiqi incəsənətinin izlərinin axtarışı kitabın müəllifinə həmin dövrdə Azərbaycan ərazisində ümumi prototürk dili və mədəniyyətinin etnogenetik proseslərdə etnik-mədəni dominantlıq təşkil etməsinin musiqi mədəniyyətinin təşəkkülünə və erkən etnomusiqi təfəkkürünün formalaşması proseslərinə mühüm təsir göstərməsi qənaətinə gətirib çıxarır.

Azərbaycan xalqının "səs idealı"-nı özündə daşıyan tarın quruluşu, onun düzəldilməsi sənəti və ənənələri, xüsusilə Mirzə Sadıq Əsəd oğlunun (Sadıqcan) tar islahatları kitabının ayrıca fəsillərində ətraflı şərh olunur. Burada diqqəti çəkən məqamlardan biri oldur ki, XIX əsrin 2-ci yarısında və XX əsrin əvvəllərində yaşayıb-yaradan Mirzə Sadıq Əsəd oğlu (Sadıqcan) professional musiqiçi kimi yalnız Qarabağda deyil, bütün Qafqazda, Yaxın və Orta Şərqdə məşhur olmuşdur. Sadıqcan tarın simlərini 11-ə çatdırıb kök sistemini təkmilləşdirməklə alətin akustik və ifaçılıq imkanlarını artırmışdır.

T.Məmmədovun qənaətinə görə, Mirzə Sadıqın tar reformasının daha bir mühüm nəticəsi kimi onun tərəfindən XIX əsrin ifaçılarının (xüsusilə İran ifaçıları) Azərbaycan tarına əlavə olunan "qeyri-ənənəvi" pərdələrinin çıxarılması Azərbaycan tarının 17 pilləli səs sitemini bərpa edilməsini və bu sistemin nəzəri-praktiki əsasını muğam ifaçılığına qaytarmasını görsədir.

"Tar və muğam" adlı fəsildə tar alətinin şifahi ənənəli professional musiqi janrları ilə, ilk növbədə, Azərbaycan muğam sənəti ilə sıx bağlı olduğu şərh olunur. Kitabın həmin hissəsində tar ifaçılığı və muğam ayrılmaz olan vahid mədəniyyət kimi təqdim olunur. Tar alətinin muğam janrı ilə bağlılığı tar ifaçılığı ənənələrinin və üslublarının Qarabağ, Bakı-Abşeron və Şirvan-Şamaxı muğam məktəbləri üzrə öyrənilməsinə rəvac verir.

Kitabda Azərbaycan bəstəkar və musiqişünaslarının tar aləti və tar ifaçılığının öyrənilməsinə həsr olunan elmi və publisistik əsərləri barədə ətraflı məlumat verilir. Burada qeyd olunur ki, Azərbaycanın görkəmli bəstəkarlarından Üzeyir Hacıbəyli, Qara Qarayev, Fikrət Əmirov, Niyazi, Əfrasiyab Bədəlbəyli və digərlərinin tarın tarixi, tar ifaçılığı, tədrisi, ustad tarzənlər, tar və muğam janrı haqqında qənaətləri maraqlı fikir xəzinəsidir.

"Tar və bəstəkarlıq yaradıcılığı" mövzusu kitabda ayrıca yer alır. Burada tar alətinin professional bəstəkarlıq yaradıcılığına ilk dəfə Azərbaycan klassik professional və milli bəstəkarlıq məktəbinin banisi Üzeyir Hacıbəyli tərəfindən gətirilməsi barədə ətraflı şərh verilir.

Müasir musiqi təhsilində tarın rolu danılmazdır. XX əsrin əvvəlində Azərbaycan tarı müasir Avropa tipli musiqi təhsilinə daxil edilmişdir. Kitabın "Azərbaycanın görkəmli tar ifaçıları (XIX-XX əsrlər)" adlı bölməsi ensiklopedik məlumat mənbəyidir. Burada Azərbaycan tar ifaçılığı sənətinin görkəmli ustadları barədə ətraflı bioqrafik məlumatlarla yanaşı, onların yaradıcılığı, xüsusilə hansı ifaçılıq məktəbinin varisi olduqları, ifa etdikləri muğamlar, iştirak etdikləri konsertlər haqqında maraqlı faktlar nəzərə çatdırılır.

Kitabın sonunda oxuculara arxiv yazıları toplusunu dinləmək üçün QR vasitəsilə "Tar – Azərbaycan musiqi alətlərinin tacı" elektron bazaya daxil olmaq imkanı yaradılır. Arxiv yazıları toplusunda 25-dən artıq tar ustadının 200-ə yaxın, ümumilikdə, 27 saat həcmində ifalarını onlayn dinləmək mümkündür. Rəqəmsal arxivdə tar üçün yazılmış və tar üçün işlənmiş əsərlərin kolleksiyası xüsusi yer alıb. Kitabda 1950-ci ildən bu günə kimi görkəmli tar ifaçılarının səs yazıları kolleksiyasının kataloqunda solist, ifa etdiyi əsər, tarix, xronometrajı, əsərin bəstəkarı, dirijoru və müşayiətçi haqqında məlumat verilir.

Milli müsiqimizin banisi Üzeyir Hacıbəyli Azərbaycan musiqi mədəniyyətinin strateji inkişaf yolunu təyin edərək Şərq musiqisinin təhsil sistemində mütləq yer almasını vurğulayırdı: "Avropa musiqisindən əlavə bir də Şərq musiqisi vardır və biz azərbaycanlılar Şərq əhlindən olduğumuza görə musiqi təhsili işində Şərq musiqisinə qarşı laqeyd qalarsaq, öz mədəni vəzifəmizi kamalınca ifa etməmiş olarıq. Tar isə Şərq musiqi təhsilini genişləndirə bilən alətlərdən ən qiymətlisi, ən mühümüdür".

Dahi Üzeyir Hacıbəyli bu kəlmələrində milli musiqi mədəniyyətimizin inkişaf yolunun strateji vektorlarını cızır: milli identikliyi qoruyaraq Qərb musiqi mədəniyyətinə açıq olmaq. O, tarı sadəcə, musiqi aləti kimi dəyərləndirmir, həm də Şərq musiqi nəzəriyyəsi və təhsilinin inkişaf etdirilməsində ən mükəmməl vasitə hesab edirdi. Belə ki, ötən əsrin başlanğıcından tar Azərbaycanda üçpilləli musiqi təhsili sisteminin bütün pillələrində tədris olunur.

Layihənin işçi qrupunun peşəkarlığından söz açarkən kitabın ingilis dilinə tərcüməçisi Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin əməkdaşı Əməkdar mədəniyyət işçisi Tomris Babanlının əməyi qeyd olunmalıdır. "Tar – Azərbaycan musiqi alətlərinin tacı" kitabı milli musiqi mədəniyyətimizin vurğunları üçün dəyərli mənbədir.

***Yeganə ƏLİYEVA,***
***AMEA Memarlıq və İncəsənət İnstitutunun aparıcı elmi işçisi, dosent***

*Məmməd Yaqubov – 85*

# Tanınmış riyaziyyatçı, sevimli müəllim

**Müəllimə ziyalı demək bu peşənin sahibinə verilən ən böyük tərifdir. O, işıqlı varlığı ilə təkcə tələbələrinin və şagirdlərinin həyatına istiqamət vermir, həm də bütün cəmiyyətin qaranlıqlarını aydınlatmaq üçün yol açır.**



Biz Məmməd Yaqubovun yetirmələri fərqli elm sahələrində, müxtəlif vəzifələrdə çalışsaq da, özümüzü yenə onun şagirdi, tələbəsi hesab edirik. Belə bir insanın yubileyində onun haqqında yazmaq çətin, məsuliyyətli, həm də şərəflidir.

Əslən Zəngəzur mahalından olan Məmməd Haqverdi oğlu Yaqubov 1941-ci il fevralın 2-də Culfa rayonunun Milax kəndində dünyaya göz açıb. Onun valideynlərinin Zəngəzurdan Naxçıvana pənah gətirmələri təsadüfi deyildi. Hortuyüz kəndi 1918-ci ildə erməni daşnaklarının vəhşiliyinin qurbanı olmuş, sakinlər dədə-baba torpaqlarından didərgin düşmüşdülər. İkinci Dünya müharibəsindən sonra Yaqubovlar Ərəfsəyə köçüblər. Onların ikinci qaçqınlıq həyatı 1988-ci il deportasiyasından sonra başlandı.

Məmməd Yaqubov 1962-ci ildə Azərbaycan Dövlət Universitetinin mexanika-riyaziyyat fakültəsini fərqlənmə diplomu ilə bitirib və həmin il bu ali məktəbdə aspiranturaya daxil olub. O, 1966-cı ildə Q.Əhmədov və S. Nəsibovun elmi rəhbərliyi ilə "Qeyri-xətti tənliklərin həllərinin budaqlanması və dayanıqlığı" mövzusunda namizədlik dissertasiyasını müdafiə edib. Məmməd Yaqubov müəllimi Qoşqar Əhmədov barədə: "O, mənim həm müəllimim, həm də elmi rəhbərim olub. Biz onunla yalnız müəllim-tələbə deyil, həm də ata-oğul, dost və qardaş olmuşuq".

1965-ci ildən etibarən diferensial və inteqral tənliklər kafedrasının assistenti olaraq fəaliyyətə başlayan Məmməd müəllim Qoşqar Əhmədovun təşkil etdiyi və tamamilə yeni bir sahə olan "Optimal idarəetmənin riyazi nəzəriyyəsi" mövzusunda elmi seminarın daimi iştirakçılarından biri olub.

Alimin 1965-ci ildə başladığı optimal idarəetmə nəzəriyyəsinin riyazi məsələləri üzrə tədqiqatları 1991-ci ildə Rusiyanın Sankt-Peterburq şəhərində "Paylanmış parametrli sistemlərdə optimal sürüşkən rejimlər və optimallıq üçün zəruri şərtlər" mövzusunda doktorluq dissertasiyası müdafiə etməsi ilə başa çatıb. Onun bu sahədəki elmi nailiyyətləri, Moskva, Sankt-Peterburq, Kiyev, Tbilisi, Yekaterinburq, Minsk, İrkutsk və Daşkənd şəhərlərindəki optimal idarəetmə məktəbləri mütəxəssisləri tərəfindən yüksək qiymətləndirilmiş və elmi nəticələri tanınmış beynəlxalq elmi jurnallarda dərc olunub.

Tanınmış riyaziyyatçı alim 1965-ci ildən BDU-nun diferensial və inteqral tənliklər kafedrasında assistent, baş müəllim, dosent vəzifələrində çalışıb. 1990-cı ildən isə həmin təhsil ocağında yeni yardılan idarəetmə nəzəriyyəsinin riyazi üsulları kafedrasında işləyib və 1997-ci ildən 2019-cu ilədək həmin kafedranın müdiri olub. Məmməd Yaqubovun elmi-pedaqoji fəaliyyətini dövlətimiz yüksək qiymətləndirib. 1999-cu ildə "Əməkdar müəllim" fəxri adna layiq görülüb. 2009-cu ildə "Şöhrət" ordeni ilə təltif edilib, 2019-cu ildə isə Bakı Dövlət Universitetinin 100 illik yubileyində ona "Əməkdar elm xadimi" adı verilib.

Professor Məmməd Yaqubov 1972-1994-cü illərdə Bakı Dövlət Universitetinin (BDU) mexanika-riyaziyyat fakültəsinin Elmi Şurasının elmi katibi kimi fəaliyyət göstərərək elm və təhsilin inkişafında əvəzsiz rol oynayıb. O yalnız elmi fəaliyyətində deyil, həm də ali təhsil sistemində göstərdiyi xidmətlərlə böyük nüfuz qazanıb. Məmməd müəllim müxtəlif dövrlərdə Ali Attestasiya Komissiyasının İxtisaslaşdırılmış Müdafiə Şuralarının elmi katibi vəzifəsini də böyük məsuliyyətlə icra edərək elmimizin gələcəyinə yönəlmiş mühüm addımlar atıb.

Son illərdə Məmməd Yaqubov psevdo-parabolik tənliklərlə (3 tərtibli xüsusi törəməli tənliklərlə) təsvir olunan və demək olar ki, tədqiq edilməmiş optimal idarəetmə məsələlərini dərindən araşdırmağa başlamışdır. Onun bu sahədəki tədqiqatları yalnız riyaziyyatın sərhədlərini genişləndirmək deyil, həm də praktiki məsələlərin həllində böyük əhəmiyyət kəsb edir. O, optimallıq üçün zəruri şərtlər və kafi şərtlər üzərində işləyərək xətti üçtərtibli tənliklər üçün kvadratik meyarlı optimal idarəetmə məsələlərində yeni mühüm nəticələr alıb.

Məmməd Yaqubov, eləcə də professorlar Q.Əhmədov və K.Həsənovun uzun illər ərzində "Adi diferensial tənliklər" kursundan apardıqları mühazirələr əsasında yazılmış "Adi diferensial tənliklər" adlı dərslik ilk dəfə 1978-ci ildə nəşr olunub. Bu dərslik elmin və təhsilin zirvəsinə gedən yolda atılmış mühüm bir addım idi və indi də bu fənnin tədrisinin əsasında durur. Qeyd edilərək ki, bu dərslik adi diferensial tənliklər sahəsində dünyada məlum olan dərsliklər içərisində xüsusi yer tutur. 2015-ci ildə həmin dərsliyə əlavələr və dəyişikliklər edilərək onu yenidən nəşr etmək zərurəti yaranıb. Bu da göstərir ki, Məmməd Yaqubovun elmi irsi heç zaman köhnəlmir, daim yenilənir və inkişaf edir.

Xatırladaq ki, Məmməd müəllim ali məktəblər üçün 2, orta məktəblər üçün 7 dərsliyin, ali məktəblər üçün 4, orta məktəblər üçün isə 12 dərs vəsaitinin, 100-dən çox elmi, 20-dan çox metodik məqalənin müəllifidir. 1985-ci ildən Amerika Riyaziyyat Cəmiyyətinin üzvü və riyaziyyat üzrə ABŞ-da nəşr olunan referativ jurnalın referentidir.

Professor Yaqubov 1992-ci ildən başlayaraq ümumtəhsil məktəblərində riyaziyyatın tədrisinin vəziyyəti ilə yaxından tanış olmaq məqsədilə Bakı məktəblərinin birində müəllimlik etmişdir. Sonra isə nizamnaməsini yazdığı bir məktəb-liseydə dərs demişdir. Bu fəaliyyətinə görə Təhsil Nazirliyi ona ümumtəhsil məktəbləri üçün tədris proqramları tərtib etmək məqsədilə kollektiv yaratmağı təklif edib. Sonradan formalaşan bu kollektivin hazırladığı proqramlar 2018-ci ilə qədər tətbiq edilib.

Bu proqramlar əsasında M.Yaqubovun rəhbərliyi ilə ümumtəhsil məktəbləri üçün V-XI siniflərin dərslikləri yazılıb və bu dərsliklər 2002-ci ildən 2018-ci ilə qədər istifadə olunub. Hazırda əksər müəllimlər yenə də bu dərsliklərdən yararlanırlar. Bu yolla qazanılmış təcrübə ona 1998-ci ildən Dövlət İmtahan Mərkəzində (keçmiş Tələbə Qəbulu üzrə Dövlət Komissiyası) "Riyaziyyat" seminarının rəhbəri və ekspert qrupunun sədri kimi çox kömək edib. Həm da bu təcrübə əsasında yazılmış və "Abituriyent" jurnalının həm Azərbaycan dilində, həm də rus dilində nəşr etdiyi "Riyaziyyat" vəsaiti abituriyentlərin stolüstü kitabı olub.

Bu uzun və zəngin təcrübə yalnız Məmməd Yaqubovun elmi fəaliyyətini deyil, həm də təhsildəki mükəmməlliyini göstərir. O təkcə riyaziyyat müəllimi deyil, eyni zamanda, hər bir tələbənin həyatına təsir edən, onların gələcəyini işıqlandıran bir ziyadır. Məmməd Yaqubov öz əsərləri ilə elmin və təhsilin zirvələrinə çatmaq istəyən hər kəs üçün bir yol göstərən, əvəzsiz bir rəhbər və bələdçidir. Onun irsi, təhsil sahəsindəki ən böyük sərvətlərdən biri olaraq tarixdə qalacaq və gələcək nəsillərə ilham verəcək.

Məmməd Yaqubov yalnız bir müəllim deyil, həm də böyük alim və tədqiqatçıdır. Onun rəhbərliyi altında 16 tədqiqatçı namizədlik dissertasiyasını müdafiə edib, bir tədqiqatçının isə elmi məsləhətçisi olub. O yalnız elmi tədqiqatlar aparmaqla kifayətlənməyib, həm də 20-dən çox dissertasiya müdafiəsində rəsmi opponent kimi çıxış edib. Məmməd Yaqubovun elm dünyasında qazandığı hörmət, onun yalnız akademik fəaliyyətinin deyil, həm də öz elmi irsinin təsir gücünün bariz nümunəsidir.

Elmi tədqiqatla paralel olaraq, Məmməd Yaqubov 1965-ci ildən etibarən tədrisə də önəm verib. O, adi diferensial tənliklər və variasiya hesabı üzrə apardığı mühazirə və məşğələlərdə hər bir detala diqqət edərək tələbələrinə yalnız bilik deyil, həm də düşüncə tərzi, elmi araşdırmaların incəliklərini öyrədib. Onun yazdığı dərsliklər və elmi əsərlər, həm indiki, həm də gələcək nəsillər üçün əvəzsiz bir qaynaq olaraq qalacaq. Məmməd Yaqubovun adı yalnız riyaziyyatın incəliklərində deyil, həm də elmə olan sevgisi, tələbələrinə verdiyi dəyərlə əbədi olaraq yaddaşlarda yaşayacaq.

Məmməd Yaqubov çox məsuliyyətli və tələbkar bir insandır. Uzunmüddətli pedaqoji təcrübə isə ona imkan verir ki, hər dərs əvvəlkilərindən daha zəngin və dolğun olsun, monotonluqdan uzaq olsun.

Məmməd Yaqubovu biz yalnız iş yoldaşımız, müəllimimiz kimi deyil, həm də həssas, qayğıkeş, ətrafındakıları dərk edən, canıyanan, əsl dost kimi tanıyırıq. Görkəmli riyaziyyatçı alim, professor Məmməd Yaqubovu 85 illik yubileyi münasibətilə səmimi qəlbdən təbrik edir, ona uzun ömür, cansağlığı, Azərbaycan elminin və təhsilinin inkişafı yolunda əzmkarlıq və fədakarlıq arzulayırıq!

***Ziyatxan ƏLİYEV,***
***BDU mexanika-riyaziyyat fakültəsinin dekanı,***

***Yaşar MEHRƏLİYEV,***
***kafedra müdiri,***

***Şakir YUSUBOV,***
***dosent***

*Zaman və biz*

# Adət-ənənələrdə varislik milli kimliyi yad təsirlərdən qoruyur

## *“Oğullar”ın “atalar”dan uzaqlaşması bizi hara aparır?*





**Gənc nəslin ailə dəyərlərini, adət-ənənələri necə qəbul etməsi və qoruması həmişə aktual olub. Lakin nəsillər arasındakı fərq heç vaxt bugünkü qədər kəskin hiss edilməyib. Texnologiyanın sürətlə inkişaf etdiyi, qloballaşmanın sərhəd tanımadığı bir dövrdə gənc nəsil artıq fərqli həyat tərzinə meyillənib. Nəticədə isə, klassik ailə modeli ilə müasir yaşam arasında fərq yaranır. Milli-mənəvi dəyərlərə sadiq ailələrdə yetkinləşmiş yaşlı insanlarla onların rəqəmsal dövrdə böyüyən övladlarının dünyagörüşləri arasında uyğunsuzluq nədən qaynaqlanır və bizi hara aparır?**

Gənclərin ailə və milli kimliklə bağlı münasibəti çox zaman onların Qərb həyat tərzinə meyilliliyi ilə əlaqələndirilir. Problemin kökündə, sadəcə, texnoloji asılılıq deyil, həm də dünyaya baxış tərzi, prioritetlər və ünsiyyət formaları dayanır. Valideynlər üçün “uğur” anlayışı daha çox sabit iş, diplom və cəmiyyətdə qəbul olunmuş status deməkdirsə, müasir gənclər üçün nailiyyət özünüifadə, azadlıq və yaradıcılıqla ölçülür. Onlar iyerarxik qaydalardan çox, şəxsi rahatlıqlarını üstün tuturlar. Bu fərqlilik çox vaxt ailə daxilində anlaşılmazlığa yol açaraq valideyn-övlad münasibətlərini uçuruma aparır. Valideyn övladının saatlarla kompüter arxasında oturmasını vaxt itkisi kimi qiymətləndirərkən, gənc bəlkə də orada gələcək karyerasını qurur və ya dünyanı dərk edir.



Nəsillər arasındakı fərq özünü gənclərin dilində, danışıq tərzində də büruzə verir. Onların leksikonlarında qısaldılmış sözlər, xarici terminlər və yeni məna ilə yüklənmiş ifadələr yaşlı nəslə “sirli kod sistemi” kimi görünür. Lakin fərq yalnız lüğət tərkibində deyil, həm də düşüncə tərzindədir. Müasir gənclər hər şeyi sürətlə qavrayır, saatlarla davam edən nəsihətlərə qulaq asmaqdan sıxılır, onlara deyilən hər şeyi kor-koranə qəbul etmir, səbəbini araşdırırlar.

Valideynlər isə illərin təcrübəsinə güvənərək dediklərinin müzakirə olunmadan həqiqət kimi qəbul edilməsini istəyirlər. Bu məqamda fikir ayrılığı yaranır: bir tərəf “mən bilirəm, çünki yaşamışam” deyərək keçmiş təcrübələrinə söykənir, digər tərəf isə “sənin yaşadığın dünya artıq keçmişdə qalıb” arqumentini nümunə gətirərək özünü haqlı sayır. Əslində hər iki tərəf özü-özlüyündə haqlıdır.

Lakin valideynlərin qoruyucu instinkti ilə gənclərin “yeni dünya kəşf etmək” istəyi toqquşduqda ailədaxili ünsiyyət zəifləyir. Nəsillərarası mənəvi körpülər dağıldıqda mənsub olduğumuz dəyərlər sistemini gələcəyə daşımaq da çətinləşir. Beləcə, zaman keçir, nəsillər bir-birini əvəz edir. Bəs zamanın bu amansız axınında bizi biz edən mənəvi dəyərlərimizi qoruyub saxlaya bilirikmi?

**Mövzu ilə bağlı sosioloq Üzeyir Şəfiyevin fikirlərini öyrəndik. Ekspert qeyd etdi ki, valideyn və övlad arasındakı münasibətlər tarixin bütün dövrlərində aktual olub:**

–“Atalar və oğullar” məsələsi, valideyn-övlad münasibətində problem eramızdan əvvəldən tutmuş günümüzə qədər aktuallığını qoruyub. Həmişə atalar oğullardan narazı olublar. Fəlsəfədə “inkarı inkar” qanunu var; hər yeni nəsil özündən əvvəlki nəsli müəyyən mənada qəbul etmir və onlara tənqidi yanaşır. Lakin əsas məsələ budur: biz orta və yaşlı nəsil olaraq gənclərə mənəvi baxımdan nə aşılamışıqsa, onun da nəticəsini görürük. Odur ki, nəsə tələb etməzdən əvvəl onlara nə verdiyimiz barədə düşünməliyik. Gənclərimizi “sosial anomiya”dan – mənəvi boşluqdan qorumaq üçün onlara sağlam sosiallaşma mühiti yaratmalı və düzgün dəyərlər təqdim edən institutlar formalaşdırmalıyıq.

–Əslində, nəsillər arasında kəskin uçurum yoxdur. Bu gün İKT texnologiyaları və rəqəmsal cəmiyyət bütün nəsillərə bu və ya digər şəkildə təsir göstərir. İstər “Z”, istər “Alfa”, istərsə də yeni formalaşan “Beta” nəsli olsun, bunlar birbaşa texnologiyanın təsiri ilə sosiallaşan nəsillərdir. Lakin yaşlı və orta nəsil də bu prosesdən kənarda qalmayıb. Bu gün onlar da rəqəmsal imkanlardan istifadə edirlər. Məhz bu baxımdan nəsillər arasında texnoloji qütbləşmə yoxdur.

**Müsahibimizə görə, problem texnologiyanın özü deyil, onun yaratdığı qlobal təsirlərdir:**

– Hazırda mədəniyyətlər və dünyagörüşləri arasında qarşılıqlı inteqrasiya prosesi gedir. “Açıq cəmiyyət” nəzəriyyəsinin banisi Karl Popperin dediyi kimi, cəmiyyətlər bir-biri ilə müsbət və ya mənfi təcrübələri mübadilə edir. Lakin bu “əridici qazan”da bəzi mədəniyyətlər özünəməxsusluğunu itirir. Biz müasir dünyaya öz milli identikliyimizi saxlayaraq inteqrasiya etməliyik.

**Sosioloq müasir texnologiyalar vasitəsilə gənclərə aşılanan yad təfəkkür formalarının nəsillər arasında süni uçurumlar yaratdığını söylədi:**

–Hazırda bəzi Qərb mərkəzli güclərin ictimai nəqliyyatda böyüklərə yer verməmək kimi düşüncələri gənclərimizə “müasirlik” adı ilə sırımağa çalışdıqlarını müşahidə edirik. Bu, əslində, nəsillərarası konflikt yaratmaq və kollektiv şüurumuzu zəiflətmək üçün düşünülmüş addımdır. Halbuki, Azərbaycan cəmiyyətində ağsaqqal və ağbirçəyə hörmət hər zaman olub. İctimai nəqliyyatda və ya digər məkanlarda böyüyə yer vermək, sadəcə, bir nəzakət qaydası deyil, milli-mənəvi arxetipimizdir.

Atalarımız əbəs yerə deməyiblər: “İmansız yerdə otur, ağsaqqalsız yerdə oturma”. Bu aforizm bizim cəmiyyət üçün böyüyün fikrinin və varlığının nə qədər əhəmiyyət kəsb etdiyini göstərir. Buna görə də milli-mənəvi və əxlaqi dəyərlərimizi, adət-ənənələrimizi qorumalı, gələcək nəsillərə düzgün ötürməliyik ki, milli kimliyimiz zamanın sınaqlarından keçərək əbədiyaşarlıq qazansın.

**Müsahibimiz qeyd etdi ki, sosial şəbəkələrin mənfi təsirlərindən qorunmağın yeganə yolu valideynlərin övladlarına daha çox vaxt ayırmalarıdır:**

–Uşaqları və gəncləri sosial şəbəkələrdəki neqativ, toksik məlumatlardan və qəsdən yaradılan aqressiv müzakirələrdən uzaq tutmaq mütləqdir. Əgər valideyn övladına vaxt ayırmasa, həmin boşluğu sosial şəbəkələr dolduracaq. Valideyn övladı ilə zaman keçirməlidir ki, öz mənəvi-əxlaqi dəyərlərini ona aşılaya və ötürə bilsin.

**Bəzi valideynlərin gənc nəslə qarşı mühafizəkar yanaşmasının fərdi xarakter daşıdığını vurğulayan sosioloq, cəmiyyətdə nəsillərarası həmrəyliyin açarının məhz təcrübə ilə yeniliyin sintezində olduğunu bildirdi:**

–Gənc nəsli qəbul etməmək ümumi bir qayda deyil. Bu, daha çox fərdi yanaşmadan və ailə mühitindən asılıdır. Övladının innovativ düşüncəsi və kreativliyi ilə qürur duyan, ondan faydalanan valideynlər də az deyil. Onlar anlayırlar ki, yeni nəsil daha çevik və operativdir. Əksinə, köhnə stereotiplərlə yaşamaq nəsillər arasındakı körpüləri zədələyə bilər.

Yaşlı nəslin illərlə topladığı təcrübə və müdrikliyi ilə gənclərin çevikliyi, dinamikliyi və kreativ düşüncəsi birləşəndə ortaya mükəmməl nəticə çıxır. Bu sintez qarşılıqlı anlaşmanı və gələcəyimizi təmin edən əsas amildir. Unutmamalıyıq ki, gənclərin uğurları da, səhvləri də bizimdir. Mənəvi dəyərlərin gələcək nəsillərə sağlam şəkildə ötürülməsi üçün ailə, məktəb və media institutları öz funksiyalarını düzgün yerinə yetirməlidir. Bu prosesdə hər bir fərd öz rolunu dərk etməli, valideyn öz valideynlik missiyasını, övlad isə övladlıq məsuliyyətini bilməlidir.

**Psixoloq Vəfa Fazilova da milli dəyərlərimizin gənclərimizə aşılanmasında ailə mühitinin böyük əhəmiyyət kəsb etdiyini vurğuladı:**



–Azərbaycan cəmiyyətində ailə hər zaman müqəddəs hesab olunub. Böyüyə hörmət, kiçiyə qayğı, valideyn sözünə ehtiram, ailə birliyi, qohumluq əlaqələri milli kimliyimizin əsas sütunlarıdır. Keçmişdə bu dəyərlər ailə daxilində, gündəlik həyatın təbii hissəsi kimi övladlara ötürülürdü. Qloballaşma dövründə gənclərin fərdi azadlıq meyilləri nəsillərarası münasibətlərdə anlaşılmazlıqlara səbəb olur.

Müasir dövrdə vəziyyət müəyyən mənada fərqlidir. Qloballaşma, texnologiyanın sürətli inkişafı, sosial şəbəkələr və fərqli mədəni təsirlər gənc nəslin dünyagörüşünü dəyişir. Gənclər daha sərbəst düşünməyə, fərdi azadlıqlarına üstünlük verməyə meyillidirlər. Bu isə bəzən valideynlə övlad arasında fikir ayrılığına, nəsillərarası anlaşılmazlıqlara səbəb olur. Valideynlər ənənəvi dəyərlərin itirildiyini düşünür, gənclər isə köhnə yanaşmaların onların həyatında müəyyən məhdudiyyətlər yaratdığını hesab edirlər.

**Vəfa Fazilova mənəvi dəyərlərin tamamilə itmədiyini, sadəcə, müasir dövrün tələblərinə uyğun təzahür formalarının transformasiyaya uğradığını vurğuladı:**

– Gerçək olan odur ki, zaman keçdikcə mənəvi dəyərlər tamamilə yox olmur, sadəcə, tərzini dəyişir. Məsələn, hörmət anlayışı əvvəlki kimi sərt itaət formasında deyil, qarşılıqlı anlayış və dialoq şəklində özünü göstərir. Ailə bağları zəifləyirmiş kimi görünsə də, bir çox gənc hələ də valideynlərini həyatının əsas dayağı, dəstəkçisi hesab edir. Sadəcə, bu münasibətlər fərqli formada, daha müasir düşüncə tərzi ilə qurulur.

**Psixoloq nəsillərarası harmoniyanın təmin olunmasında tərəflərin üzərinə düşən sosial məsuliyyətdən və müxtəlif ictimai institutların bu prosesdəki rolundan da danışdı:**

– Burada məsuliyyət həm valideynlərin, həm də gənclərin üzərinə düşür. Valideynlər zamanın dəyişdiyini qəbul etməli, övladlarını dinləməyi və anlamağı bacarmalıdırlar. Gənclər isə milli köklərini, ailə dəyərlərini unutmayaraq azad düşüncə ilə bu məsuliyyəti balanslaşdırmalıdırlar. Məktəb, cəmiyyət və media bu prosesdə mühüm rol oynayır, onlar da dəstəyini əsirgəməməlidir.

Zaman axınında mənəvi dəyərlərimizi qorumaq mümkündür, lakin bu, avtomatik baş vermir. Dəyərlər yalnız qadağalarla deyil, sevgi, hörmət və qarşılıqlı anlaşma ilə nəsildən-nəslə ötürülür. Azərbaycan mühitində əsas məsələ ənənə ilə müasirliyi qarşı-qarşıya qoymaq deyil, onları bir-birini tamamlayan dəyərlər kimi qəbul etməkdir. Bu balans qorunduğu təqdirdə nəsillər dəyişsə də, mənəvi dəyərlərimiz yaşamağa davam edəcək.

Mütəxəssislərin dediklərindən göründüyü kimi, nəsillərarası fərqlilik qaçılmazdır, lakin texnologiyanın gətirdiyi rəqəmsal transformasiyalar milli-mənəvi dəyərlərimizi sarsıtmır, onların yeni formada təzahür etməsi üçün imkanlar yaradır. Mənəvi dəyərlərimizi müasir dövrün tələblərinə uyğun olaraq gənc nəslə ötürmək isə öz əlimizdədir. Milli kimliyinə sahib çıxmayan cəmiyyət müasirləşmə yolunda uğur qazana bilməz. Bu baxımdan, dəyərlərimizin zamanın sınağından zənginləşərək çıxmasını təmin etmək hər birimizin mənəvi borcudur.

***Elenora HƏSƏNOVA***
***XQ***

# Azərbaycan dövləti ana dilimizin mötəbər himayədarıdır

**Azərbaycan ədəbi dilinin saflığının qorunması və zənginləşdirilməsi, onun işləkliyinin yüksək səviyyədə təmin edilməsi müstəqil dövlətimizin milli-mənəvi dəyərlərimizin himayə edilməsi ilə bağlı siyasətində önəmli yer tutur. Bu sahədə Prezident İlham Əliyevin ardıcıl və prinsipial mövqeyini elmi-mədəni ictimaiyyət məmnunluq və minnətdarlıqla dəstəkləyir.**




Dövlət başçısı Azərbaycan dilini milli kimliyimizin, dövlətçiliyimizin və mədəni suverenliyimizin əsas dayağı kimi qiymətləndirir və bu istiqamətdə məqsədyönlü siyasət həyata keçirir.

Ana dilimizin qorunması, həm şifahi, həm də yazılı formada düzgün işlədilməsi, zənginləşdirilməsi, cəmiyyətdə mövqeyinin möhkəmləndirilməsi ilə bağlı dövlət dil siyasətini ümummilli lider Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı, Prezident İlham Əliyev ardıcıl və uğurla davam etdirir.

Prezidentin bu sahədə imzaladığı konseptual sənədlər, verdiyi göstərişlər, qarşıya qoyduğu tələblər müsbət nəticələrini verir. Naxçıvan və Mingəçevir şəhərlərində “Ana dili” abidələrinin ucaldılması da Azərbaycan dilinə göstərilən yüksək ehtiramın və qayğının timsalıdır. Ölkə rəhbəri İlham Əliyevin müxtəlif məclis və görüşlərdəki çıxışları zamanı Azərbaycan dilinə, əlifbasına, mədəniyyətinə, incəsənətinə və ümumilikdə, milli kimliyimizə xüsusi qayğı ilə yanaşması ana dilimizə sevgi və ehtiramın ən yüksək nümunəsidir. Prezidentin rəsmi çıxışları və nitqləri ədəbi dilə həssas və ciddi münasibət örnəyidir.

Milli dilçilikdə mövcud problemlərin həlli məqsədilə Prezident İlham Əliyevin 2012-ci il 23 may tarixində imzaladığı sərəncamda Azərbaycan dilinin digər türk dilləri ilə qarşılıqlı əlaqələrinin araşdırılması, müasir dilçilik məsələlərinin nəzəri baxımdan öyrənilməsi, ana dilimizin keçdiyi inkişaf mərhələlərini dolğun şəkildə əks etdirən fundamental elmi əsərlərin hazırlanması kimi mühüm məsələlər öz əksini tapmışdır.

Dövlət başçısının 2013-cü il 9 aprel tarixli sərəncamı da Azərbaycan dilinə göstərilən diqqət və qayğının növbəti təzahürüdür. Bu sənəddə 2013–2020-ci illər ərzində qloballaşma şəraitində Azərbaycan dilinin zamanın tələblərinə uyğun istifadəsinin təmin edilməsi, dilçiliyin dövlət səviyyəsində inkişafı, elmi müəssisələrin maddi-texniki bazasının gücləndirilməsi, dilçiliyin prioritet istiqamətlərinin müəyyənləşdirilməsi, qədim dillərin tədqiqi, Azərbaycan dilinin dövlət dili kimi möhkəmləndirilməsi, tədrisi, lüğət tərkibinin zənginləşdirilməsi, qrammatik quruluşunun qorunması, söz yaradıcılığına nəzarətin artırılması, nitq mədəniyyəti sahəsində kompleks tədbirlərin həyata keçirilməsi kimi mühüm vəzifələr qarşıya qoyulmuşdur.

Eyni zamanda, kütləvi informasiya vasitələrində, televiziya və radio kanallarında, internet məkanında və sosial şəbəkələrdə ədəbi dil normalarının pozulmasının qarşısının alınması, Azərbaycan dilində elektron resursların, interaktiv və rəqəmsal dərsliklərin hazırlanması da həmin sərəncamda xüsusi yer tutur.

Prezident İlham Əliyevin 2018-ci il 1 noyabr tarixli “Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında” fərmanı isə ana dilimizin inkişafı baxımından mühüm tarixi sənəd kimi xüsusi əhəmiyyət daşıyır. Bu sənəd dilin normativ müdafiəsini gücləndirməklə yanaşı, müasir dil təhlükəsizliyi anlayışının qurumlaşmış əsaslarını formalaşdırmışdır.

Ana dili ilə bağlı məsələlərin davamlı nəzarət və himayəyə möhtac olduğunu Prezident İlham Əliyevin bu ayın əvvəlində yerli televiziya kanallarına verdiyi müsahibədə söylədiyi mülahizələr bir daha hamıya anlatdı. Dövlət başçısı həmin xatırlatmasında Azərbaycan dilinə münasibətini açıq və prinsipial şəkildə ifadə edərək bildirdi: “Əgər biz müstəmləkəçilik illərində dilimizi qoruya bilmişiksə və bizim əcdadlarımız onu bizə əmanət veriblərsə, necə ola bilər ki, biz bu gün bu dilimizi qorumayaq? Bəzən bilərəkdən, bəzən bilməyərəkdən dilimizə daxil olan xarici kəlmələr - onlar dilimizi zənginləşdirmir və o kəlmələri istifadə edənləri daha ağıllı etmir. Biz Azərbaycan dilimizi qorumalıyıq və Azərbaycan dilinin qoruyucusu Azərbaycan dövlətidir”.

Bu həssas münasibət Prezident İlham Əliyevin dil məsələsinə yalnız mədəni deyil, strateji yanaşdığını göstərir. Burada dilin xarici təsirlərdən qorunması milli sərvət, dövlətin məsuliyyət daşıdığı fundamental dəyər kimi təqdim olunur. Dövlət başçısı dəfələrlə vurğulayıb ki, ədəbi dilin qorunması dövlətçilik məsələsidir və bu, təsadüfi deyil.

Prezidentin əməli fəaliyyətində gerçəkləşən dövlət dil siyasəti xalq – lider birliyinin möhkəm təməli üzərində qurulub. Bu anlamda dil həm kollektiv yaddaşı formalaşdırır, həm milli kimliyi möhkəmləndirir, həm də cəmiyyətdə birliyi təmin edən əsas vasitədir. Məhz bu səbəbdən dövlət başçısı dilin qorunmasını milli təhlükəsizliyin prioritet məsələlərindən biri kimi dəyərləndirir.

Müsahibədə diqqətçəkən məqamlardan biri də tarixi müstəmləkəçilik təcrübəsinə verilən qiymətdir. Prezident bu prosesi yalnız siyasi deyil, eyni zamanda, psixoloji və mədəni təsir kimi dəyərləndirir. Bu baxımdan dilin qorunması milli şüurun və mədəni müqavimətin əsas mexanizmi kimi təqdim olunur.

Prezident İlham Əliyev Azərbaycan dilinin tarixi davamlılığını xüsusi vurğulayaraq qeyd edir ki, bu gün danışdığımız dil ulu babalarımızın danışdığı dilin əsas mahiyyətini qoruyub saxlamışdır. Bu fakt Azərbaycan dilinin güclü fonetik və morfoloji sistemə, eləcə də möhkəm ədəbi ənənəyə malik olduğunu göstərir.

Dövlət başçısının xarici sözlərə münasibəti də diqqətəlayiqdir: “Dilimizi nə qədər çox qorusaq, nə qədər saf, təmiz saxlasaq, o qədər də millətimiz, necə deyərlər, saf olacaq və milli kimliyimiz həmişə bərqərar olacaq”. Prezident beynəlxalq terminologiyanın zəruriliyini qəbul etsə də, əsassız, imitasiya xarakterli alınmaların dilin daxili harmoniyasını pozduğunu açıq şəkildə bildirir. Bu mövqe müasir dil təhlükəsizliyi anlayışı ilə tam uzlaşır.

Müsahibədə diaspor məsələsinə toxunulması Prezidentin dil siyasətinin yalnız ölkə daxilini deyil, qlobal miqyası əhatə etdiyini göstərir: “Dünyada 50 milyon azərbaycanlı yaşayır, amma əzəli, əbədi, ədəbi dili qoruyan bizik və çox istəyirəm ki, xaricdə yaşayan azərbaycanlılar da Azərbaycan dilini mükəmməl bilsinlər. ... Azərbaycanlıların yaşadıqları bütün yerlərdə onlayn Azərbaycan dili məktəbləri olmalıdır ki, bizim uşaqlarımız öz ana dillərini bilsinlər”.

Möhtərəm Prezidentin göstərişi ilə xaricdə yaşayan azərbaycanlılar üçün onlayn dil məktəblərinin yaradılması dilin nəsildən-nəslə ötürülməsi və milli bağların qorunması baxımından strateji əhəmiyyət daşıyır.

Azərbaycan dilinin saflığının qorunması və inkişaf etdirilməsi işində Azərbaycan Milli Elmlər Akademiyasının Nəsimi adına Dilçilik İnstitutunun üzərinə birbaşa məsul vəzifələr düşür. Bu milli məsuliyyəti dərindən dərk edən institutun kollektivi ana dilimizin düzgün və səlis istifadəsinin keşiyində dayanır, onun təbliği, qorunması, zənginləşdirilməsi və yad ünsürlərdən təmizlənməsi istiqamətində ardıcıl elmi araşdırmalar aparır.

“Azərbaycan dilinin orfoqrafiya lüğəti”nin hazırlanması, toponimlərin mənşəyini araşdıran toponimika və Azərbaycan dilinin müasir işlənmə vəziyyətini kütləvi informasiya vasitələrində və ictimai mühitdə sistemli şəkildə elmi təhlil edən monitorinq və linqvistik təhlil şöbələrinin yaradılması və digər tədbirlər ana dilimizin saflığının və inkişafının təmin olunmasına xidmət edən mühüm addımlardır.

Azərbaycan dilinin qorunması və inkişafı Prezident İlham Əliyevin həyata keçirdiyi dil siyasətinin prioritet istiqamətlərindən biridir. Dövlət başçısının ardıcıl və prinsipial mövqeyi Azərbaycan dilinin inkişafına elmi əsaslar qazandırır. Dilçilik İnstitutunda aparılan orfoqrafik tədqiqatlar, terminologiya işləmələri və dilin monitorinqi yönümlü araşdırmalar Prezidentin dil siyasətinin elmi dayaqlarını təmin edir və onun praktiki icrasına dəstək verir.

Dövlət başçısının müəyyən etdiyi strateji istiqamətlər çərçivəsində dil təhlükəsizliyinin təmin olunması və ədəbi dilin cəmiyyətdə mövqeyinin gücləndirilməsi üçün bir sıra əsas vəzifələr önə çıxır. İlk növbədə, media mühitində dilə struktur səviyyəsində məsuliyyət möhkəmləndirilməli, kütləvi informasiya vasitələrində ədəbi dil normalarına riayət olunması sistemli nəzarət mexanizmləri ilə təmin edilməlidir. Təhsil sistemində “dil təhlükəsizliyi” anlayışı ayrıca elmi-praktik istiqamət kimi formalaşdırılmalı, bu sahədə metodik və konseptual yanaşmalar hazırlanmalıdır.

Sosial şəbəkələrdə ədəbi dilin nüfuzunun artırılması məqsədilə elmi əsaslara söykənən tövsiyələr işlənib hazırlanmalı, xaricdə yaşayan soydaşlarımız üçün Azərbaycan dilinin qorunması və tədrisi istiqamətində fəaliyyət göstərən onlayn dil mərkəzlərinin elmi-metodik bazası genişləndirilməlidir. Bu istiqamətdə həyata keçirilən tədbirlər Prezidentin dil siyasətinin səmərəli icrasına və Azərbaycan dilinin inkişafına xidmət edir.

Göründüyü kimi, Prezident İlham Əliyevin dil siyasəti rasional və elmi əsaslara söykənir. Azərbaycan dilinin qorunması həm milli kimliyin, həm dövlətçiliyin təməli, həm də gələcək nəsillərin zəmanətidir və bu yanaşma ədəbi dilimizin güclü və rəqabətə davamlı inkişafına şərait yaradır.

***Aynel MƏŞƏDİYEVA,***
***AMEA Nəsimi adına Dilçilik İnstitutunun elmi katibi, filologiya elmləri doktoru***

*"Azərbaycan Mədəniyyəti – 2040"*

# Dövlət teatrlarının yeni inkişaf mərhələsi

**Bir neçə gün öncə Azərbaycanda dövlət teatrlarının idarəetmə sistemində əsaslı islahatlara başlanılıb. Bu islahatlar çərçivəsində teatrların əsasnamələri, idarəetmə strukturları və ştat cədvəlləri yenilənərək müasir idarəetmə prinsiplərinə uyğunlaşdırılıb.**

Məlum olduğu kimi, Prezident İlham Əliyev "Azərbaycan Mədəniyyəti – 2040" Azərbaycan Respublikasının Mədəniyyət Konsepsiyası"nın təsdiq edilməsi haqqında sərəncam imzalayıb. Sənədin preambula hissəsində qeyd olunduğu kimi, hüquqi, dünyəvi və demokratik dövlət, sosial rifah və mədəni müxtəliflik prinsiplərinin dərin kök saldığı müasir Azərbaycanda mədəniyyətin intibahı dövrün regional və qlobal çağırışları müstəvisində mühüm əhəmiyyət daşıyır. Bu baxımdan dövlət teatrlarının idarəetmə sistemində əsaslı islahatlara başlanması yeni yol xəritəsi üzrə irəliləmənin ilk təzahürlərindən biri kimi təqdirəlayiqdir.

Bu islahatların əsas məqsədi dövlət teatrlarında idarəetmə mexanizmlərini daha səmərəli, çevik və şəffaf etmək, qərar qəbuletmə prosesini təkmilləşdirmək və yaradıcılıq potensialının daha effektiv şəkildə reallaşdırılmasına şərait yaratmaqdır.

Yeni yanaşmaya uyğun olaraq, mövcud idarəetmə strukturunda yer alan baş rejissor, baş rəssam, bədii rəhbər və digər oxşar vəzifələr yeni struktura daxil edilməyib. Bu qərar vəzifələrin formal mövcudluğundan deyil, funksional effektivliyindən çıxış edərək qəbul olunub. Ştata daxil edilməyən vəzifələrin funksiyaları daha çevik və nəticəyönümlü idarəetmə modeli çərçivəsində yenidən bölüşdürülüb.

Mədəniyyət Nazirliyi tərəfindən dövlət teatrlarının idarəetmə sisteminin təkmilləşdirilməsi istiqamətində atılan addımların cəmiyyətdə geniş müzakirələrə səbəb olduğunu nəzərə alaraq bu sahədə çalışan məsul şəxslərin və mütəxəssislərin yeniliklə bağlı fikirlərini öyrəndik. Onların XQ-yə açıqlamalarını oxucularımıza təqdim edirik.

**Aynur Kərimova, Mədəniyyət Nazirliyinin media və kommunikasiya şöbəsinin müdiri:**




– İslahatların başlıca hədəfi dövlət teatrlarında idarəetmə mexanizmlərini daha səmərəli, çevik və şəffaf etmək, qərar qəbuletmə prosesini təkmilləşdirmək və yaradıcılıq potensialının daha effektiv şəkildə reallaşdırılmasına şərait yaratmaqdır.

Yeni yanaşma ilə idarəetmədə məsuliyyət bölgüsünün aydınlaşdırılması və kollektiv qərar mexanizmlərinin gücləndirilməsi nəzərdə tutulur. Ləğv olunan vəzifələrin funksiyalarının necə icra olunacağına gəlincə isə qeyd edirik ki, həmin funksiyalar kollegial idarəetmə prinsipləri əsasında və yeni yaradılmış struktur bölmələri vasitəsilə həyata keçiriləcək. Məqsəd qərarların bir nəfər üzərində cəmlənməsi deyil, kollektiv məsuliyyət və aydın funksional bölgü mexanizminin formalaşdırılmasıdır.

Yenilənmiş strukturda teatrların fəaliyyətinin daha sistemli təşkili üçün strategiya və kommunikasiya şöbəsi, yaradıcı şöbə, artist heyətinin idarə edilməsi və digər funksional bölmələr yaradılıb ki, bu bölmələr teatrın həm yaradıcılıq, həm də təşkilati fəaliyyətinin daha effektiv idarə olunmasına xidmət edir.

Hazırda bədii rəhbər vəzifəsində çalışan şəxslərin fəaliyyətlərini necə və harada davam etdirməsi də ən çox verilən suallar arasındadır. Bildirmək istərdik ki, teatrların bədii rəhbər vəzifələrində çalışan şəxslər yeni struktur çərçivəsində fəaliyyətlərini davam etdirə bilərlər. Onlar teatr direktorlarının təqdimatı və təsdiqi ilə quruluşçu rejissor, yaradıcı şöbə müdiri və ya digər müvafiq vəzifələrə təyin oluna bilərlər.

Bu islahatları ixtisar və ya kütləvi ştat azaldılması kimi dəyərləndirmək olarmı və təqdim olunan yeni idarəetmə modeli teatrların yaradıcılığına necə təsir edəcək? - sualına gəlincə isə qeyd edim ki, aparılan islahatlar heç bir halda ixtisar və ya kütləvi ştat azaldılmasına yol açmır. Çünki islahatların məqsədi hər hansı ştatın mexaniki şəkildə ləğvi deyil. Əsas hədəf effektiv işləməyən və ya zəif fəaliyyət göstərən idarəetmə mexanizmlərinin müasir tələblərə uyğun şəkildə yenilənməsidir. Yeni model teatrların yaradıcılıq potensialını artırmaq, yaradıcılıq azadlığını daha sağlam institusional çərçivədə təmin etmək və idarəetmədə məsuliyyət bölgüsünü aydınlaşdırmaq məqsədi daşıyır. Bu yanaşma teatrların həm yaradıcılıq, həm də idarəetmə baxımından daha dayanıqlı inkişafına zəmin yaradır.

**İlham Əsgərov, Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının direktoru, Əməkdar mədəniyyət işçisi:**



- Mədəniyyət Nazirliyi tərəfindən "Teatr və teatr fəaliyyəti haqqında" Qanunun tələblərinə uyğun olaraq dövlət teatrlarının idarəetmə sisteminin təkmilləşdirilməsi istiqamətində qəbul etdiyi qərar müasir dövrdə funksional idarəetmə mexanizminin tələbidir. Dövlət teatrlarının həm əsasnaməsi, həm də struktur və ştat cədvəlləri yenidən işlənib. Ötən ildən başlayaraq, teatr rəhbərləri və mütəxəssislərin iştirakı ilə müzakirə aparılırdı. Məqsəd, əlbəttə, teatrların fəaliyyətinin sistemləşdirilməsi və idarəetmənin səmərəliliyinin artırılmasıdır.

Bildiyiniz kimi, möhtərəm cənab Prezident İlham Əliyev "Azərbaycan Mədəniyyəti – 2040" Konsepsiyasını təsdiq edib. Bu konsepsiyada incəsənətin inkişafı ilə bağlı strateji hədəflər müəyyən edilib. Bu teatr sahəsinə də şamil olunur. Teatr sahəsində hüquqi bazanın təkmilləşdirilməsi Azərbaycan teatrının gələcək inkişafına, o cümlədən beynəlxalq mədəni mühitdə mövqeyinin gücləndirilməsinə xidmət edir.

Baş rejissor, baş rəssam, bədii rəhbər və digər oxşar vəzifələr yeni struktura daxil edilməyib. Mədəniyyət Nazirliyi bununla bağlı ətraflı və aydın açıqlama yayıb. Bu qərar qeyd olunan vəzifələrin formal mövcudluğundan yox, funksional effektivliyini əsas götürərək qəbul olunub. Teatrda kollektiv məsuliyyət və aydın funksional bölgü mexanizmi formalaşmalıdır.

Yeni qərara əsasən Akademik Milli Dram Teatrında, o cümlədən digər dövlət teatrlarında strategiya və kommunikasiya şöbəsi, yaradıcı şöbə, artist heyətinin idarə edilməsi və digər funksional bölmələr yaradılıb. Bu bölmələrin yaradılması teatrın həm yaradıcılıq, həm də təşkilati fəaliyyətinin daha effektiv idarə olunmasına xidmət edir. Mədəniyyət Nazirliyi tərəfindən tətbiq olunan bu yanaşma teatrların həm yaradıcılıq, həm də idarəetmə baxımından daha da inkişafına zəmin yaradacaq. Teatrımız artıq bu istiqamətdə hüquqi-inzibati işlərin icrasına başlayıb.

Mədəniyyətimiz üçün, teatr mühitimiz üçün uğurlu olsun!

**Əli Əmirli, yazıçı-dramaturq, Əməkdar incəsənət xadimi, professor:**



– Prezident İlham Əliyevin təsdiqlədiyi "Azərbaycan mədəniyyəti – 2040" Konsepsiyası ölkəmizin mədəni siyasətində yeni bir inkişaf mərhələsinin başlanğıcıdır. Şübhəsizdir ki, konsepsiyada irəli sürülən mədəniyyət sahələrinin hər birinin dünya mədəniyyəti mənzərəsinin nəzərə alınması ilə inkişaf etdirilməsi fövqəladə dərəcədə əhəmiyyətlidir və bütün məqamlarda ölkə miqyasında bu işlərə məsul olan qurumlar və təşkilatlar üçün bir kompas rolu oynayacaq.

Son illər Azərbaycan teatrında da yaradıcılıq sahəsində yeni forma və məzmun axtarışları və onların müsbət nəticələri özünü göstərməkdədir. Bununla yanaşı, dövlət teatrlarının idarəetmə sisteminin təkmilləşdirilməsi istiqamətində müvafiq qərarların qəbul edilməsinə də böyük ehtiyac yaranmışdır. Elə bu ehtiyacın nəticəsidir ki, Mədəniyyət Nazirliyində ötən ildən başlayaraq, həllini gözləyən məsələlər geniş müzakirə edilmiş, "Teatr və teatr fəaliyyəti haqqında" Qanunun tələblərinə uyğun olaraq dövlət teatrlarının əsasnamələri, struktur və ştat cədvəlləri yenidən təsdiqlənmişdir. Həmin müzakirələrin iştirakçısı olduğumdan əminliklə deyə bilərəm ki, yeni təsdiq edilmiş əsasnamələr teatrların fəaliyyətinin sistemləşdirilməsinə, idarəetmənin səmərəliliyinin artırılmasına və funksional vəzifələrin daha aydın şəkildə müəyyənləşməsinə xidmət edəcək.

Bu dediklərim əsas məqsədin ümumi və bir qədər abstrakt təsviridir. İndi keçək məsələnin konkret, hətta bir qədər mübahisə, bəlkə nigaranlıq yaradan tərəflərinə. Məsələn, teatrların ştat cədvəlində baş rejissor, baş rəssam və bədii rəhbər vəzifələrinin ixtisara salınması. Məhz bu məsələdə nigaran söhbətlərin şahidi oluruq. Gəlin, bir qədər geriyə qayıdaq və görək baş rejissorun vəzifəsi nədən ibarət idi? Konkret danışım: 35 ildir Azərbaycanın, demək olar, bütün dövlət teatrlarında 30-a yaxın əsərim tamaşaya qoyulub. Və tam əminliklə deyə bilərəm ki, hansı əsərin repertuara salınması, onun tamaşaya qoyulmasında əsas həlledici sözü həmişə teatrın direktoru deyib. Onun istəyi olmadan heç bir əsər səhnəyə yol tapa bilməzdi. Bu uzun illər ərzində mən heç bir baş rejissorla üz-üzə gəlməmişəm, yəni buna ehtiyac olmayıb. Əsas odur ki, dramaturq öz rejissorunu tapsın. Bir də nəzərə alaq ki, teatrın direktoru kolxoz bazarının direktoru deyil, teatr direktorudur. O, teatr, rejissor işi, hətta dramaturgiyadan da xəbərdardır. Bugünkü zamanımızda isə teatr direktoru bütün saydıqlarımdan başqa, həm də bacarıqlı prodüser olmalıdır. Hesab edirəm, yerində olan teatr direktoruna nə baş rejissor, nə bədii rəhbər lazımdır. Amma burada bir nüansa diqqət yetirməyi lazım bilirəm: bir liderin sənət ideyası və ya layihəsi əsasında yaranmış, sonradan dövlət teatrı statusu almış teatrların bədii rəhbərsiz keçinməsi ən azı çətindir, çünki həmin teatrın o lidersiz yaşaması və əvvəlki statusunu saxlaması az qala mümkünsüzdür. Bəs nə etməli? Əlbəttə, həmin teatrı yaradan liderin direktor vəzifəsinə gətirilməsi ilə problemi asanlıqla həll etmək olar.

İkinci bir məsələ teatrın ştatında yer tutan və demək olar ki, heç bir tamaşada rol ala bilməyən aktyorların problemidir. Doğrudan da, heç bir əhəmiyyətli rolu olmayan aktyorun teatrın repertuarını çiynində daşıyan aktyorlarla eyni ölçüdə əməkhaqqı alması ən azı ədalətsizlikdir. Əlbəttə, bəlkə də keçmiş zamanlarda müəyyən xidməti olmuş, amma bu gün faydasız adama çevrilmiş aktyorun truppadan kənarlaşdırılması məsələsinin kollegial şəkildə həll edilməsi doğru olardı, başqa sözlə, hər hansı bir aktyorun teatrdan uzaqlaşdırılması bir nəfərin iradəsindən asılı olmamalıdır. Teatr islahatları ilə bağlı müzakirədə bu məsələyə də xüsusi diqqət ayrılmışdı. Bu çətin, ağrılı məsələ ildə, azı, bir dəfə, bütün aktyorların teatrın bədii şurasının attestasiyasından keçirilməsi yolu ilə həll edilə bilər.

Gələcəkdə ballast aktyorların yaranmasının qarşısını almaq üçün işə qəbul edilən aktyorlarla 1 illik müqavilə imzalansa, yaxşı olar. Əgər aktyor işi, istedadı, teatra məhəbbəti ilə özünü təsdiq edə bilərsə, müqavilənin vaxtını hər il artırmaq olar. Belə olanda nə teatra yeni qəbul olunan aktyora görə köhnələr qiyam qaldırar, nə də yeni sayda ballast aktyorlar dəstəsi yaranar. Ümumiyyətlə, teatrda lazımsız ştatların ləğv edilməsi daim gündəmdə olmalıdır.

Şübhəsizdir ki, keçirilən hər bir tədbir, o cümlədən islahatlar o zaman faydalıdır ki, onun praktik nəticəsi olsun. Son vaxtlar Mədəniyyət Nazirliyinin keçirdiyi yaradıcılıq forumları, tədbirləri, praktik əhəmiyyəti olan yığıncaqları artıq öz müsbət nəticələrini göstərməkdədir. Teatrlarımızda yaradıcı bir canlanma, özünü yaxşı tərəfdən göstərmək istəyi qabarıq şəkildə görünür, hətta teatrlar arasında yaradıcı rəqabət də formalaşır. Ölkənin əsas teatrlarında gənc istedadlara yaradıcı şəraitin yaradılması, bu işdə bəzi rayon teatrlarının da müəyyən müsbət nəticələr əldə etməsi təqdirəlayiqdir.

Sonda bir təklifim var: özəl teatrların ayaqda qalması üçün onlara dövlət səviyyəsində maliyyə dəstəyinin göstərilməsi müsbət nəticə verə bilər. Çünki müasir teatrın inkişafı, sənət yenilikləri entuziazm hesabına işləyən o teatrlarda daha tez yarana bilər, nəinki ənənəvi repertuar teatrlarında. Dövlətimiz kütləvi informasiya vasitələrinə, özəl televiziyalara, yaradıcılıq ittifaqlarına maliyyə dəstəyi ayırır, bu çox yaxşı, o siyahıya özəl teatrların ən yaxşılarının da adını əlavə etmək müsbət nəticə verər. Tək entuziazmla uzağa getmək çox çətindir.

Onu da qeyd edim ki, ölkə Prezidentinin təsdiq etdiyi "Azərbaycan Mədəniyyəti - 2040" Mədəniyyət Konsepsiyasında Azərbaycan teatrının strateji hədəfləri və inkişaf istiqamətləri müəyyən edilmişdir. Bu konsepsiyanın əsas müddəalarının həyata keçirilməsi üçün bütün teatr kollektivləri səfərbər olmalıdırlar.

***Hazırladı:***
***Əli NƏCƏFXANLI***
***XQ***

*Əfzələddin Xaqani – 900*

# Klassik Azərbaycan poeziyasının Xaqanı

**Azərbaycan Prezidenti İlham Əliyev 2 gün öncə Böyük Azərbaycan şairi Əfzələddin Xaqani Şirvaninin 900 illik yubileyinin qeyd edilməsi haqqında sərəncam imzalayıb. Sənəddə qeyd olunub ki, Xaqani Azərbaycan ədəbiyyatı və mədəniyyətinin qızıl dövrünün ümumbəşər mədəniyyəti xəzinəsinə bəxş etdiyi nəhəng simalardandır. Şair klassik ədəbiyyata qazandırdığı yeniliklərlə, bütövlükdə, Yaxın və Orta Şərq xalqlarının ədəbi-fəlsəfi fikrinin inkişafına qüvvətli təsir göstərmişdir.**



Azərbaycanda məsnəvi janrının ilk müəllifi kimi tarixə düşmüş Xaqani Şirvaninin (1126–1199) yaradıcılığı 9 əsrdir ki, şairlərin sənət yoluna mayak kimi işıq saçır. Özü bu barədə belə deyib: "Əsərlərim günəş kimi mənzil-mənzil dünya gəzir". Əslən bir Oğuz türkü ailəsində doğulmuş şair həmişə xalqın, həqiqətin, gözəlliyin tərəfdarı olub, hər cür şəri isə ehtirasla rədd edib.

Şairin zəngin ədəbi irsi 17 min beytlik lirik şeirlər divanı, "Töhfətül-İraqeyn" poemasından, bədii nəsrin maraqlı nümunələri olan 60 məktubdan ibarətdir.

Xaqani Divanındakı şeirlər qəsidə, qəzəl, mədhiyyə, mərsiyə, rübai və s. ibarətdir. Onun ictimai-fəlsəfi məzmunlu əsərlərinə "Şiniyyə" və "Mədain xərabələri" qəsidələri, "Həbsiyyə" şeirləri və epistolyar məsnəvi sayılan "Töhfətül-İraqeyn" ("İki İraqın töhfəsi") poeması daxildir.

Adı fəzilətli, seçkin, üstün kimi mənalandırılan haqq-ədalət carçısı Əfzələddin Xaqani 1170-ci ildə Şirvanşah I Axsitanın əmri ilə Şabran qalasında həbs olunub.



O, qalada 7 ay həbsdə qalıb və "Həbsiyyə" silsiləsindən məşhur əsərlərini burada qələmə alıb.

***Deyirəm daha məni***
***çağırmayın Xaqani,***
***Mən yoxsullar şairi***
***xəlqaniyəm, xəlqani.***

Kəbə səfərindən sonra Dərbənd və Gəncədə bir növ sürgündə olan şair, orada çoxlu dostlar qazanır, 1159-cu ildə Gəncədə ikən qızdırma xəstəliyinə tutulan və Gəncəli Şəmsəddin Təbib tərəfindən müalicə edilən Xaqani, ehtimal ki, onda 18-19 yaşlarında olan Nizami Gəncəvi ilə də görüşür, dostlaşır. Ona görə də Xaqani ölən zaman Nizami ona mərsiyə yazır. Həmin mərsiyədən hələlik aşağıdakı bir beyt məlumdur:

***Hey deyirdim ki, mənə mərsiyə***
***Xaqani yazar,***
***Heyf, Xaqaniyə mən mərsiyə***
***yazdım axır.***

Xaqanini məşhurlaşdıran həm də onun gözəl məhəbbət lirikası olub.

***Canım nə qədər var,***
***mənə canan sən olarsan,***
***Candan da əziz olsa***
***bir insan, sən olarsan.***
***Sən indiyədək qəlbim***
***üçün qəlb idin, ey yar,***
***Bundan sora da canım***
***üçün can sən olarsan.***

Onu da qeyd edək ki, Əmir Xosrov Dəhləvi, Əbdürrəhman Cami, Məhəmməd Füzuli kimi sənətkarlar bu dahi şairin "Şiniyyə"sinə cavab yazıb, Seyid Əzim Şirvani özünü onun naibi sayıb, Mirzə Ələkbər Sabir bəzi mənaları ondan iqtibas edib. Xaqani Şirvani irsinin öyrənilməsi ilə Həmid Araslı, Mirzağa Quluzadə, Məmmədağa Sultanov, Qafar Kəndli sevə-sevə məşğul olublar. Azərbaycan ədəbiyyatı özünün "Xaqanişünaslıq" bölməsi ilə daha da zəngin xarakter daşıyır.

***Oxşayar kündə ayağımda***
***dəyirman daşına,***
***Qanlı göz yaşımla işlər bu***
***dəyirmanım mənim…***

Bakıdakı Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin ekspozisiyasında bu şeirin yaratdığı təəssürat əsasında Xalq rəssamı Böyükağa Mirzəzadənin çəkdiyi gözəl bir kompozisiya nümayiş etdirilir. Onu da xatırlayıram ki, bir qış günü İsmayıllı rayonunun Buynuz kəndində Xalq şairi Musa Yaqubun haqqında teleoçerk çəkirdik. Şair bizə kənd dəyirmanına getməyi təklif etdi. Orada bildik ki, Xaqaniyə həsr etdiyi "Dəyirman" poemasından bir parçanı əzbər söyləmək istəyir. Musa Yaqubun dəyirmanda özünəməxsus koloritlə oxuduğu misralar verilişimizi daha da maraqlı etdi:

***Bu sənsənmi, ey Xaqani,***
***Bu dəyirman səninkimi?***
***Necə ahdı, amandı bu?..***
***Daşlar - dönən bəxtindimi,***
***Yoxsa çərxi-dövrandı bu?..***

İllər sonra, Şabran səfərimizdə yeni yaradılmış "Xaqani" poeziya evinin qarşısında – "Mən məna yaradan tutiyəm, əfsus, Şabran qalasında olmuşam məhbus" – deyən böyük şairin abidəsini ziyarət etdik, şairlər İbrahim İlyaslı və Arif Ərşadla xatirə şəkli çəkdirdik.

Nəhayət, dahi Xaqaninin 900 illik yubileyinin qeyd olunması haqqında Prezidentin sərəncamı dünya ədəbiyyatı xəzinəsini zənginləşdirmiş şairə olan sonsuz məhəbbət və ehtiramın parlaq ifadəsidir.

***Ə.DOSTƏLİ***
***XQ***



# "Dostart.az" – rəqəmsal sosial platforma




**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzində həssas qrupların yaradıcı potensialının inkişaf etdirilməsi, sosial reabilitasiyası və cəmiyyətə inteqrasiyası istiqamətində ötən il görülmüş işlərə və 2026-cı ilin hədəflərinə həsr olunmuş mətbuat konfransı keçirildi. Mətbuat konfransı təkcə bir ilin hesabatı deyil, eyni zamanda, inklüziv cəmiyyətə aparan yolun növbəti mərhələsinin təqdimatı idi.**

Konfransda həssas qrupların yaradıcı potensialının inkişafı, sosial reabilitasiyası və cəmiyyətə inteqrasiyası istiqamətində ötən il görülən işlərə nəzər salındı, 2026-cı il üçün müəyyənləşdirilən hədəflər ictimaiyyətə açıqlandı. Mərkəzin direktoru Elnarə Ənsari bildirdi ki, ölkəmizdə həyata keçirilən sosial siyasətin əsasında Azərbaycan vətəndaşı dayanır və əhalinin sosial təminatının gücləndirilməsi, maddi rifahının yaxşılaşdırılması məqsədilə mühüm addımlar atılır. Mərkəzin fəaliyyəti inklüziv və sosial ədalətə əsaslanan cəmiyyətin formalaşdırılması istiqamətində aparılan davamlı işlərin uğurlu nəticələrindən biridir.

Qeyd olundu ki, Mərkəz 2021-ci ildən fəaliyyət göstərir və açılışında cənab Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva iştirak ediblər. Mərkəz Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü ilə yaradılıb və həssas qruplardan olan şəxslərin bacarıqlarının üzə çıxarılması, inkişaf etdirilməsi, tanıdılması və onların məşğulluq imkanlarının artırılması məqsədi daşıyır. Hazırda Mərkəz və onun filiallarında benefisiar sayı 292 nəfərdir. Onlardan 175 nəfər Mərkəzdə, 71 nəfər Qarabağ "DOST Evi" şöbəsində, 46 nəfər isə İsmayıllı "DOST Evi" filialında xidmətlərdən yararlanır. Ötən il təlimləri uğurla tamamlayan 166 nəfərə sertifikat təqdim edilib.

Media nümayəndələrinə Mərkəzdə hazırlanan əl işlərinin satışını həyata keçirəcək "dostart.az" portalının təqdimatı oldu. Bildirildi ki, Prezident İlham Əliyevin imzaladığı qanunvericilik aktlarına əsasən, Mərkəzin benefisiarları olan əlilliyi olan şəxslərin əl işlərinin həmin platforma üzərindən satışı zamanı "vergi güzəşti" tətbiq ediləcək. Belə ki, onların gəlirlərindən məcburi dövlət sosial sığorta haqqı tutulmaması, yalnız ödəmə mənbəyində 2 faiz verginin tutulması nəzərdə tutulur.

Həmin platforma vasitəsilə həssas qruplardan olan şəxslərin hazırladıqları əl işləri vahid onlayn platforma üzərindən daha geniş auditoriyaya çatdırılacaq. Bu isə onların özünüməşğulluq bacarıqlarının inkişafına və cəmiyyətin iqtisadi həyatında fəal iştirakına real imkan yaradacaq.

Hazırda portala 250-yə yaxın əl işi yerləşdirilib və Azərbaycan, rus və ingilis dillərində məlumatlar daxil edilib. Pilot layihəyə, həmçinin xüsusi "Müyəssərlik menyusu" quraşdırılıb ki, bu da görmə məhdudiyyətli və disleksiyadan əziyyət çəkən şəxslər üçün istifadəni asanlaşdırır. Pilot layihənin 1 il müddətində nəzərdə tutulduğu, gələcəkdə bu platformanın əhatə dairəsinin genişləndirilməsi, ölkə üzrə həssas qruplardan olan digər şəxslərin də bura cəlb olunmasının planlaşdırıldığı vurğulanıb.

Layihənin dizayn və proqram təminatı Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki DOST Rəqəmsal İnnovasiyalar Mərkəzinə, texniki dəstək və ödəniş həllərinin icrası isə "CIB-PAY" MMC və "CIB BUSINESS" MMC-yə məxsusdur.

Konfransda, həmçinin Mərkəzin ölkə daxilində və beynəlxalq səviyyədə tanıdılması istiqamətində görülən işlər və 2026-cı ilin hədəfləri barədə məlumat verildi, media nümayəndələrinin sualları cavablandırıldı.

Bu təqdimat bir daha göstərdi ki, inklüzivlik yalnız sosial termin deyil, insanı mərkəzə alan, yaradıcılığı dəyərə çevirən davamlı bir inkişaf yoludur.

*Səbuhi MƏMMƏDOV,*
*Cavid QAÇAYEV (foto)*
*XQ*

*Yeni kitablar*

## İraq-Türkman ədəbiyyatı tarixi




**Azərbaycan Milli Elmlər Akademiyasının Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda İraq-Türkman ədəbiyyatına dair yeni kitab işıq üzü görüb.**

Əməkdar elm xadimi, professor Qəzənfər Paşayev və filologiya üzrə fəlsəfə doktoru Orxan İsayevin müəllifi olduqları "İraq-Türkman ədəbiyyatı tarixi" monoqrafiyasında İraqda yaşayan soydaşlarımızın ədəbiyyatı ilk dəfə mərhələlərə bölünmüş, inkişaf istiqamətləri müəyyən edilmişdir. Bundan əlavə, "İraq-Türkman ədəbiyyatı tarixi"ndə türkmanların yazılı ədəbiyyatı ilə yanaşı, şifahi xalq ədəbiyyatı da öz əksini tapmış, əsər Azərbaycan ədəbiyyat tarixçiliyi prinsiplərinə uyğun şəkildə yazılmışdır.

Kitaba yazılmış "Ön söz"ün müəllifi AMEA prezidenti, akademik İsa Həbibbəyli, redaktorları Dr.Mustafa Ziya, Dr.Şəmsəddin Kuzəçi, rəyçilər isə professor Məhərrəm Qasımlı, professor Məmməd Əliyev, professor Nizami Tağısoy və filologiya üzrə fəlsəfə doktoru Səkinə Qaybalıyevadır.

## Füzuli irsinə yeni baxış




**AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun Azərbaycan dili tarixi şöbəsinin böyük elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru Aynur Mahmudun yeni elmi əsəri çap olunub.**

"Azərbaycan ədəbi dilinin Məhəmməd Füzuli zirvəsi (türkcə qəzəllərinin linqvopoetik xüsusiyyətləri)" adlanan bu monoqrafiya dahi mütəfəkkir Məhəmməd Füzulinin anadan olmasının 530 illik yubileyinə həsr edilib. Tədqiqat işində Füzuli dili Azərbaycan ədəbi dilinin təşəkkül və inkişaf tarixi müstəvisində araşdırılır, şairin türkcə qəzəllərinin fonetik, leksik və semantik qatları linqvopoetika elminin tələbləri səviyyəsində təhlil edilir.

"Elm və təhsil" nəşriyyatında işıq üzü görən monoqrafiya beş fəsildən ibarət olmaqla, Füzuli yaradıcılığındakı bədii təzadları, metaforik obrazlar sistemini və sözün bədii-estetik imkanlarını geniş şəkildə işıqlandırır. Müəllif əsərdə Füzulinin dil normalarının sabitləşməsindəki rolunu, onun yaratdığı poetik fiqurların Azərbaycan ədəbi dilinin intellektual potensialını necə artırdığını elmi dəlillərlə əsaslandırır. Bu nəşr Azərbaycan dilinin tarixi və klassik poeziyanın dil xüsusiyyətləri ilə maraqlanan mütəxəssislər, eləcə də geniş oxucu kütləsi üçün dəyərli elmi mənbədir.

*Qabil YUSİFOĞLU*
*XQ*

# Əmanətlərin Sığortalanması Fonduna üzv bankların reyestrini ictimaiyyətin diqqətinə təqdim edir

**Əmanətlərin Sığortalanması Fondu "Əmanətlərin sığortalanması haqqında" Azərbaycan Respublikası Qanununun 30.1-ci maddəsinə əsasən iştirakçı bankların 29 yanvar 2026-cı il tarixinə olan reyestrini ictimaiyyətin diqqətinə çatdırır:**

|  | Reyestrə daxil olma tarixi | Bankın adı |
|---|---|---|
| 1 | 30.07.07 | ASC "XALQ" Bankı |
| 2 | 30.07.07 | "Azərbaycan Beynəlxalq Bankı" ASC |
| 3 | 30.07.07 | "ACCESSBANK" QSC |
| 4 | 30.07.07 | Melli İran Bankı Bakı filialı |
| 5 | 30.07.07 | "Azər-Türk Bank" ASC |
| 6 | 30.07.07 | "Bank of Baku" ASC |
| 7 | 30.07.07 | "Bank Respublika" ASC |
| 8 | 30.07.07 | "Kapital Bank" ASC |
| 9 | 30.07.07 | "YELO BANK" ASC |
| 10 | 30.07.07 | "Rabitəbank" ASC |
| 11 | 30.07.07 | "TURANBANK" ASC |
| 12 | 30.07.07 | "UNİBANK" KB ASC |
| 13 | 30.07.07 | "Yapı Kredi Bank Azərbaycan" QSC |
| 14 | 07.08.07 | "Expressbank" ASC |
| 15 | 10.09.07 | "Azərbaycan Sənaye Bankı" ASC |
| 16 | 04.12.07 | "Bank Avrasiya" ASC |
| 17 | 04.12.07 | "Paşa Bank" ASC |
| 18 | 16.01.09 | "AFB BANK" ASC |
| 19 | 26.02.09 | "BANK VTB (AZƏRBAYCAN)" ASC |
| 20 | 28.04.09 | "PREMIUM BANK" ASC |
| 21 | 15.04.10 | Bank "BTB" ASC |
| 22 | 15.05.15 | "Ziraat Bank Azərbaycan" ASC |




## "Kəlbəcər Rayonunda Bərpa, Təmir və İdarəetmə Xidməti" PHŞ-nin 2024-cü il dekabrın 31-nə maliyyə vəziyyəti haqqında hesabatı

**manatla**

| Bölmələrin, maddələrin adları | Hesabat dövrü üzrə | |
|---|---|---|
| **Aktivlər** | | |
| Qeyri-maddi aktivlər | 457.99 | |
| Torpaq, tikili və avadanlıqlar | 513 201.35 | |
| **CƏMİ UZUNMÜDDƏTLİ AKTİVLƏR** | | **513 659.34** |
| Ehtiyatlar | 83 932.85 | |
| Qısamüddətli debitor borcları | 785.65 | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 429 002.31 | |
| Sair qısamüddətli aktivlər | 362 387.88 | |
| **CƏMİ QISAMÜDDƏTLİ AKTİVLƏR** | | **876 108.69** |
| **CƏMİ AKTİVLƏR** | | **1 389 768.03** |
| Ödənilmiş nominal (nizamnamə) kapital | 500 000.00 | |
| Kapital ehtiyatları | 18 089.35 | |
| Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | (455 659.36) | |
| **CƏMİ KAPİTAL** | | **62 429.99** |
| Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər | 147.16 | |
| Qısamüddətli kreditor borcları | 811.84 | |
| Sair qısamüddətli öhdəliklər | 1 326 379.04 | |
| **CƏMİ QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | | **1 327 338.04** |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | **1 389 768.03** |

### Mənfəət, zərər və digər məcmu gəlirlər haqqında hesabat

| Göstəricilərin adları | Hesabat dövrü üzrə |
|---|---|
| Sair əməliyyat gəlirləri | 384 483.36 |
| İstifadə edilmiş material ehtiyatları | 9 536.25 |
| İşçi heyəti üzrə xərclər | 645 344.38 |
| Amortizasiya xərcləri | 90 492.75 |
| Digər əməliyyat xərcləri | 94 636.18 |
| **Əməliyyat mənfəəti (zərəri)** | **(455 526.20)** |
| Vergiqoymadan əvvəl mənfəət (zərər) | **(455 526.20)** |
| Mənfəət vergisi | 133.16 |
| Hesabat dövründə xalis mənfəət (zərər) | **(455 659.36)** |

### Kapitalda dəyişikliklər haqqında hesabat

| Göstəricilərin adları | Ödənilmiş nizamnamə (nominal) kapitalı | Kapital ehtiyatları | Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | Cəmi |
|---|---|---|---|---|
| Hesabat dövründə xalis mənfəət (zərər) və norma daxilində yaradılmış təmir ehtiyat fondu | | **18 089.35** | **(455 659.36)** | **(437 570.01)** |
| Mülkiyyətçilərin kapital qoyuluşları | **500 000.00** | | | **500.000.00** |
| **Hesabat dövrü üzrə kapitalda dəyişikliklərin cəmi** | **500 000.00** | **18 089.35** | **(455 659.36)** | **62 429.99** |
| **Hesabat dövrünün sonuna qalıq** | **500 000.00** | **18 089.35** | **(455 659.36)** | **62 429.99** |

### Pul vəsaitlərinin hərəkəti haqqında hesabat

| Göstəricilərin adları | Hesabat dövrü üzrə |
|---|---|
| Hesabat dövründə xalis mənfəət və ya zərər | (455 659.36) |
| Amortizasiya xərcləri | 90 492.75 |
| Maliyyələşdirmə üzrə fəaliyyətə aid olan digər xərclər (gəlirlər) | (383 817.55) |
| **Dövriyyə kapitalındakı dəyişikliklərə qədər əməliyyat fəaliyyəti üzrə xalis pul vəsaitləri** | **(748 984.16)** |
| Ehtiyatların azalması (artması) | (65 843.50) |
| Əməliyyat debitor borclarının azalması (artması) | (785.65) |
| Sair qısamüddətli aktivlərin azalması (artması) | (362 387.88) |
| Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklərin artması (azalması) | 147.16 |
| Əməliyyat kreditor borclarının artması (azalması) | 811.84 |
| Sair qısamüddətli öhdəliklərin artması (azalması) | 119.84 |
| **Əməliyyat fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti** | **(1 176 922.35)** |
| Torpaq, tikili və avadanlıqların, qeyri-maddi aktivlərin və digər uzunmüddətli aktivlərin əldə edilməsi üçün pul vəsaitlərinin xaricolmaları | (604 152.09) |
| **İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti** | **(604 152.09)** |
| Səhmlərin və digər kapital alətlərin buraxılması nəticəsində yaranan pul vəsaitlərinin daxilolmaları | 500 000.00 |
| Məqsədli maliyyələşdirmə şəklində pul vəsaitlərinin daxilolmaları | 1 710 126.75 |
| Məqsədli maliyyələşdirmə şəklində alınmış məbləğlərin geri qaytarılmasına görə pul vəsaitlərinin xaricolmaları | (50.00) |
| **Maliyyələşdirmə üzrə fəaliyyətdən yaranan pul vəsaitlərinin xalis hərəkəti** | **2 210 076.75** |
| **Pul vəsaitləri və onların ekvivalentlərinin artması (azalması)** | **429 002.31** |
| İl ərzində pul vəsaitləri və onların ekvivalentlərinin artması (azalması) | **429 002.31** |
| **bank overdraftları çıxılmaqla pul vəsaitləri və onların ekvivalentlərinin ilin sonuna olan qalığı** | **429 002.31** |

### MÜSTƏQİL AUDİTORUN HESABATI

**"Kəlbəcər Rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidməti" - Publik Hüquqi Şəxsin Rəhbərliyinə:**

**Rəy**

Biz, **"Kəlbəcər Rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidməti" - Publik Hüquqi Şəxsin** (bundan sonra – Xidmət) 2024-cü il dekabrın 31-nə təqdim edilən maliyyə vəziyyəti haqqında hesabat, həmin tarixdə başa çatmış il üzrə mənfəət, zərər və məcmu gəlir haqqında hesabat, kapitalda dəyişikliklər və pul vəsaitlərinin hərəkəti haqqında hesabat, əhəmiyyətli uçot siyasətləri və digər izahlı qeydlərin xülasəsindən ibarət olan maliyyə hesabatlarının auditini apardıq.

Bizcə, əlavə edilmiş maliyyə hesabatları xidmətin 2024-cü il dekabrın 31-nə maliyyə vəziyyətini, habelə mənfəət, zərərini, kapitalda dəyişiklikləri və göstərilən tarixdə başa çatan il üzrə pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli şəkildə əks etdirir.

**Rəy üçün əsaslar**

Biz, auditi Beynəlxalq Audit Standartlarına (BAS-lara) uyğun aparmışıq. Bu standartlar üzrə məsuliyyətimiz əlavə olaraq hesabatımızın "Maliyyə Hesabatlarının Auditi üçün Auditorun Məsuliyyəti" bölməsində təsvir edilir. Biz, maliyyə hesabatlarının auditinə aid etik normalarla Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının "Etika məcəlləsinin" (MBESŞ məcəlləsi) tələblərinə uyğun olaraq xidmətdən asılı deyilik və biz digər etik öhdəliklərimizi bu tələblərə, eləcə də MBESŞ məcəlləsinin tələblərinə uyğun yerinə yetirmişik. Bizcə, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

**Maliyyə hesabatları üzrə rəhbərliyin və idarəetmə səlahiyyəti verilmiş şəxslərin məsuliyyəti**

Rəhbərlik, maliyyə hesabatlarının Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə, maliyyə hesabatlarının hazırlanması ilə əlaqədar saxtakarlıq və ya xətalardan qaynaqlanan əhəmiyyətli tərəflərin qarşısının alınması məqsədi ilə zəruri hesab etdiyi daxili nəzarət sisteminin təşkil edilməsinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik xidməti ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı, yaxud bunu etməkdən başqa münasib alternativ yaranmadığı halda, rəhbərlik xidmətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunda fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır. İdarəetməyə məsul şəxslər xidmətin maliyyə hesabatlarının təqdim edilməsi prosesinə nəzarətə görə məsuliyyət daşıyırlar.

**Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

Bizim məqsədimiz maliyyə hesabatlarında bir tam kimi, dələduzluq və ya səhvlər nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimizin də daxil olduğu auditor hesabatını təqdim etməkdir. Kafi əminlik, əminliyin yüksək səviyyəsidir, lakin o BAS-lara uyğun aparılmış auditin əhəmiyyətli təhrifləri hər bir halda aşkar edəcəyinə zəmanət vermir. Təhriflər, dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda, yaxud məcmu olaraq, istifadəçilərin maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmək ehtimalı yarandığı halda əhəmiyyətli hesab olunur.

**Direktor-Auditor Eldar Təhməzov**
**Azərbaycan Respublikasının**
**Auditorlar Palatası İCAZƏ: AT/238 22.11.2021-ci il**
**19 may 2025-ci il**

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 18 (30987) 30 yanvar 2026-cı il, cümə

## İDMAN

### Milli boks çempionatı başa çatıb

**Kişi və qadın boksçular arasında keçirilən Azərbaycan çempionatına yekun vurulub. Ölkənin müxtəlif şəhər və rayonlarının klublarını, həmçinin idman cəmiyyətlərini təmsil edən yarışda 33 komandanın 166 idmançısı qüvvəsini sınayıb. 7 gün davam edən turnirin son günündə kişilər arasında 10 çəki dərəcəsi üzrə mükafatçılar müəyyənləşib.**



Final görüşlərini gənclər və idman naziri Fərid Qayıbov, Azərbaycan Boks Federasiyasının prezidenti Sahil Babayev digər federasiyaların rəsmiləri də izləyiblər.

Çempionatın sonuncu günü Azərbaycanın ən güclü boksçuları müəyyənləşib. Rəsmi qonaqlar 50 kq və 55 kq çəki dərəcəsində ilk 3 yerin sahiblərini mükafatlandırıblar.

Həlledici döyüşlərdə qalib gələn Bilalhəbaşi Nəzərov, Nicat Hüseynov, Məhəmmədəli Aşırəliyev, Maqsud Xasmetov, Nəbi İsgəndərov, Abbasqulu Şadlinski, Murad Allahverdiyev, Ramal Həsənli, Rauf Rəhimov və Batraz Mildzoxov çempion tituluna sahib olublar.

Turnirin komanda hesabında "Neftçi" İdman Klubu 6 qızıl, 2 gümüş və 5 bürünc medalla birinci yeri tutub. İkinci pilləyə "Dəmir Yumruq" Boks İdman Klubu (2-1-2) yiyələndiyi halda, "üçlüy"ü MOİK (1-1-5) qapayıb.

### Velosiped yığmamız Türkiyədə



**Şose velosipedi üzrə Elit/U23 yığma komandamızın üzvləri 2026-cı təqvim ilində nəzərdə tutulan beynəlxalq yarışlara hazırlıq məqsədilə Türkiyənin Alanya şəhərinə təlim-məşq toplanışına yola düşüb. Musa Mikayılzadə, Süleyman Ələkbərov, Tural İsrafilov, Nofəl Nuriyev, Şahin Eyvazov, Əli Qurbanov, Maksim Trendelyov və Viktoriya Sidorenkodan ibarət komandamız martın 16-dək qardaş ölkədə olacaq.**

Bu müddət ərzində baş məşqçi Vladimir Buşanskiy və məşqçi Elçin Əsədovun rəhbərliyi altında hazırlıq prosesi keçəcək komanda üzvlərimiz Beynəlxalq Velosipedçilər İttifaqının (UCI) bayrağı altında Alanya və Antalya bölgələrində təşkil olunacaq beynəlxalq turnirlərdə də iştirak edəcəklər.

### Medina ÇL-də 3-cüdür

**"Qarabağ"ın müdafiəçisi Kevin Medina UEFA Çempionlar Liqasının əsas mərhələsində ən çox top qazanan futbolçulardan biridir.**



32 yaşlı oyunçu bu göstəriciyə görə üçüncü pillədə qərarlaşıb.

Kolumbiyalı futbolçu Liqa mərhələsindəki 8 matçda 62 dəfə buna nail olub. Medina Çexiyanın "Slaviya" klubundan David Zima (62) ilə birlikdə üçüncüdür.

İlk sırada İspaniyanın "Atletik" klubundan Aytor Parades (77) yer alıb. İtaliyanın "Atalanta" komandasından Odilon Kossunu (66) ikinci sıradadır.

Qeyd edək ki, UEFA Çempionlar Liqasının Liqa mərhələsini 10 xalla 22 sırada bitirən "Qarabağ" pley-offda İngiltərənin "Nyukasl" və ya Fransanın "PSJ" klubu ilə üz-üzə gələcək. Bu raundun püşkü yanvarın 30-da atılacaq.

*Qabil YUSİFOĞLU*
*XQ*

*Pəhriz və biz*

# Hansı çörək, həm də nə qədər?

**Tarixən çörək insanın əsas qida vasitəsi olmaqla, həm də and yerimiz olub və müqəddəs sayılıb. Yaşlı insanlar xatırladırlar ki, əvvəllər çorək zavodlarının və təndirxanaların bişirdiyi çörəklər insanın canına can gətirdiyi kimi, ətri də ruha qida verirdi.**



Son 20-30 ildə isə bu müqəddəs nemətə münasibət dəyişib. Səhhətində problem yaşayan hər kəsə, az qala, "evinə çörək girməsinə imkan verməˮ kimi tövsiyə verirlər. Özü də bu məsləhəti tibb işçilərinin gördüyünü nəzərə alsaq, çox maraqlı situasiya yaranır. Çörəkdən imtina lazımdırmı? Bəlkə onun qəbulunu azaltmaq daha məqsədəuyğundur? Sağlamlığa zərər vurmadan gündə nə qədər çörək yemək olar?

Tibb üzrə fəlsəfə doktoru Nurlana Əliyeva bu barədə fikirlərini bildirib.

O, insanın səhhətinə və bədən quruluşuna zərər verməmək üçün gündə bir neçə dilimdən çox olmamaq şərtilə çörək yeməyin vacibliyini vurğulayıb.

Həkim bildirib ki, menyuda məqbul çörəyin miqdarı insanın məqsədlərindən asılıdır. İnsan çəki vermək istəyəndə özünü gündə bir dilim çörəklə məhdudlaşdırmalı, tam taxıl və ya çovdar çörəyinə üstünlük verməlidir. Əksinə, insan əzələ kütləsi qazanmaq istəyəndə, enerji dəyərini artırmaq üçün pəhrizə gündə 2–3 dilim çörək əlavə etmək məsləhət görülür.

Mütəxəssis əlavə edib ki, idmançılar məşqdən əvvəl kiçik porsiyalarla ağ və ya qızardılmış çörək yeyə bilərlər, çünki bu, bədəni lazımi kalori ilə daha tez təmin edir. Ağ çörəkdən tamamilə imtina etmək olmaz. Çünki onun tərkibində, xüsusən də fəal həyat tərzi zamanı bədəni enerji ilə təmin edən B vitaminləri, minerallar, zülal və karbohidratlar var.

Mütəxəssis əlavə edib ki, ağ çörək mədə-bağırsaq xəstəlikləri olanlar üçün daha üstün hesab edilir. Qara çörək isə yüksək lif tərkibinə görə həzm problemi olan insanlar üçün əks göstərişdir.

Həkim onu da qeyd edib ki, əgər çörək düzgün hazırlanırsa, onda təhlükəli bir şey axtarmaq mənasızdır. Bir şərtlə ki, çörək üçün istifadə edilən un da, unun alındığı dən də keyfiyyətli olsun. Ən nəhayət, önəmli odur ki, mayalı, yaxud mayasız olmaqla, çörək bişirilmə texnologiyasına uyğun hazırlansın. Çörəkdən tamamilə imtina etmək isə qəti olmaz.

*Zərifə HÜSEYNLİ*
*XQ*

# Yaradıcı ruh – sağlam bədən



**İncəsənət insan həyatında çox vaxt estetik zövq, emosional rahatlıq və ya asudə vaxtın mənalı keçirilməsi kimi qəbul olunur. Lakin elm getdikcə daha aydın şəkildə göstərir ki, yaradıcılıq və sənətlə təmas sadəcə ruhu deyil, bədəni də qoruyan güclü bir mexanizmdir. London Universitet Kollecinin alimlərinin son araşdırması bu həqiqəti bioloji səviyyədə sübut edən nadir elmi işlərdən biridir.**

Muzey zalında sakit addımlarla gəzmək, konsert salonunda musiqiyə qulaq asmaq, opera səhnəsində insan səsinin gücünü hiss etmək və ya fırçanı kətan üzərində hərəkətə gətirmək – bütün bunlar görünməz, lakin təsirli dəyişikliklər yaradır. Alimlərin qənaətinə görə, incəsənətlə hər bir təmas orqanizmdə iltihabı azaldan, beynin sağlamlığını dəstəkləyən zülalların fəaliyyətinə birbaşa təsir göstərir. Başqa sözlə, sənət təkcə duyğularımıza deyil, hüceyrələrimizə də toxunur.

Tədqiqatın aparıcı müəllifi, professor Deyzi Fankortun sözləri bu fikri daha da gücləndirir: incəsənət və sağlamlıq arasındakı əlaqə artıq romantik metafora deyil, konkret bioloji mexanizmlərlə izah olunan reallıqdır. Orta yaşı 53 olan təxminən 6 min insanın qan analizinə əsaslanan bu genişmiqyaslı araşdırma göstərib ki, mədəni həyatla fəal təmasda olan insanların orqanizmində həyati əhəmiyyət daşıyan zülallar fərqli "davranır".

İncəsənətin həyatın ayrılmaz hissəsi olduğu insanlarda hüceyrələrin yenilənməsi, immun sisteminin tənzimlənməsi və iltihab prosesləri daha sağlam məcrada gedir. Bu dəyişikliklər isə statistikadan daha ağır nəticələr doğurur: belə insanların insult, ürək-damar xəstəlikləri, diabet, xroniki ağciyər problemləri, depressiya və demensiya ilə üzləşmə riski xeyli aşağı olur. Elmi dillə desək, yaradıcılıqla nəfəs alan həyat daha dayanıqlı olur.

Xüsusilə diqqətçəkən məqam beynin vəziyyətidir. Araşdırma göstərir ki, incəsənətlə zəngin həyat tərzi beyində sintez olunan xüsusi zülalların səviyyəsini artırır. Məhz bu zülalların çatışmazlığı Altsheymer, şizofreniya, bipolyar pozuntu və epilepsiya kimi ağır xəstəliklərlə əlaqələndirilir. Onların yüksək səviyyəsi isə daha güclü yaddaş, daha aydın düşüncə və neyrodegenerativ risklərin azalması deməkdir. Sanki sənət beynə əlavə bir nəfəs, düşüncəyə isə dayaq verir.

Beləliklə, incəsənət yalnız mədəniyyətin və estetik zövqün sahəsi deyil, eyni zamanda, sağlamlığın mühafizəçisidir. Alimlərin gəldiyi nəticə sadə, amma dərin mənalıdır: insan nə qədər çox yaradır və sənətlə ünsiyyətdə olursa, onun orqanizmi də bir o qədər sağlam və davamlı olur. Görünür, fırça, musiqi və səhnə yalnız gözəllik yaratmır – onlar insan ömrünü də uzadır.

*S.ELAY*
*XQ*

**Asiya ölkələrində aeroportlarda Nipah virusu ilə bağlı nəzarət yenidən sərtləşdirilir və bu tədbirlər bir çoxlarına COVID-19 dövrünü xatırladır. Səbəb Hindistanın Qərbi Benqal ştatında bu təhlükəli virusla yoluxmanın bir neçə halının təsdiqlənməsidir. Mütəxəssislər hesab edirlər ki, erkən nəzarət mümkün yayılmanın qarşısını almaq üçün əsas şərtdir.**

# Nipah virusu Hindistandan yol gəlir...




Tailandda böyük hava limanlarında sərnişinlər temperatur ölçümü və simptom yoxlamasından keçirilir. Qızdırma və ya Nipah virusuna uyğun əlamətlər aşkar edilərsə, həmin şəxslər müvəqqəti karantinə göndərilir. Bu yanaşma pandemiya dövründə sınaqdan çıxmış metodlara əsaslanır. Rəsmilər bildirir ki, ölkədə hələ yoluxma qeydə alınmayıb, lakin risk nəzərə alınaraq müşahidə yüksək səviyyədə saxlanılır.

Nepalda da oxşar tədbirlər görülür. Katmandudakı beynəlxalq hava limanında və Hindistanla sərhəd keçidlərində tibbi məntəqələr qurulub. Burada səyahətçilər yoxlanılır, şübhəli hallarda dərhal tibbi yardım göstərilir. Məqsəd virusun ölkə daxilinə keçməsinin qarşısını almaqdır.

Tayvanda isə məsələ daha ciddi səviyyədə qiymətləndirilir. Səhiyyə qurumları Nipah virusunu ən yüksək risk qrupuna daxil etməyi planlaşdırır. Bu status adətən yeni, sürətlə yayıla bilən və ağır nəticələrə səbəb olan infeksiyalara verilir.

Nipah virusu Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən də xüsusi diqqət altında saxlanılır. Bu virusun əsas təhlükəsi ondan ibarətdir ki, həm ağır xəstəlik törədə bilir, həm də ölüm faizi çox yüksəkdir. İlkin mərhələdə simptomlar adi qripi xatırladır: qızdırma, baş və əzələ ağrıları, halsızlıq. Lakin bəzi hallarda infeksiya sürətlə ağırlaşaraq ağciyər problemlərinə, tənəffüs çatışmazlığına və hətta beyin iltihabına səbəb ola bilər. Maraqlıdır ki, yoluxanların bir hissəsində ümumiyyətlə heç bir simptom müşahidə olunmur.

Keçmişdə Nipah virusu ilə bağlı baş verən epidemiyalar zamanı ölüm göstəriciləri çox yüksək olub – bəzi bölgələrdə yoluxanların yarıdan çoxu həyatını itirib. Virus indiyədək əsasən Cənubi və Cənub-Şərqi Asiya ölkələrində qeydə alınıb.

Alimlər vurğulayırlar ki, Nipah virusu hələlik geniş yayılmasa da, onun potensialı kifayət qədər təhlükəlidir. Məhz buna görə aeroportlarda erkən nəzarət, sürətli reaksiya və ictimai məlumatlandırma gələcəkdə daha böyük epidemiyaların qarşısını ala biləcək əsas amillər hesab olunur.

*XQ*

## HAVA

# Yağmursuz və dumanlı cümə...



**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir.**

Gecə və səhər bəzi yerlərdə duman müşahidə ediləcək. Mülayim cənub-şərq küləyi əsəcək. Havanın temperaturu gecə 1-4, gündüz 8-12 dərəcə isti olacaq. Atmosfer təzyiqi 759 millimetr civə sütunundan 756 millimetr civə sütununa enəcək. Nisbi rütubət gecə 80-90, gündüz 60-70 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi proqnozlaşdırılır. Bəzi yerlərdə arabir duman olacaq. Mülayim qərb küləyi əsəcək. Havanın temperaturu gecə 1 dərəcə şaxtadan 4 dərəcəyədək isti, gündüz 8-13 dərəcə isti, dağlarda gecə 2-7 dərəcə şaxta, gündüz 3-8 dərəcə isti olacaq. Gecə bəzi dağlıq ərazilərdə yolların buz bağlayacağı ehtimalı var.

*Q.ƏLİYEV*
*XQ*

*✓ Lerik rayonunun Hamarat kənd sakini Qasımov Ağaddin Qasım oğluna Lerik Rayonu Aqrar İslahatlar Komissiyasının 1998-ci il 28 iyul tarixli 42 nömrəli qərarı ilə verilmiş torpağın mülkiyyət hüququna dair Dövlət Aktı (JN:113 kod 80307038) itdiyi üçün etibarsız sayılır.*

**ALLAH RƏHMƏT ELƏSİN!**

"Xalq qəzeti"nin kollektivi iş yoldaşları Əli Sadiqova qardaşı

**RİZVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DİREKTOR – BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994 (51) 280-16-44

"Xalq" qəzeti redaksiyası" MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 2917
SİFARİŞ 155
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Mirbağır YAQUBZADƏ
Çapa imzalanmışdır 00:00